UNEC EKSPERT

#2 (09) 2020 • • #1 (10) 2021

# Qarabağ Azərbaycandır!



*"Can qurban etməyin vaxtı çatıbsa,*
*Səndən hansı namərd əsirgəyər can?*
*Atıram başımı ayaqlarına,*
*Ey məğrur vətənim Azərbaycan!"*

İşğaldan azad edilmiş ərazilərin dirçəldilməsinin iqtisadi aspektləri

İşğaldan azad olunmuş ərazilərə investisiya qoyuluşlarının təhlili və qiymətləndirilməsi

İşğaldan azad olunmuş ərazilərə ekoloji baxış

Vətən müharibəsindən sonra Qarabağ bölgəsinin Azərbaycanın bazar iqtisadiyyatına təsiri

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ
1930

# NİYƏ UNEC?

**İNKİŞAF ETMƏKDƏ OLAN AVROPA VƏ MƏRKƏZİ ASİYA UNİVERSİTETLƏRİNİN REYTİNQİNDƏ İQTİSAD YÖNÜMLÜ 4-CÜ UNİVERSİTET OLMAQLA REGİONUN ƏN YAXŞI 200 UNİVERSİTETİNDƏN BİRİ**

Regionda iqtisad elmini dərindən öyrədən fundamental tədris mərkəzidir;

Tədris prosesi və kadr hazırlığı Amerika və Avropa təhsil sisteminə uyğundur;

İxtisaslar bakalavr, magistr və doktorantura təhsil pillələri üzrə

Azərbaycan, ingilis, rus və türk dillərində tədris edilir;

Auditoriyada mərkəz nöqtəsi tələbədir;

Tələbə universiteti iki və daha çox ixtisasla (dual major) bitirə bilər;

Tələbələrin müxtəlif mübadilə proqramlarında iştirak etmək imkanı vardır;

Universitetdə 9 fakültə və 31 kafedra fəaliyyət göstərir;

394 professor və dosent çalışır.

## NİYƏ TÜRK DÜNYASI İŞLƏTMƏ FAKÜLTƏSİ (TUDİFAK)?

Fakültədə təhsil tam türk dilində aparılır;

İxtisaslar: İşlətmə, Beynəlxalq münasibətlər,Turizm və Otelçilik;

Dərs proqramları İstanbul Universiteti nümunəsində hazırlanmışdır;

Fakültə dekanı Türkiyə Universitetlərinin müəllimləri arasından seçilir və fakültənin akademik heyəti təhsillərini Türkiyədə almış azərbaycanlı və türkiyəli müəllimlər təşkil etməkdədir;

Türk Dünyası İşlətmə fakültəsinin diplomunun Türkiyə (YÖK) “denkliyi” ekvivalentliyi vardır.



# UNEC BUSINESS SCHOOL

## NİYƏ UNEC, BEYNƏLXALQ İQTİSADİYYAT MƏKTƏBİ (İSE)?

Tam ingilis dilində təhsil;

İxtisaslar: Dünya iqtisadiyyatı, Maliyyə, Mühasibat, Biznesin idarə edilməsi, İqtisadiyyat;

Fakültənin keçid balı – 601;

Fransa, Almaniya, Niderland, Türkiyə, Koreya, Litva universitetləri ilə mübadilə proqramları;

Qərb universitetlərinin məzunları olan müəllimlər;

London Universitetinin beynəlxalq dərəcə proqramında və Montpellier Universiteti ilə ikili diplom proqramında iştirak imkanı;

Harmon İSE tələbə yaradıcılıq klubu ilə birlikdə maraqlı tələbə həyatı.

## NİYƏ UNEC, MBA PROQRAMI?

MBA Proqramı sizi biznes mütəxəssisi kimi formalaşdırır;

Proqram üzrə bütün fənlərə aid mini kitabxana və praktik məsələlər (case study) toplusu təşkil olunmuşdur;

MBA Proqramında çalışan 100-dən artıq professor-müəllim heyətinin əksəriyyəti ABŞ, Kanada, İngiltərə, Almaniya, İtaliya, İsveç, Fransa, Türkiyə, Rusiya və digər ölkələrin ən qabaqcıl universitetlərini bitirmiş iqtisad üzrə fəlsəfə doktorları və magistrlər təşkil edir;

Fənlər dünyanın ən qabaqcıl ali təhsil ocaqlarının proqramlarına uyğun müəyyənləşdirilmişdir;

UNEC Biznes Məktəbi EFMD-nin Qlobal şəbəkəsinin üzvüdür;

UNEC-UBIS (University of Business and International Studies);

İkili Magistr Dərəcə Proqramına qoşulma imkanı

Almaniyanın Yena Fridrix Şiller Universiteti ilə mübadilə proqramı;

İxtisaslar: Beynəlxalq biznes, Biznesin idarə edilməsi, İnsan resurslarının idarə edilməsi, Maliyyə, Marketinq, Menecment, Mühasibat uçotu, Qiymətli kağızlar.

UNEC EKSPERT

# MÜNDƏRİCAT




Alternativ enerji Qarabağda! 52

Qarabağ regionunun nəqliyyat logistika əlaqələri və beynəlxalq nəqliyyat dəhlizlərinə qoşulma imkanları 22

Neofunksional nəzəriyyə çərçivəsində qarabağ bölgəsində regional əməkdaşlıq imkanları 54

Qarabağ Azərbaycanın qədim etnik-tarixi-mədəniyyət beşiyidir 56

İşğadan azad olunmuş Qarabağ memarlıq abidələrinin bərpaya doğru həlli yolları 60

Qarabağın inkişafının ölkə iqtisadiyyatına təsiri 46

Pandemiya nəticəsində ən çox itki verən ölkələr 68

06 **İşğaldan azad edilmiş ərazilərin dirçəldilməsinin iqtisadi aspektləri**
İşğaldan azad edilmiş torpaqlarımızın dirçəldilməsi və inkişaf etdirilməsi hazırkı dövrdə Azərbaycan dövləti qarşısında dayanan ən mühüm strateji vəzifədir.

10 **İşğaldan azad olunmuş ərazilərə ekoloji baxış**
100 ildən artıqdır ki, Azərbaycan dövlətçiliyinə və xalqına qarşı ermənilər tərəfindən törədilən beynəlxalq cinayətlər hazırda da davam etdirilir. Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində törətdiyi ağır cinayətlərdən biri də ekoloji cinayətlərdir.

14 **Vətən müharibəsindən sonra Qarabağ bölgəsinin Azərbaycanın bazar iqtisadiyyatına təsiri**
Vətən müharibəsinin başa çatdırılması və Qarabağın işğaldan azad ediləsindən sonra Azərbaycan kifayət qədər iqtisadi potensial topladı.

16 **Postmüharibə dövründə Qarabağa qoyulacaq birbaşa investisiyaların sektorlar üzrə təhlili**
Birinci məsələ əhalinin rayonlara köçürülməsinin təmin edilməsi istiqamətində ilkin infrastruktur layihələrinin həyata keçirilməsi və ikinci mövzu isə regionun iqtisadi aktivliyini həyata keçirtmək üçün müxtəlif sahələr üzrə investisiyaların yatırılmasıdır.

19 **Azad olunmuş rayonlarda kommersiya fəaliyyətinin bərpası yolları**
Azərbaycanın Vətən müharibəsində qələbəsindən sonra qarşıda duran mühüm məsələlərdən biri işğaldan azad edilmiş rayonlarda sosial-məişət vəziyyətinin normal hala gətirilməsi üzrə tədbirlərin görülməsi, insanların həmin ərazilərdə tədricən məskunlaşdırılması, onların məşğulluğunun təmin olunması ilə bağlıdır.

24 **İşğaldan azad olunmuş ərazilərə investisiya qoyuluşlarının təhlili və qiymətləndirilməsi**
Azərbaycanın dayanıqlı sosial-iqtisadi inkişafı və işğaldan azad olunmuş ərazilərin bərpası dövlətin diqqət mərkəzindədir.

27 **Qarabağda ekoloji tələblərin beynəlxalq sertifikatlaşdırma sisteminə inteqrasiyası**
Ekoloji etiket sisteminin ölkəmizə inteqrasiyası ekoloji şəhərsalma, sənayeləşdirmə, kənd təsərrüfatı məhsullarının yetişdirilməsi, ixracı və s. kimi sahələrdə çox mühüm bir sistemdir.

30 **İşğaldan azad olunmuş ərazilərdə kommunikasiya problemlərinin həlli yolları**
Sirr deyil ki, 2020-ci il bütün dünya ölkələri üçün çətin keçdi, lakin həmin ilin son aylarında Azərbaycan xalqı tarixinin ən yaddaqalan və şanlı dönəmlərindən birini yaşadı.



71



74



86



62



80



64



84

34 **İşğaldan azad edilmiş ərazilərin aqro potensialının ölkənin ərzaq təhlükəsizliyinin yüksəldilməsinə təsiri**

Ölkəmizin müstəqilliyinin daha da möhkəmləndirilməsi onun iqtisadi təhlükəsizliyinin tərkib hissəsi kimi ərzaq təhlükəsizliyinin təmin edilməsindən bilavasitə asılıdır.

36 **Qarabağda kiçik və orta müəssisələrin innovativ fəaliyyətinin stimullaşdırılması və perspektivləri**

Bu gün yüksək texnologiyalar dövründə Qarabağın qlobal innovasiya sisteminə cəlb edilməsi üçün dəyərli və eyni zamanda layiqli hədəflər qarşıya qoyulub.

38 **İşğaldan azad olunmuş ərazilərdə infrastrukturun bərpası**

40 **Qarabağın yabanı bitki xammallarının Azərbaycan iqtisadiyyatına müsbət təsirini şərtləndirən amillər**

43



48 **Qarabağ bölgəsinin turizm destinasiyası olaraq dəyərləndirilməsi: Ekoturizm nümunəsində**

Günümüzdə turizm regional inkişafın hərəkətverici qüvvəsinə çevrilir və getdikcə daha çox yeni destinasiyaları əhatə edir. Ortaya çıxan yeni turizm destinasiyaları turizmin inkişaf etməsindən daha çox fayda əldə etməyə çalışır. Bunun nəticəsində destinasiyalar arasındaki rəqabət də artmağa başlayır.

50 **İşğaldan azad olunmuş ərazilərdə turizmin inkişafı. Şuşa şəhəri timsalında**

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev xalqa müraciətində bildirdi ki, biz Şuşanı dirçəldəcəyik. Digər işğaldan azad olunan ərazilərimiz kimi, Şuşanın da Azərbaycanın tərkibində sürətli inkişafı gözlənilir.

76 **Karantinin ölkə ixracatına təsiri**

90 **Ölkədə nağdsız ödənişlərin dinamikası**

93 **Pandemiya şəraitdə qida təhlükəsizliyinə yanaşmada nə dəyişməlidir?**

96 **Koronavirus COVİD-19 pandemiyasından sonra beynəlxalq turizm necə inkişaf edəcək?**

100 **Distant işin əmək normaları**

102 **Vaksin geoiqtisadiyyatı**



# İşğaldan azad edilmiş ərazilərin dirçəldilməsinin iqtisadi aspektləri

İŞĞALDAN AZAD EDİLMİŞ TORPAQLARIMIZIN DİRÇƏLDİLMƏSİ VƏ İNKİŞAF ETDİRİLMƏSİ HAZIRKI DÖVRDƏ AZƏRBAYCAN DÖVLƏTİ QARŞISINDA DAYANAN ƏN MÜHÜM STRATEJİ VƏZİFƏDİR.

*i.e.d., prof. Manafov Qabil*



*Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycanın məruz qaldığı itki və tələfatların qiymətləndirilməsi üçün hələ vaxtilə ölkə rəhbərinin göstərişi ilə yaradılmış işçi qrupu 2014-cü ildən başlayaraq, bu işlə ciddi məşğul olmuş, konkret nəticələr əldə etmişdir.*

Bu vəzifənin uğurlu həlli, ilk növbədə, Ermənistanın hərbi təcavüzü nəticəsində iqtisadiyyatımıza dəyən zərərin, işğal altında olan bölgələrimiz tərəfindən itirilmiş iqtisadi potensialın dəqiq müəyyən edilməsini, onların mövcud iqtisadi potensialının qiymətləndirilməsini, bu potensialın səmərəli reallaşdırılması üçün resursların və imkanların müəyyən edilməsini və zəruri iqtisadi mexanizmlərin işlənib hazırlanmasını, bu əsasda həmin torpaqlarda inkişafımızın prioritet sahələrinin və istiqamətlərinin müəyyənləşdirilməsini vacib edir.

Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycanın məruz qaldığı itki və tələfatların qiymətləndirilməsi üçün hələ vaxtilə ölkə rəhbərinin göstərişi ilə yaradılmış işçi qrupu 2014-cü ildən başlayaraq, bu işlə ciddi məşğul olmuş, konkret nəticələr əldə etmişdir. Müəyyən edilmişdir ki, işğal olunmuş ərazilərdə 1988-1994-cü illərdə 2,4 min sənaye, aqrar sahə obyektləri və digər müəssisələr tamamilə məhv edilmiş, 5,2 min km avtomobil yolu, 350-ə yaxın körpü, 286 km dəmir yolu xətti, 116 dəmir yolu körpüsü, 224 su anbarı, 7,6 min km su xətti, 2 min km qaz kəməri xətti, 76,9 min km elektrik xətti, 2,5 min ədəd transformator və s. infrastruktur obyektləri dağıdılmış və talan edilmişdir.

Bununla yanaşı, kənd təsərrüfatı üçün mühüm əhəmiyyət kəsb edən iqtisadi potensiala ciddi ziyan vurulmuş, təqribən 1 milyon hektar suvarılan torpaq, 34,6 min hektar üzüm və meyvə bağları işğalçılar tərəfindən ələ keçirilmiş, böyük həcmdə əkin sahələri üçün yararlı torpaqlar suvarılmayaraq faktiki olaraq iqtisadi dövriyyədən çıxarılmış, 220 min baş mal-qara işğalçıların əlinə keçmişdir.

Bütövlükdə isə işçi qrupu tərəfindən 2017-ci il üçün verilmiş məlumata görə, hərbi təcavüz və işğal nəticəsində ölkəmizə dəymiş itki və ziyanların ümumi dəyəri 820 milyard dollar olaraq qiymətləndirilmişdir.

Heç şübhəsiz ki, 2020-ci ilin sentyabrında başlamış Vətən müharibəsi dövründə ölkəmizə vurulmuş ziyanın və tələfatların həcmini, həmçinin Qarabağ bölgəsində vaxtilə işləyən müəssisələrin işğal nəticəsində dağıdılması səbəbindən əldə edilməsi mümkün olmayan, itirilmiş gəlirləri və mənfəətləri nəzərə alsaq, bu rəqəm xeyli yüksək olacaqdır.



*İşğaldan azad edilmiş torpaqlarımızın potensialının iqtisadi dövriyyəyə cəlb edilməsi ölkə ÜDM-nin dəyərinin artmasına, qeyri-neft sektorunun inkişafına, bölgədə istehsal olunan malların və xidmətlərin rəqabət qabiliyyətini təmin etməyə böyük imkanlar yaradacaqdır.*

Hazırda dövlətimiz tərəfindən işğaldan azad olmuş bölgələrin bərpası və inkişafı ilə bağlı konsepsiya hazırlanmışdır ki, onun da həyata keçirilməsinin mühüm istiqaməti kimi həmin bölgələrin iqtisadi potensialı, o cümlədən meşə, su və torpaq ehtiyatları nəzərə alınmaqla burada kənd təsərrüfatının, sənayenin, turizmin və digərlərinin dirçəldilməsi və inkişafı çıxış edir.

Məlumdur ki, hazırda işğaldan azad olmuş ərazilər zəngin yeraltı və yerüstü sərvətlərə: filiz, əlvan metallar, qızıl, civə, xromit, əhəng, mərmər, əqiq, mineral sular və s. kimi mineral ehtiyatlara və geniş kurort rekreasiya potensialına malikdir. Bu ərazilərdə inşaat sektoru üçün zəruri olan bir çox tikinti materialları: mişar daşı, kərpic, çınqıl, sement, əhəng daşı istehsal, üçün zəruri xammallar, tikinti qumu və s. vardır.

İşğaladək bu ərazilərdə fəaliyyət göstərən sənaye sahələri respublika iqtisadiyyatında mühüm rola malik idi. Burada əsasən yeyinti, yüngül, tikinti materialları kimi sənaye sahələri güclü inkişaf tapmışdır. İşğaladək bu ərazilərin sənaye sahələri arasında daha güclü inkişaf edənləri yerli əhalinin ərzaqla təminatında mühüm əhəmiyyət daşıyırdı. Həmin ərazilərdə İstisu və Turşsu mineral suyunun qablaşdırılması müəssisələri, Dağlıq Qarabağın və Ağdamın mərmər, mişar daşı zavodları, şərab zavodları, toxuculuq və ayaqqabı fabrikləri, Qarabağ İpək Kombinatı və s. müəssisələr fəaliyyət göstərirdi.

Kənd təsərrüfatına gəldikdə, bu ərazilərdə taxılçılıq, yem istehsalı, tütünçülük, üzümçülük, pambıqçılıq, kartofçuluq, bağçılıq və bostançılıq, ətlk-südlük heyvandarlıq, xüsusən də qoyunçuluq üstünlük təşkil edirdi. Bu ərazilərdə hazırda işğal nəticəsində dağıdılmış 311 kənd təsərrüfatı müəssisəsi, o cümlədən məşhur Qarabağ cinsi cıdır atları yetişdirilən Ağdam atçılıq sovxozu, 319 kolxoz və 92 sovxoz fəaliyyət göstərirdi.

Bütövlükdə isə işğaldan  əvvəl bu bölgələrdə Azərbaycanın kənd təsərrüfatı məhsullarının təqribən 35-40 %-i, o cümlədən ətin 14 %-i, baramanın 17 %-i, taxılın 14 %-dən, üzümün 31 %-dən, südün 17 %-dən, yunun 19 %-dən çoxu istehsal edilirdi.

Deyilənlər göstərir ki, hazırda işğaldan azad edilmiş bölgələrdə həm əkinçilik, həm də heyvandarlıq məhsulları istehsalı üçün böyük

*Hazırda dövlətimiz tərəfindən işğaldan azad olmuş bölgələrin bərpası və inkişafı ilə bağlı konsepsiya hazırlanmışdır. Onun həyata keçirilməsinin mühüm istiqaməti kimi həmin bölgələrin iqtisadi potensialı, kənd təsərrüfatının, sənayenin, turizmin və digərlərinin dirçəldilməsi və inkişafı çıxış edir.*

potensial vardır və mövcud təbii iqlim şəraiti bu sahələrin dirçəldilməsi və inkişafı üçün əlverişli imkan yaradır. Bu iqtisadi potensialın və imkanların reallaşdırılması xüsusilə bölgə əhalisinin həmin məhsullara tələbatının ödənilməsinə, burada aqrar bölmənin məhsullarının emalı sahələrinin inkişafına, ən əsası isə ölkəmizdə ərzaq təhlükəsizliyinin yüksəlməsinə əlverişlı şərait yaradacaqdır. Xüsusilə heyvandarlıq məhsulları ilə özünü təminetmə yaxşılaşacaqdır. Belə ki, hazırda ölkəmizin ət və ət məhsulları ilə özünü təminetmə səviyyəsi 82,5 %, süd və süd məhsulları ilə 86,2 % təşkil edir. Proqnozlara görə, azad edilmiş ərazilərdə iqtisadi fəaliyyət bərpa edildikdən sonra özümüzü bu məhsullarla, həmçinin dənli bitkilərlə daha yüksək səviyyədə təmin edə biləcəyik.

İşğaldan azad olmuş ərazilərimizin sənaye potensialının iqtisadi dövriyyəyə cəlb edilməsi dağ-mədən, metallurgiya, tikinti materialları, müxtəlif istiqmətli emal sənayesi sahələrinin inkişafına imkan yaradacaqdır. İlkin hesablamalara görə, önümüzdəki illərdə Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi rayonlarında əsas sahələrdə ümumi istehsal həcmi 2 milyard manatdan çox arta bilər.

Beləliklə, işğaldan azad edilmiş torpaqlarımızın potensialının iqtisadi dövriyyəyə cəlb edilməsi ölkə ÜDM-nin dəyərinin artmasına, qeyri-neft sektorunun inkişafı ilə bağlı proqnozları yaxşılaşdırmaq istiqamətində dəqiqləşdirməyə, ölkənin ərazi əmək bölgüsündə bölgənin yerini və payını yüksəltməyə, bölgədə istehsal olunan malların və xidmətlərin rəqabət qabiliyyətini təmin etməyə böyük imkanlar yaradacaqdır.



# İşğaldan azad olunmuş ərazilərə ekoloji baxış

*A.R. Milli Məclisinin komitə sədri,*
*tex.e.n., b/m. Qurbanov Sadıq*

*100 ildən artıqdır ki, Azərbaycan dövlətçiliyinə və xalqına qarşı ermənilər tərəfindən törədilən beynəlxalq cinayətlər hazırda da davam etdirilir. Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində törətdiyi ağır cinayətlərdən biri də ekoloji cinayətlərdir.*

Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti nəticəsində 30 ilə yaxın Azərbaycan torpaqlarının 20 faizi, Qarabağ ərazisi və ətraf yeddi rayon Ermənistan silahlı qüvvələrinin işğalı altında olmuşdur.

27 sentyabr 2020-ci il tarixində Azərbaycan ordusu Ermənistanın təxribatlarının qarşısını almaq məqsədi ilə əks-həmlə əməliyyatı həyata keçirərək Azərbaycanın Fizuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Şuşa şəhərlərinin işğaldan azad etdi. 10 noyabr 2020-ci il tarixində Ermənistan silahlı qüvvələrinin birləşmələri Kəlbəcər, Laçın və Ağdam rayonlarının ərazilərini qeyd-şərtsiz tərk etməsi barədə Azərbaycan, Rusiya Prezidentləri və Ermənistanın baş naziri arasında birgə Bəyanat imzalandı.

Ermənistanın uzun illər müddətində işğal altında saxladığı Azərbaycan ərazilərində təbiətə qarşı düşmən münasibəti və törətdiyi ekoloji terror nəticəsində regionun ətraf mühitinə ciddi təhlükə yaranmışdır. Azərbaycan Respublikasının Qarabağ və onun ətrafındakı rayonların uzun müddət işğal altında saxlanılması



*Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti məhz Şuşa şəhəri yaxınlığında yerləşən və dövlət qoruğu hesab edilən Topxana meşələrinin qırılması ilə başlamışdır.*

nəticəsində həmin ərazilərdə bioloji müxtəlifliyə, o cümlədən flora və fauna növlərinə, xüsusi mühafizə olunan təbiət ərazilərinə ciddi zərər vurulmuş, ərazilərin yandırılması, su resurslarının çirkləndirilməsi, qiymətli ağac növləri ilə zəngin meşələr, eləcə də təbiət abidələri, ümumilikdə yeraltı və yerüstü təbii sərvətlərin məqsədli şəkildə talan edilməsi nəticəsində ekoloji tarazlıq pozulmuş və Azərbaycanın ekologiyasına ciddi ziyan dəymişdir.

Nəzərinizə çatdırırıq ki, Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti məhz Şuşa şəhəri yaxınlığında yerləşən və dövlət qoruğu hesab edilən Topxana meşələrinin qırılması ilə başlamışdır. Ermənistanın işğalı altında qalmış 260 min 311 hektar (bundan 224 min 792 hektarı sıx meşə ilə örtülü olmuşdur) meşə sahəsi və bu ərazilərdə yayılmış palıd, fıstıq, vələs, göyrüş, şam, ağcaqayın, ayı fındığı, qoz, çinar kimi qiymətli ağac cinsləri kəsilərək müxtəlif məqsədlər üçün istifadə olunmuşdur. Uzun illər işğal altında qalmış ərazilərdəki meşələrin kütləvi şəkildə qırılması səhralaşmaya və torpaqların eroziyasına səbəb olmuşdur. Təsadüfi deyil ki, son illərdə Ermənistanda mebel sənayesinin istehsalında və ixracında xeyli artım müşahidə olmuşdur. Şübhəsiz ki, bu, Azərbaycanın işğal olunmuş ərazilərində minillik yaşı olan qiymətli ağac növlərinin amansız kəsilməsi yolu ilə əldə edilmişdir.

Məlumat olaraq bildiririk ki, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində 43 min hektar sahəsi olan (Bəsitçay Dövlət Təbiət Qoruğu - 107 ha, Qaragöl Dövlət Təbiət Qoruğu - 240 ha, Qubadlı Dövlət Təbiət Yasaqlığı- 20000 ha, Daşaltı Dövlət Təbiət Yasaqlığı - 450 ha, Arazboyu Dövlət Təbiət Yasaqlığı - 2200 ha və Laçın Dövlət Təbiət Yasaqlığı - 20000 ha) xüsusi mühafizə olunan təbiət ərazilərində “Azərbaycan Respublikasının Qırmızı Kitabı”na daxil edilmiş 24 fauna və 70-dən çox flora növü qorunurdu ki, bunların da əksəriyyəti artıq məhv edilmişdir.



*"Azərbaycan Respublikasının Qırmızı Kitabı"na daxil edilmiş 24 fauna və 70-dən çox flora növü qorunurdu ki, bunların da əksəriyyəti artıq məhv edilmişdir.*

Bu ərazilərdə 460 növdən çox yabanı ağac və kol bitkiləri bitir. Bunlardan 70-i dünyanın heç bir yerində təbii halda bitməyən endemik bitkilərdir. Yüzlərlə növ ağac və kol bitkiləri (Ayı fındığı, Araz palıdı, Yalanqoz, Şərq çinarı, Hirkan şümşadı, Eldar şamı, Söyüdyarpaq armudu, Qafqaz xədicəgülü, Qarabağ dağ laləsi, Şmidt dağ laləsi və s.) işğal müddətində məhv edilərək dünya florasının xəzinəsindən silinmək təhlükəsi qarşısında qalmışdır. Qarabağ ərazisində 2000-dən çox adli bitki növünə rast gəlinir ki, bu da Azərbaycan florasının 42 faizini təşkil edir. Bölgədəki 127 fauna növü və 72 flora növü nadir və nəsli kəsilmək təhlükəsi altında olmaqla, Beynəlxalq Təbiəti Mühafizə İttifaqının Siyahısına və “Azərbaycan Respublikasının Qırmızı Kitabı”na salınmışdır.

Təbiət abidəsi statusuna malik 152 sayda ağac (şərq çinarı, palıd, azat, armud), 8 xüsusi qiymətli meşə sahəsi (Şərq çinarı, Püstə, Ayı fındığı, Ardıc, Azat, Araz palıdı, Çaytikanı, Pirkal), 6 ədəd geoloji-palentoloji obyekt ("Azıx", "Tağlar", "Xan", "Qaxal" və "Divlər sarayı" mağarası, "Bazaltın sütunvari aralanması") yaşı 120 ildən 2000 ilədək olan pasportlaşdırılmış 145 Şərq çinarı və digər təbiət sərvətləri uzun illər ağır və misli görünməmiş talanla üz-üzə qalmışdır. Kəlbəcər rayonunda 968 hektar ərazini əhatə edən "Qırmızı kitab"a daxil edilmiş Ayı fındığı ağacları da kütləvi şəkildə qırılmışdır.

***Azərbaycanın işğaldan azad olunmuş ərazilərində ekoloji əhəmiyyətə malik 7 relikt göl (Kəlbəcər və Laçın rayonlarının yaylaqlarında Böyük Alagöl, Kiçik Alagöl, Zalxagöl, Qaragöl, Canlıgöl, İşıqlı Qaragöl və Ağdərə rayon ərazisində (Tərtərin qolu olan Torağaçayda) Qaragöl) və 10 su anbarı işğalçı Ermənistan tərəfindən ciddi antropogen təsirə məruz qalmışdır. Azərbaycan ərazisindən axan çayların çoxu Ermənistandan və Qarabağın ərazisindən qaynaqlanır. İşğal olmuş ərazilərdə axan və yerləşən su mənbələrinin uzun illər boyu çirkləndirilməsi qiymətli balıq növlərinin yox olmasına və balıq ehtiyatlarının tükənməsinə səbəb olmuşdur.***

Ümumi həcmi 631 milyon $m^3$ olan 10 su anbarı, o cümlədən Tərtər çayı üzərində inşa edilmiş, su tutumu 560 milyon $m^3$ olan və 100 min hektardan artıq əkin sahəsinin suvarılmasına hesablanmış Sərsəng su anbarı texniki xidmət göstərilmədiyindən ətraf ərazilərdə yaşayan əhali üçün potensial təhlükə mənbəyinə çevrilmiş, su anbarından aşağıda, dağətəyi və aran hissədə yerləşən yaşayış məntəqələrində yaşayan 400 min əhali təhlükə altında qalmışdır. Qeyd olunan faktları nəzərə alaraq, Avropa Şurası Parlament Assambleyası tərəfindən Azərbaycanın Ermənistanla sərhədyanı rayonlarının sakinlərinin qəsdən sudan məhrum edilməsi ilə bağlı 2016-cı ildə 2085 saylı Qətnamə qəbul edilmişdir. İşğal dövründə Azərbaycanın həmin ərazilər üzərində nəzarəti həyata keçirilməsi mümkünsüzlüyü ölkənin beynəlxalq konvensiyalardakı öhdəliklərini yerinə yetirilməsini çətinləşdirirdi. Ermənistanın BMT-nin Transsərhəd su axınlarının və beynəlxalq göllərin qorunması və istifadəsinə dair Konvensiyasına əməl etməməsi, sərhədyanı su axınlarının problemlərini beynəlxalq hüquq normaları çərçivəsində həllini mümkünsüz etmişdir.

Son illərdə Azərbaycana məxsus olan ərazilərdə yeraltı sərvətlərin talan edilməsi yolu ilə Ermənistanda dağ-mədən məhsullarının ixracının artması müşahidə olunurdu. Ölkənin iqtisadi potensialında mühüm əhəmiyyət kəsb edən 167 sayda qızıl, gümüş, mis, qurğuşun, civə, daş kömür, müxtəlif növ tikinti materialları və digər faydalı qazıntı yataqları, o cümlədən yeraltı şirin su və mineral su (Şırlan, Turşsu və s.) yataqları xarici ölkələrin hüquqi şəxslərinin iştirakı ilə Ermənistan tərəfindən qanunsuz olaraq istismar edilərək xarici ölkələrə ixrac edilmişdir.

Bu gün ekoloji problemlərin kəskinləşməsinə gətirən amillərdən biri də atom enerjisinin istehsalı sahəsində təhlükəsizlik məsələləri ilə bağlıdır. Bu baxımdan, Ermənistan ərazisində yerləşən və istismar müddətini keçmiş "Metsamor" Atom Elektrik Stansiyası bütün regionun ətraf mühiti və əhalinin sağlamlığı üçün ciddi təhlükə yaradır. Ermənistanın nüvə və radioaktiv materialların, habelə nüvə yanacağı tullantılarının qaçaqmalçılığında xüsusi rol oynaması Azərbaycanın işğaldan azad olunan ərazilərində işğal müddətində radioaktiv tullantıların basdırılması regionda ciddi təhdid mənbəyi olaraq qalır. Belə ki, "region üçün böyük fəlakət mənbəyi olan "Metsamor" Atom Elektrik Stansiyası (AES) fəaliyyətini hələ də davam etdirir və təəssüf ki,



region ölkələri və beynəlxalq ictimaiyyət bu məsələyə adekvat münasibət göstərmir. Necə ki, uzun illər Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal olunmasına göz yumublar, eləcə də "Metsomor" AES-in bağlanmasını istəmirlər. Halbuki, hər an baş verməsi mümkün olan qəza regionun radioaktiv çirklənməsinə səbəb olacaq.

Stansiya Türkiyə sərhədindən 16 km, İran sərhədindən 60 km, Azərbaycan sərhədindən 120 km, Gürcüstan sərhədindən 110 km, İqdır şəhərindən 28 km, tarixi İrəvan şəhərindən 25 km məsafədə yerləşir. 1976-cı ildə istismara verilən, 2 blokdan ibarət olan AES-in hər blokunda 1 ədəd VVER-440 tipli reaktordan istifadə olunur. Bu reaktorlar isə köhnə nəsil və qoruyucu örtüyü olmayan reaktorlardır.

Xatırladaq ki, 1982-ci ildə "Metsamor" AES-in maşın zalında böyük yanğın baş verib. 1983-cü ildə 3-cü və 4-cü blokların tikintisi başlanıb, lakin 1986-cı ildə Çernobıl qəzasından sonra tikinti tamam dayandırılıb. 1988-ci ildə baş vermiş Spitak zəlzələsindən sonra keçmiş SSRİ rəhbərliyi həm Çernobıl qəzasının, həm də Spitak zəlzələsinin fəsadlarından qorxaraq 1989-cu ilin yanvarında "Metsamor" AES-in fəaliyyətinin tam dayandırılmasına qərar verib. 1-ci blok sıradan çıxıb, 2-ci blok isə konservasiya olunaraq dayandırılıb. Zəlzələnin episentri Metsamordan 75 km məsafədə olub və 7 bal gücündə olan zəlzələ Spitak şəhərini dağıdaraq 25 min insanın ölümünə səbəb olub.

Qeyd edək ki,1995-ci ildə Ermənistan hökuməti enerji böhranına görə beynəlxalq təşkilatların etirazlarına baxmayaraq, "Metsamor" AES-in fəaliyyətini bərpa edib. "2014-cü ildə Ermənistan hökuməti AES-in istismarının 2026-ci ilədək uzadılması haqqında qərar qəbul edib. Bu məqsədlə Rusiya hökuməti Ermənistana 270 milyon dollar kredit və 30 milyon dollar qrant ayırıb. Amma bu vəsaitlər AES-in tam təhlükəsiz şəkildə fəaliyyətinə heç bir halda təminat vermir. Çünki stansiyada istifadə edilən VVER-440 tipli reaktor 1-ci nəsildir və 8 bal gücündə zəlzələyə hesablanıb. AES "Rosatom" tərəfindən nə qədər rekonstruksiya olunsa öz ömrünü başa vurub və regionda yalnız orada istifadə edilir.

Avropa Parlamentinin, Avropa İttifaqının Şərq Tərəfdaşlığı Təşkilatının Metsamor AES-in tam bağlanmasının tərəfdarı olduğunu xüsusi qeyd etmək lazımdır: "Onlar bəyanatlarında AES-in istismar müddətini başa vurmasını və AES-in seysmik aktiv zonada yerləşməsini əsas götürüblər".

AES-də baş verə biləcək hər hansı qəza əvvəlcə Ermənistanın, sonra region ölkələrinin ərazilərinin radioaktiv çirklənməsinə, nəticədə ekoloji fəlakətə səbəb ola bilər. Bundan əlavə "Metsamor" AES-in radioaktiv tullantılarının emalı, utilizasiyası üçün Ermənistanın heç bir potensialı, maliyyə mənbəyi və başqa imkanları yoxdur. Hər il AES-də min tonlarla bərk və maye halında radioaktiv tullantı əmələ gəlir. Bu tullantıların utilizasiyası necə həyata keçirilir? Hətta ən sadə metodla onların basdırılması ərazi baxımından Ermənistanda mümkün deyil. Maye halında olan radioaktiv tullantılar isə Araz çayına axıdılır. Bu isə çayın suyunun zəhərlənməsinə və nəticədə Azərbaycan ərazisinin radioaktiv çirklənməyə məruz qalmasına səbəb olur.



# Vətən müharibəsindən sonra Qarabağ bölgəsinin Azərbaycanın bazar iqtisadiyyatına təsiri

*i.e.d., prof. Sadıqov Elnur*

### 1. Vətən müharibəsindən sonra Qarabağ bölgəsinin Azərbaycanın bazar iqtisadiyyatına təsiri

Vətən müharibəsinin başa çatdırılması və Qarabağın işğaldan azad edilməsindən sonra Azərbaycan kifayət qədər iqtisadi potensial topladı. Ölkədə təbii ehtiyatlardan səmərəli istifadə ilə bağlı iqtisadi islahatların sayı artırılmaqdadır. İqtisadiyyatın və sosial məkanın bazar tələblərinə uyğun yenidən qurulması üçün mühüm addımlar atılmağa başlanılmışdır.



### 1.1. İşğaldan azad edilən ərazilərdə sahələr üzrə ikişaf potensialı

Ərazilərin işğal altında saxlanılması Ermənistana ciddi iqtisadi fayda gətirməyib. Həmin ərazilərin yeraltı və yerüstü təbii ehtiyatlarla zəngin olmasına, əlvan metal filizləri, qızıl, civə, xromit, perlit, əhəng, mərmər, əqiq, mineral sular və digər çox yayılan faydalı qazıntılara malik olmasına, habelə geniş kurort-rekreasiya potensialına malik olmasına baxmayaraq, Ermənistan bu potensialdan heç zaman tam faydalana bilməyib.

**Cənab Prezident İlham Əliyevin** uzaqgörənliklə Araz çayı üzərində Xudafərin və Qız qalası bəndləri və elektrik stansiyalarının inşası və istismarı haqqında İranla gəldiyi razılaşma bu gün öz sözünü deyir. "Xudafərin" hidroqovşağı Azərbaycana ildə 368 milyon kilovat/saat elektrik enerjisi istehsal etməyə imkan verəcək.

“AzerGold” QSC və Azərbaycan Sənaye Korporasiyası bu ehtiyatların hasilatı və emalını həyata keçirə biləcək təcrübə, ixtisaslı kadr, ixrac və investisiya imkanlarına sahibdir. Beləliklə, yeni təbii resursları dövriyyəyə cəlb etməklə Azərbaycan qərb bölgəsinin inkişafı, dağ-mədən sənayesinin, eləcə də metallurgiya kompleksinin yüksəlişini təmin etmək potensialına malikdir. Metallurgiyanın inkişafı isə Azərbaycanda bir sıra sənaye sahələri ilə yanaşı, həm də hərbi sənayenin inkişafını sürətləndirəcək. 5G texnologiyalara sahib Azərbaycan Ordusunun təchizatında hərbi sənayemiz öz sözünü deməlidir.

İşğaldan azad olunan ərazilərdə “tikinti bumu” gözlənilir. Ərazilərimizin azad edilməsi nəticəsində illər üzrə qeyri-neft sektorunun inkişafı ilə bağlı verilən proqnozlar yenidən işləməli olacaq. Çünki Ordumuzun bu qələbəsi həm də qeyri-neft sektorunun daha sürətlə böyüməsinə təkan verəcək. Ərazilərin işğaldan tam azad olunmasının iqtisadi inkişafa təsiri çox böyük olacaq. İlkin hesablamalar göstərir ki, qarşıdakı illərdə Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi rayonlarında əsas sahələr üzrə məhsulun ümumi buraxılışı 2 milyard manatdan çox arta bilər.



### 1.2. İşğaldan azad olunan ərazilərdə kənd təsərrüfatı

İşğal olunmuş ərazilər işğaldan əvvəl Azərbaycanda istehsal edilən kənd təsərrüfatı məhsullarının 35-40 faizə qədərini təmin edirdi. Ermənistanın işğal nəzarəti altında olduğunda bu zona Ermənistan üçün səmərəsiz olub. Təkcə Qarabağ ərazisində 250 min hektardan çox məhsuldar torpaqların olmasına baxmayaraq, bu ərazilərin cəmi 7 faizində istifadə edilmişdir. Hazırda Azərbaycan işğaldan azad olunan torpaqlarda üzümçülük, tütünçülük, pambıqçılıq, baramaçılıq, meyvə-tərəvəz, bostançılıq və heyvandarlığın inkişafı üçün böyük potensiala sahibdir. Eyni zamanda burada emal və ərzaq sənayesinin inkişafı potensialı var.

Azərbaycan ərazilərinin işğaldan azad edilməsi həm də ölkəmizdə ərzaq təhlükəsizliyinin təmininə ciddi töhfə verəcək. Xüsusən də heyvandarlıq məhsulları ilə özünütəminetmə səviyyəsi yaxşılaşacaq. Hazırda ölkəmizdə özünütəminetmə səviyyəsi ət və ət məhsulları üzrə 82,5 faiz, süd və süd məhsulları üzrə 86,2 faizdir. Proqnozumuza görə, işğaldan azad edilən ərazilərdə təsərrüfat fəaliyyəti bərpa ediləndən sonra bu məhsullarla daxili tələbatı təmin edə biləcək. Həmçinin Azərbaycanda dənli (çəltik daxil edilmir) bitkilər üzrə özünü təminetmə səviyyəsi 70 faizə çatacaq.

### 1.3. İşğaldan azad olan ərazilərimiz zəngin su ehtiyatları

Su ehtiyatlarının 72,7 faizi ölkə xaricində formalaşan Azərbaycanın işğal altında olan su resurslarına çıxışı əhəmiyyətlidir. Bu ehtiyatlardan həm içməli su, həm meliorasiya, həm də elektrik enerjisi istehsalı üçün istifadə ediləcək. Azərbaycan su ehtiyatlarını səmərəli idarə etməklə həm Ermənistanın Azərbaycana qarşı apardığı hidro müharibəyə son qoyacaq, həm də Ermənistanın özünə də nəzarət imkanı qazanacaq. Xüsusən də Kəlbəcər və Laçın rayonları şirin su ehtiyatları ilə zəngindir, hətta Ermənistanın şirin su mənbəyi olan Göyçə gölünü qidalandıran Arpa və Bərgüşad çaylarının da mənbəyi bu rayonlardadır.

Bundan əlavə, Azərbaycanda bəndinin hündürlüyünə görə (125 metr) ən yüksək, ümumi su tutumu 560 milyon kubmetr olan Sərsəng su anbarı Tərtər, Ağdərə, Bərdə, Goranboy, Yevlax və Ağcabədi rayonlarını suvarma suyu ilə təmin edəcəkdir. Ermənistan tərəfi bu su anbarını süni daşqınlar yaratmaqla Azərbaycan torpaqlarına ziyan vurmaq üçün yaz və payız aylarında açırdı.

Azərbaycanın mineral su ehtiyatlarının 40 faizinə qədəri işğal altındakı torpaqlarda idi. Bu suların həm qablaşdırılaraq satılması, həm də bulaqların üzərində kurort-rekreasiya zonalarının yaradılması mümkündür.

İşğal altından azad edilən 2 qoruq, 4 yasaqlıq və tarixi abidələrin əsasında turizmin inkişafı üçün böyük potensial sayılaraq dünyanın ən qədim yaşayış məskənlərindən olan Azıx mağarasının turizm imkanları yaradılacaqdır.

Ermənistan işğal altından azad edilən ərazilərdə 2020-ci ilədək 30 kiçik su elektrik stansiyasının (SES) tikintisini nəzərdə tutsa da, onlardan yalnız 16-sı istifadəyə verilib. Həmin istifadəyə verilmiş SES-lərin ümumi gücü 1976-cı ildə istifadəyə verilmiş, gücü 50 meqavat olan “Sərsəng” SES səviyyəsindədir.



# Postmüharibə dövründə **Qarabağa qoyulacaq birbaşa investisiyaların** sektorlar üzrə təhlili

*2020-ci ilin sentyabr ayından başlayan torpaqların işğaldan azadetmə əməliyyatı Ali Baş Komandanın rəhbərliyi ilə müzəffər ordumuz tərəfindən uğurla həyata keçirildi və noyabr ayının 10-da bağlanan üçtərəfli bəyanata əsasən, torpaqların boşaldıması aktı təmin edildi. İşğaldan azad olunan torpaqların boşaldılması həyata keçirildikdən sonra iki əsas məsələ gündəmə gəldi. Birinci məsələ əhalinin rayonlara köçürülməsinin təmin edilməsi istiqamətində ilkin infrastruktur layihələrinin həyata keçirilməsi və ikinci mövzu isə regionun iqtisadi aktivliyini həyata keçirtmək üçün müxtəlif sahələr üzrə investisiyaların yatırılmasıdır.*

*müəllim, Səfərli Elmir*

Hələ Qarabağ probleminin mövcud olduğu dövrlərdə belə Azərbaycan dünyada investisiya qoyuluşuna görə ən cəlbedici ölkələr sırasında olmuşdur. Bütünlükdə, 1995-2018-ci illər ərzində Azərbaycana ortalama olaraq 140 milyar ABŞ dolları həcmində xarici investisiya cəlb olunmuşdur. Bu sərmayələrin 30 %-i Azərbaycan hökumətinin və eləcə də ölkə sərhədləri içərisində fəaliyyət göstərən müxtəlif özəl qurumların beynəlxalq maliyyə təşkilatlarından aldığı kreditlərin payına düşür. İnvestisiyaların digər qismi isə birbaşa xarici investisiyalar olaraq qeydə alınmışdır. Belə qənaətə gəlmək mümkündür ki, Qarabağ münaqişəsinin həll olunması ölkəyə olan investisiya marağını daha da artıracaq, yaxın bir neçə il ərzində regiona yatırılması planlaşdırılır sərmayələrin həcmi bir neçə dəfə artacaqdır. Regionun siyasi, coğrafi mövqeyi və eyni zamanda potensial resursları da həm yerli, həm də

xarici investorların marağını çəkməkdədir. Bu gün bir çox beynəlxalq təşkilatlar və bizneslər öz fəaliyyət sahəsinə uyğun olaraq azad edilmiş ərazilərə sərmayə yatırmağa hazırdır. Düşünürəm ki, ilkin mərhələdə kiçik və orta biznes səviyyəsində ediləcək investisiyalar növbəti mərhələdə böyük həcmli investisiyalar üçün xüsusi təşviq rolunu oynayacaqdır.

İnvestisiyaların cəlb edilməsindən öncə region üzrə prioritet yatırım planı və sahələri çərçivəsində xüsusi strategiyaların hazırlanması lazımdır. Belə ki, regionun potensial resursları yenidən araşdırılmalı, rayonların mövcud istehsal faktorları diqqətə alınmalı, investisiyalar üçün dövlət tərəfindən və eyni zamanda özəl qurumlar tərəfindən təkliflər paketi formalaşdırılmalı və investorlara təqdim olunmalıdır.




Qarabağın mövcud geoloji mövqeyi, iqlim şəraiti və potensial resursları diqqətə alındığında hansı sahələrin prioritet olduğunu aşkarlamaq mümkündür:

**1) Turizm sektoru** – Qarabağın regionun Kiçik Qafqaz dağlarında yerləşməsi, xüsusi potensial çoğrafi mövqeyə sahib olması turizm potensialının əhəmiyyətli dərəcədə inkişaf etdirilməsinə təkan ola bilər. Əslində Qarabağ regionun turizm potensialından əldə olunan gəlir ümumi ölkənin turizm potensialından əldə olunan gəlirdən çox ola bilər. Bunun üçün tarixi yerlərin, eləcə də regionun təbiəti və ekoloji potensialı bərpa olunmalı, beynəlxalq turizm təşkilatlarının müəyyənləşdirdiyi hədəflər tətbiq olunaraq modern turizm şəraiti formalaşdırılmalıdır. Regionda müxtəlif müalicə əhəmiyyətli resursların olması eyni zamanda tibbi turizmin də inkişafına dəstək olacaqdır.

**2) Aqrar sektor** – Regionun əlverişli iqlim şəraitinə və eləcə də kənd təsərüfatı üçün yararlı torpaqlara məxsus olması kənd təsərrüfatının inkişafına, bitkiçilik, tərəvəz məhsullarının istehsalına və eləcə də heyvandarlıq sahəsinin inkişafına böyük təkan verəcəkdir. Sadəcə, 7 rayonun kənd təsərrüfatına yararlı torpaqlarının ümumi həcmi 535 min hektar təşkil edir. Bu baxımdan, kənd təsərrüfatının ən son texnologiyalar vasitəsilə inkişaf etdirilməsi yerli tələbatın ödənilməsi istiqamətində töhfə verəcək, eyni zamanda məhsulların xarici ölkələrə ixrac olunması üçün dəyər formalaşdıracaqdır.

**3) Mədən sənayesi** – Qarabağda ehtiyatları təsdiq edilmiş qeyri-metal faydalı qazıntı yataqları işğal edilmiş Qarabağ ərazisində dağ-kimyəvi (kükürd kolçedanı, soda xammalı, litoqraf daşı) xammal, qiymətli-ziynət (jadeit, əqiq, obsidian (dəvə gözü), nefritoidlər) və ziynət (yaşəm, mərmər oniksi, felzit tufu, listvenit) daşları, həmçinin ümumi ehtiyatları on milyon kub metrlərlə ölçülən mişar, üzlük və inşaat daşları, sement xammalı, büzücü maddələr, mineral boyalar, inşaat kərpici üçün xammal, beton doldurucuları və yol-tikinti xammalı kimi inşaat materialları ilə təmsil edilir. Bu sənayenin inkişaf etdirilməsi həm də paralel olaraq müxtəlif tip məhsulların hazırlanması üçün xüsusi zəmin yaradır.

**4) Enerji istehsalı** – Qarabağ regionunda xüsusi əhəmiyyəti olan bol sulu çaylar və eləcə də su anbarları mövcuddur. Burada inşa ediləcək elektrik stansiyaları xüsusi olaraq ölkənin enerji ilə təminatının və eləcə də enerji ixracının müəyyən payını öz üzərinə götürəcəkdir.

**5) Mineral sular** – Qarabağ bölgəsində eyni zamanda təbii və tibbi əhəmiyyəti olan mineral sular mövcuddur. Bu suların istehsalı, qablaşdırılması və dünya bazarına çıxarılması ən uğurlu investisiyalardan biridir. Eyni zamanda bu suların müalicə əhəmiyyətli istifadə edilməsi regionda tibbi turizmin inkişafına da ayrıca təkan verəcəkdir.

**6) Baramaçılıq** – Ümumiyyətlə, Qarabağ regionunun cənub hissəsində yerləşən rayonların əsas fəaliyyət sahələri incələndikdə, əsas olaraq baramaçılığın xüsusi gəlir qaynağı olduğu təsbit edilməkdədir. Bu baxımdan, Zəngilan, Cəbrayıl, Qubadlı, Füzuli rayonlarında xüsusi baramaçılıq və ipəkçilik məntəqələrinin fəaliyyət göstərməsi regionun və eyni zamanda yan sahələrin inkişafına xüsusi təsir göstərəcəkdir

**7) Şərabçılıq** – Qarabağ regionunda xüsusi üzüm plantasiyalarının olması və əhalinin bu predmetdə fəaliyyət sahəsi ilə mütəmadi məşğul olması şərabçılığın inkişaf etdirilməsi üçün zəmin yaradır. Bu baxımdan, Qarabağın bir çox rayonlarında şərab zavodlarının tikintisi və üzüm plantasiyalarının salınması mühüm və zəruridir.

8) **Xalçaçılıq** – Danılmaz faktdır ki, Qarabağ xalçaları hər zaman dünyada ən baha hesab edilən və ən keyfiyyətli xalça hesab olunur. Hətta Cəbrayıl xalçasının dünya bazarında qiyməti 150.000 USD civarında olmuşdur. Xalçaçılıq mədəniyyətinin və istehsalının davam etdirilməsi növbəti mərhələlərdə xüsusi gəlir gətirən sahə hesab olunacaqdır.

9) **Logistika sektoru** - Yeni qurulacaq Bakı-Naxçıvan-Türkiyə dəmir yolu xəttinin ərazidən keçməsi, ölkənin Şərq-Qərb və eləcə də Şimal-Cənub dəhlizinin kəsişmə nöqtəsində olması, tarixi İpək yolunun bərpası regionun əhəmiyyətli logistika və ticarət qovşağına çevrilmək imkanını formalaşdıracaqdır. Bu kontekstdə yeni ticarət qovşaqlarının yaradılması, logistika mərkəzlərinin qurulması və eləcə də hava nəqliyyatının təmin edilməsi məqsədi ilə yeni hava limanlarının tikintisi xüsusi önəm daşıyır.

Bu sahələrin inkişafı, müxtəlif bizneslərin və yeni investisiyaların cəlb edilməsi üçün dövlət tərəfindən bir sıra strategiyalar müəyyənləşdirilməli, bu istiqamətdə xüsusi planlar hazırlanmalı, istər yerli investorlar, istərsə də xarici investorların Qarabağ regionuna yatıracağı investisiyaların dövlət tərəfindən qorunması və qarantı müəyyənləşdirilməlidir. Bunun üçün hansı şərtlər lazımdır?

• İlk olaraq Qarabağ regionunda baş verə biləcək hərbi təhlükələrin aradan qaldırılması istiqamətində dövlət tədbirləri və qarantı olmalıdır;

• Məsələnin əsas nöqtəsi bundan sonra işğaldan azad olunacaq bölgənin qurulması üçün atılacaq addımlardır. Postmüharibə dövründə Azərbaycan masa üzərində apardığı siyasi mübarizə ilə bərabər, həm də strateji iqtisadi inkişaf planı hazırlamalıdır;

• Regionun ilkin olaraq infrastrukturu qurulmalı, kommunal xətlər çəkilməli, yollar salınmalı və eyni zamanda əhalinin yaşayışı üçün lazımlı minimum infrastruktur layihələri həyata keçirilməlidir;

• Əhalinin köçürülməsi məsələsi sürətlənməli və yaşayış güvənliui təmin edilməlidir;

• Regionun resurslarından istifadə imkanları investorların istifadəsinə açıq olmalıdır;

• Regiona sərmayə yatıracaq şəxslər 10 il müddətinə vergidən azad edilməlidir;

• İstehsal layihələri üçün lazımlı avadanlıqlarım, xammalların və eləcə də müəyyən inventarların gətirilməsi zamanı gömrük rüsumları ləğv edilməlidir;

• Dövlət əhəmiyyətli layihələrin həyata keçirilməsi prosesi özəl müəssisələrlə birgə reallaşdırılmalıdır;

• Dövlət büdcəsindən və dövlət fondlarından investorlar üçün xüsusi subsidiyalar ayrılmalıdır;

• Bizneslərin qurulması üçün əlverişli biznes mühiti formalaşdırılmalıdır;

• Xarici investisiyaların birbaşa yönəldilməsi istiqamətində dövlət qarantiyası yaradılmalıdır;

• Bütün investorlar üçün bərabər imkanlar və fürsətlər yaradılmalıdır;

• Qanunvericiliklə nəzərdə tutulmuş sığortalanma prosesləri təkmilləşdirilməlidir;

• Dövlət təftişlərin optimallaşdırılması prosesi həyata keçirilməlidir;

• Xarici kapitalın, xüsusilə valyuta əməliyyatlarının aparılması üçün əlverişli qanunvericilik ortaya qoyulmalıdır.



# Azad olunmuş rayonlarda kommersiya fəaliyyətinin bərpası yolları

dos. Əkbərov Məhərrəm

Azərbaycanın Vətən müharibəsində qələbəsindən sonra qarşıda duran mühüm məsələlərdən biri işğaldan azad edilmiş rayonlarda sosial-məişət vəziyyətinin normal hala gətirilməsi üzrə tədbirlərin görülməsi, insanların həmin ərazilərdə tədricən məskunlaşdırılması, onların məşğulluğunun təmin olunması ilə bağlıdır.

Qeyd eləmək lazımdır ki, bu sahədə görüləsi mühüm addımlar öz əksini hələ 2004-cü ildə qəbul olunmuş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" kimi mühüm sənəddə öz əksini tapmış və burada Yuxarı Qarabağ iqtisadi rayonunun (Ağdam, Tərtər, Xocavənd, Xocalı, Şuşa, Cəbrayıl, Füzuli rayonları və Xankəndi şəhəri) gələcək inkişaf perspektivləri göstərilmişdi. İqtisadi rayona daxil olan ərazilərin və eyni zamanda bunlara əlavə olunmuş Zəngilan, Qubadlı, Laçın, Kəlbəcər rayonlarının və Hadrut şəhərinin sosial-iqtisadi inkişafı, birinci növbədə, infrastruktur potensialının bərpası üzrə işlərin aparılmasını tələb edir.

Regionun infrastruktur potensialı kimi, məhsuldar qüvvələrin infrastruktur amillərinin yerləşdirilməsinin elə məcmusu nəzərdə tutulur ki, bu zaman ətraf mühitlə optimal qarşılıqlı əlaqə və resurslardan səmərəli istifadə prosesində istehsal, əmtəə dövriyyəsi və insanların həyat fəaliyyəti üçün funksional şəraitin təmin olunması başa düşülür.



# Kommersiya infrastrukturunun formalaşdırılması regional inkişaf siyasətinin mühüm şərti kimi çıxış edir.

İnfrastruktur potensialının əsas elementləri olan nəqliyyat, su təchizatı və kanalizasiya, telekommunikasiya və enerji kimi infrastruktur sahələri ilə yanaşı, kommersiya infrastrukturunun formalaşdırılması regional inkişaf siyasətinin mühüm şərti kimi çıxış edir.

Bazis infrastrukturun inkişafının əsas problemləri sırasına azad olunmuş regionlarda yuxarıda qeyd olunan infrastruktur sahələrinin tamamilə yoxluğu və yaxud onların pis vəziyyətdə olması ilə bağlıdır. Başqa sözlə, kommersiya (o cümlədən pərakəndə və topdansatış ticarət) fəaliyyətinin bərpası "təmiz vərəqdən" başlamalıdır (kommunal şəbəkələrə qoşulmaq üçün məhdud imkanların olması, yol infrastrukturunun zəif inkişafı, anbar sahələrinin kifayət qədər olmaması və s. səbəblərdən).

Ciddi məhdudlaşdırıcı amil kimi bütövlükdə ərazi planlaşdırması, şəhərsalma zonalaşdırılması və əhalinin ticarət sahələri ilə təmin edilmənin kifayətedici səviyyəsini nəzərdə tutan ərazi planlaşdırılmasının olmaması, həmçinin nəqliyyat-logistika və kommunal infrastrukturu ilə lazımi səviyyədə təmin olunmamadır. Beləliklə, ticarətin və kommersiyanın digər sferaların inkişafı sahəsində dövlət siyasəti tədbirləri ticarət və logistika təşkilatlarının inkişafını təmin eləyən ərazilərin və torpaq sahələrinin əlçatanlığının olmasına, kommunal güclərinin əhəmiyyətli dərəcədə gücləndirilməsinə, telekommunikasiya və elektron ödənişlər sahəsinin inkişafına yönəldilməlidir.

Azad olunmuş rayonlarda kommersiya və ticarət fəaliyyətinin bərpası üzrə işlərin yerinə yetirilməsi, bu sahənin ÜDM-ə və əhalinin məşğulluğuna əhəmiyyətli təsir göstərməsi, kiçik və orta biznesin inkişafının əsasını təşkil etməsi, mühüm sosial məsələləri həll etməsi (istehlakçılara geniş çeşiddə keyfiyyətli, əlçatan məhsulun təqdim olunması) ilə şərtlənmişdir.

Ticarət bölməsinin özünün inkişaf səviyyəsi əhalinin rifah halı səviyyəsi, onun sayı və sıxlığı, maliyyə resurslarının mövcudluğu və onların dəyəri, bazis infrastrukturun və infrastruktur xidmətlərinin (logistik, tikinti və s.) inkişafı ilə səciyyələndiyi üçün bu sahənin digər infrastruktur elementləri ilə birgə inkişafı mühüm əhəmiyyət kəsb edir.

İnfrastrukturun inkişafı sahəsində beynəlxalq və yerli təcrübənin təhlili üç əsas alət qrupundan istifadə etməyi nəzərdə tutur: dövlət hesabına infrastruktur obyektlərinin tikintisi; dövlət-özəl tərəfdaşlıq mexanizmlərindən istifadə edilməsi; müxtəlif güzəştlərin verilməsi, habelə infrastruktur obyektlərinin inkişafı üçün özəl kapitalın cəlb edilməsi məqsədilə zəruri inzibati şəraitin yaradılması.



Dünyada və eləcə də ölkədə müxtəlif amillərin təsiri nəticəsində yaranmış əlverişsiz iqtisadi şəraiti, eləcə də dövlət büdcəsinin məhdud imkanlarını və yüksək sosial öhdəlikləri nəzərə alaraq qeyd eləmək lazımdır ki, ticarət sektoru elə bir sahədir ki, burada dövlət vəsaitlərinin yayındırılmasını tələb etməyən əsas alətlər və tədbirlərdən istifadə etmə imkanları daha genişdir. Burada dövlət-özəl tərəfdaşlıq mexanizmlərindən istifadə edilməsi və ayrı-ayrı güzəştlərin verilməsi, infrastruktur obyektlərinin inkişafı üçün özəl kapitalın cəlb edilməsi məqsədilə zəruri inzibati şəraitin yaradılması daha əlverişli istiqamət sayıla bilər.

İnfrastruktur potensialının inkişafını dəstəkləyən alətlər və tədbirlər kimi: regional səviyyədə (və yerli özünüidarəetmə səviyyəsində) sosial-iqtisadi inkişaf proqramları çərçivəsində ticarətin inkişafı proqramlarının hazırlanması, kommunal və nəqliyyat infrastrukturunun inkişafının strategiyalarını formalaşdırmağa imkan verən regional infrastruktur proqramlarının işlənib hazırlanması və həyata keçirilməsini; ticarət, logistika və digər analoji təşkilatlar üçün zəruri torpaq şahələrinin və ərazilərin ayrılmasını nəzərdə tutan səhərsalma planlaşdırılmasını xüsusilə qeyd etmək olar.

Regionların inkişaf strategiyaları əsas problemlərin həllinə və regionların inkişafının prioritet istiqamətlərinin icrasına yönəldilməlidir. Strategiyalar özündə regionların ərazisinin infrastrukturla təminatının qiymətləndirilməsini əks etdirməlidir. Xüsusilə də azad olunmuş rayonlarda "sıfrdan" yaradılan iqtisadiyyatın bir çox sahələri və sektorları üçün inkişaf etmiş infrastruktur uğurun əsas amillərindən birinə çevrilir və biznesin bu və ya digər regionun ərazisində yerləşdirilməsi üçün vacib şərtə çevrilir. Beləliklə, azad olunmuş bütün regionlar üçün strateji planlaşdırma bölgənin sosial-iqtisadi inkişafının proqnozlarına uyğun olaraq infrastruktur obyektlərinin qabaqlayıcı inkişafına yönəldilməlidir. Belə planlaşdırma ticarət sahəsinin infrastruktur problemlərini həll etməyə imkan verəcəkdir.

**Azad olunmuş regionlarda vacib sosial struktur rolunu oynayan istehlak kooperasiyası sisteminin dirçəldilməsi məqsədəuyğun hesab oluna bilər.**

Regionların inkişafı üzrə strateji planlar əsasında hər bir rayonun xüsusiyyətini nəzərə alan infrastrukturun, o cümlədən ticarət infrastrukturunun inkişafı üçün ayrı-ayrı proqramlar formalaşmalıdır.

Azad olunmuş rayonların yüksək aqrar-sənaye yönümlü inkişaf potensialını nəzərə alaraq məşğulluğun səviyyəsini yüksəltmək və əhalinin güzəranını daha da yaxşılaşdırmaq məqsədi ilə həmin regionlarda vacib sosial struktur rolunu oynayan istehlak kooperasiyası sisteminin dirçəldilməsi məqsədəuyğun hesab oluna bilər.

İstehlak kooperasiyasının missiyası (məramı) azad olunmuş rayonlarda və ilk növbədə, kənd yerlərində sosial infrastrukturun inkişaf etdirilməsindən, istehlak malları bazarının sabit inkişafını təmin etməkdən ibarət olmalıdır.

Sahənin effektiv inkişafının təmin etdirilməsi istiqamətlərindən biri kimi yeni informasiya texnologiyalarının tətbiqi yolu ilə elektron kommersiyanın inkişafını əsaslandıran infrastruktur elementlərinin, həmçinin elektron ödəniş sistemlərinin tətbiqi mexanizmlərinin formalaşdırılması kimi perspektiv strategiyalar qəbul edilməlidir.



# Qarabağ regionunun nəqliyyat loqistika əlaqələri və beynəlxalq nəqliyyat dəhlizlərinə qoşulma imkanları

***i.e.d. prof. İrsad Kərimli***

Azərbaycanın işğaldan azad edilən Qarabağ regionunun coğrafi mövqeyi, ərazidən Avropaya və Asiyaya çıxışın real imkanlarının daha çox artması Azərbaycanın beynəlxalq nəqliyyat-kommunikasiya və dəhliz layihələrində daha fəal istirakını bundan sonra daha çox gücləndirəcəkdir. Bu hal Xəzər-Qara dəniz hövzəsinin və Cənubi Qafqazın strateji və etibarlı dövləti kimi Azərbaycanın iqtisadi və siyasi nüfuzunu daha da artıracaqdır. Bir çox Qərb siyasətçilərinin belə bir fikri ilə tam razılaşmaq olar ki, Azərbaycan ikinci Qarabağ müharibəsindəki qələbəsi ilə qərbə və şərqə çıxışın qovşağında yerləşən və əzəli torpağı olan Qarabağı azad etməklə qonşu ölkələr sırasında özünün geosiyasi və geoiqtisadi kursunu daha çox dəqiqləşdirmək imkanı qazandı. Bütün bunlar bütövləşən Azərbaycana nəinki regional və hətta daha çox beynəlxalq səviyyədə kifayət qədər iqtisadi, siyasi və hətta sosial-mədəni üstünlüklər qazandırmaqla yanaşı, həm də iki böyük Şimal-Cənub və Şərq-Qərb dəhlizlərinin qovşağında yerləşməsi Azərbaycanın qarşısına nəinki Xəzər-Qara dəniz hövzəsində və Cənubi Qafqazda, habelə Orta Asiya və Yaxın Şərqdə məqsədyönlü geoiqtisadi fəaliyyət göstərmək kimi məsuliyyətli tələblər qoydu.

Hazırda Qarabağ regionu kimi geoiqtsadi dəyərlərə malik olan ərazinin regional və beynəlxalq perspektivliyini yüksəldən, yaxın və uzaq xarici ölkələrlə əməkdaşlıq əlaqələrinə müsbət təsir göstərən amilləri daha çox regionun təbii mineral ehtiyatları, şimalla-cənub, qərblə-şərq arasındakı mövcud nəqliyyat-kommunikasiya və tranzit imkanları ilə bağlıdır. Bu gün Azərbaycanın işğaldan azad etdiyi Qarabağ regionunun iqtisadi potensialını və milli təbii resurslarını həqiqi sahibi olan Azərbaycan xalqına qaytarmaqla Cənubi Qafqazın çox güclü ölkəsinə çevrilmişdir. Belə ki, hazırda Azərbaycan Cənubi Qafqazın insan resurslarının 60 %-nə, yanacaq-enerji, dağ-mədən, təbii mineral və münbit torpaq resurslarının 90 %-nə, iqtisadi potensialın isə 80 %-nə malik olmuşdur.

Bütün bunlar bir daha əsaslandırır ki, Qarabağ regionu da daxil olmaqla bütün Azərbaycanı müasir, mütərəqqi sənaye və aqrar istehsalla yanaşı, çox əhəmiyyətli logistika və ticarət qovşağına çevirmək imkanları daha da artmışdır. Ölkənin strateji coğrafi mövqeyindən səmərəli istifadə etməklə tranzit yüklərin ölkə ərazisindən keçən nəqliyyat dəhlizlərinə cəlb olunması, Qarabağ bölgəsində də logistika və ticarət mərkəzlərinin yaradılması ilə bölgənin və bütünlükdə ölkənin ictimai həyatının bütün sahələrinin cəlbediciliyini artıracaqdır.

Daha vacibi odur ki, Qarabağ regionunun nəqliyyat-kommunikasiya sistemini yenidən qurmaq üçün hazırlanmaqda olan nəqliyyat logistika layihəsində Naxçıvanı Azərbaycanın əsas hissəsi ilə (Mehri dəhlizi ilə) əlaqələndirmək və bununla da Türkiyə ilə Azərbaycan arasında birbaşa dəmir və sose yolunun çəkilişi kimi strateji əhəmiyyətli işə başlanılmışdır. Bu yolun strateji əhəmiyyəti, ilk növbədə, şimal-cənub və şərq-qərb istiqamətindən dəhlizlər vasitəsilə Azərbaycana daxil olan yük axınları Bakı Beynəlxalq Dəniz limanında cəmləşərək buradan Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə (bu yolun yeni bir marşrutu Qarabağdan keçməklə Mehri dəhlizi ilə Naxçıvana və Türkiyəyə, daha sonra isə Avropaya) Avropa istiqamətini və yaxud gəmilər vasitəsilə şərq istiqamətini təmin edən səmərəli logistika zəncirini formalaşdırmaqdan ibarətdir. Birinci marşrut üzrə Qarabağ ərazisində bərpa ediləcək və yaxud

yenidən qurulacaq nəqliyyat logistika sistemi və bu sistemin çoxcəhətli sxemi diqqəti daha çox cəlb etməlidir.

Nəzərə almalıyıq ki, dəmir yolu və şose yolunun üstünlük təşkil edəcəyi Qarabağ regionunda yolların aşağıdakı üç istiqamətdə bərpa olunması və yenidən qurulması daha səmərəli sayıla bilər:

Bakı – Yevlax – Bərdə – Ağdam – Xankəndi – Şuşa;

Bakı – Yevlax – Ağdam – Füzuli – Cəbrayıl – Zəngilan – Mehri – Culfa – Naxçıvan;

Bakı – Yevlax – Gəncə – Goranboy – Kəlbəcər – Laçın.

Bütün bunlarla yanaşı, Qarabağın strateji əhəmiyyətli ayrı-ayrı inzibati-ərazi vahidlikləri arasında ikitərəfli şose və yaxud dəmir yolunun çəkilişi də məqsədəuyğun sayılır. Məsələn, hazırda Füzuli rayonu ilə Şuşa səhəri arasında müasir tələblərə cavab verən 4-6 zolaqlı şose yolunun çəkilişi başa çatmaq üzrədir.

Fikrimizcə, dünyanın bir çox qabaqcıl ölkələrinin yerüstü nəqliyyat çəkilişinə dair təcrübəsindən müəyyən nəticə çıxarmalı, şose yolu ilə müqayisədə dəmir yolunun çəkilişində yolun keçdiyi yaşayış məntəqələrinin coğrafi və strateji əhəmiyyəti daha çox nəzərə alınmalı, daha üstün mövqeyə malik məntəqələr nəqliyyat qovşağı və yaxud paylaşdırıcı yol ayırıcıları kimi qurulmalıdır. Qarabağ regionunun bütün ərazisini əhatə edəcək dəmir və sose yollarının çəkilişi ilə əlaqədar yuxarıda göstərilən üç istiqamətdə öz ifadəsini tapan nəqliyyat-dayanacaq məntəqələri sırasında nəqliyyat-qovşaq və yaxud paylaşdırıcı dayanacaq stansiyaları ayrılaraq böyük hərflərlə yazılmış yaşayış məntəqələri hesab edilir ki, bunlar: BAKI, YEVLAX, GƏNCƏ, FÜZULİ, CULFA və NAXÇIVAN hesab edilir. Culfa və Naxçıvan qovşaq stansiyalari regiondaxili nəqliyyat yollarının ayırıcısı kimi deyil, daha çox beynəlxalq nəqliyyat dəhlizi ilə yük və sərnişin daşımalar üzrə formalaşan qovşaqlar hesab edilir. Naxçıvan dəmir yolu və sose yolu Türkiyəyə, oradan isə Avropaya, Culfa qovşağı isə İrana, oradan isə şərqə doğru istiqamət götürəcəkdir.

Qarabağ regionunun təbii iqlim, sosial-iqtisadi füsunkarlığının cəlbediciliyi bölgənin iqtisadi quruculuğu ilə yanaşı, müasir nəqliyyat-logistika infrastrukturun yaradılması layihəsinə hava limanlarının tikintisi də daxil edilmişdir. Fərəhlə demək olar ki, həmin istiqamətdə tikinti işlərinin Füzuli rayonunun ərazisində başlanılmasına start verilməsi barədə ölkə başçısı İlham Əliyevin hava limani tikilən ərazidən birbaşa canlı yayımla verdiyi məlumat diqqəti cəlb etmiş, hava limanının beynəlxalq standartlara uyğun tikiləcəyi və beynəlxalq hava limanı səviyyəsində olacağını və bununla beynəlxalq nəqliyyat əlaqələrinə qovuşacağını bildirmişdir. Eyni zamanda ölkə başçısı Qarabağın Laçın və Qubadlı rayonlarının ərazisində də daxili uçuşlar üçün hava limanının tikintisinin də nəzərdə tutulduğunu və yaxın illərdə həmin ərazidə tikinti işlərinə başlanıla cağını bildirmişdir.

Qarabağ regionundan keçərək Zəngəzur dəhlizi ilə Naxçıvanın Culfa nəqliyyat logistika qovşa- ğı ilə Azərbaycandan İrana, oradan isə şərqə doğru və əksinə, Avropaya doğru hərəkət marşrutu Azərbaycan üçün ikinci beynəlxalq əhəmiyyətli marşrut Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizi ilə birləşəcəkdir. İranla əlaqələnən, şərqə doğru və əksinə, Avropaya doğru istiqamətlənən

və uzun illərdir ki, işləyən birinci beynəlxalq əhəmiyyətli nəqliyyat logistika marşrutu, Bakı – Astara (Azərbaycan) – Astara (İran) – Rəşt – Qəzvin marşrutudur ki, bu yol öz əhəmiyyətini saxlamaqdadır.

*Azərbaycan ikinci Qarabağ müharibəsindəki qələbəsi ilə qərbə və şərqə çıxışın qovşağında yerləşən və əzəli torpağı olan Qarabağı azad etməklə qonşu ölkələr sırasında özünün geosiyasi və geoiqtisadi kursunu daha çox dəqiqləşdirmək imkanı qazandı.*

Azərbaycanı Gürcüstan vasitəsilə Türkiyəni əlaqələndirən, oradan da Avropaya və əksinə istiqamətlənən Bakı – Tbilisi – Ceyhan neft, Bakı – Tbilisi – Ərzurum qaz və Bakı – Tbilisi – Qars dəmir yolu marşrutları Azərbaycan üçün önəmli olan üçüncü beynəlxalq əhəmiyyətli nəqliyyat logistika marşrutu hesab edilir. Hər üç marşrut dünya miqyaslı beynəlxalq nəqliyyat dəhlizlərinə qoşulmalarının bütün obyektiv maddi-texniki və sosial-iqtisadi əsasları yaradılmış və bundan sonra da yaradılacaqdır.

Şimal – Cənub və Şərq – Qərb kimi iki böyük beynəlxalq nəqliyyat dəhlizinə Azərbaycan ərazisinin çıxış imkanları ərazinin coğrafi mövqeyi və strateji əhəmiyyəti ilə bağlı olsa da, bütün hallarda hər iki beynəlxalq nəqliyyat dəhlizinin qədim İpək yoluna əsaslanması öz nəticəsini vermiş və bu gün bütün reallığı ilə özünü göstərir. Bütün tarixi reallıqlar çox qiymətlidir, lakin daha qiymətlisi iqtisadiyyatla bağlıdır. Dəhlizlərlə yük və sərnişin daşımalarında nəqliyyat logistika əlaqələrinin səmərəliliyinin yüksəldilməsi, dəmir yolu, avtomobil yolu, hava yolu nəqliyyat xidmətləri ilə beynəlxalq daşımaların həcminin artırılması, vaxtın qısaldılması, tranzit daşımaların dəyərinin minimuma endirilməsidir.




# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRƏ İNVESTİSİYA QOYULUŞLARININ TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

*i.e.d., prof. Hacıyev Fazil*

Azərbaycanın dayanıqlı sosial-iqtisadi inkişafı və işğaldan azad olunmuş ərazilərin bərpası dövlətin diqqət mərkəzindədir. Belə ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ötən ilin yekunlarına dair müşavirədə torpaqlarımızın işğaldan azad edilməsinin son otuz ilin ən mühüm tarixi hadisəsi olduğunu qeyd etmişdir. Müşavirədə işğaldan azad edilən ərazilərdə quruculuq işlərinin aparılması bir daha vurğulanmışdır. Eyni zamanda əzəli yaşayış sahələrimizdə tariximizi, mədəniyyətimizi və iqtisadiyyatımızı yenidən canlandırmaq üçün bu ərazilərə mərhələli şəkildə sektorlar üzrə investisiya qoyuluşlarının və digər sərmayələrin cəlb edilməsi qarşıya qoyulan mühüm vəzifə kimi qiymətləndirilmişdir.

İqtisadi İnkişaf Nazirliyi bu vəzifələrlə əlaqədar işğaldan azad olan ərazilərin bərpası və inkişaf istiqamətində dövlət tərəfindən həyata keçirilən tədbirlər və həmin rayonların iqtisadi potensialının ölkəyə, xüsusilə qeyri-neft sektoruna yeni, yerli və xarici investisiyaların cəlb

olunmasına zəmin yaradılacağını qeyd etmişdir.

Bu işlərin görülməsi zamanı dövlət vəsaitinə qənaət edilməsi və investisiyaların səmərəliliyinin artırılması məqsədilə yol-nəqliyyat, kommunal infrastrukturu, ənənəvi və alternativ enerji istehsalı, miqrasiya və meliorasiya sisteminin çəkilməsi və sair sahələr üzrə investisiya sahələri həyata keçirilməsində dövlət-özəl sektor tərəfdaşlarından geniş istifadə edilməsi, iqtisadi aktivliyin təşviq edilməsi məqsədilə işğaldan azad olunmuş ərazilərə xüsusi güzəştli iqtisadi rejimin tətbiq olunması məqsədəuyğun hesab edilir.

Bu işləri müvəffəqiyyətlə yerinə yetirmək üçün Qarabağ Dirçəliş Fondu yaradılıb. Belə ki, 2021-ci ilin dövlət büdcəsindən ayrılan 2,2 milyard manat vəsait ilə yanaşı, dövriyyəyə cəlb olunma milli sərvət - torpaq, meşə, su, faydalı qazıntılar, əmlak və mədəni sərvətlər kapitalının həcmini - əsas fondları artırır. Bütün bunlardan səmərəli istifadə işğaldan azad olunmuş ərazilərin inkişafını təmin edəcəkdir.

Vurğulamaq yerinə düşər ki, 2021-ci il Birləşmiş Millətlər Təşkilatı tərəfindən davamlı inkişaf üçün "Beynəlxalq Yaradıcı İqtisadiyyat" ili elan olunmuşdur.

Birləşmiş Millətlər Təşkilatının nümunəvi üzv dövləti olara Azərbaycan bu təşəbbüsə qoşulması işğaldan azad olunmuş ərazilərdə ardıcıl iqtisadi inkişafın təmin edilməsi istiqamətində investisiyaların cəlb edilməsini daha gücləndirəcəkdir. Bunlar isə işğaldan azad olunmuş ərazilərdə dayanıqlı inkişaf məqsədlərinə uğurla nail olunmasında mühüm rol oynayacaqdır.

Qeyd etmək lazımdır ki, nəqliyyat, rabitə və yüksək texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyat Xidmətinin verdiyi məlumata görə, 30 il ərzində düşmən ərazilərimizdə nəqliyyat infrastrukturunu və avtomobil nəqliyyatını məhv etmişdir. Belə ki, 22 avtonəqliyyat müəssisəsi, 10 avtovağzal və avtostansiya kompleksi, avtonəqliyyat müəssisələrinə məxsus Ağdamda 160, Füzulidə 60, Cəbrayılda 15, Zəngilanda 40, Şuşada 90, Xocalıda 70, Qubadlıda 50, Xankəndidə 350, Kəlbəcərdə 70, Ağdərədə 30, Xocavənddə 10, ümumilikdə, 1015 ədəd nəqliyyat vəsitələri talan edilib, yararsız hala salınmışdır. Məhv edilən nəqliyyat infrastrukturunun və maddi-texniki bazasının yenidən qurulması üçün ayrlımış investisiyalardan səmərəli istifadə vacib məsələlərdən biridir. Hazırda Prezidentin Ehtiyat Fondundan müvafiq vəsait ayrılmışdır. Füzuli-Şuşa avtomobil yolu, Bərdə-Ağdam dəmiryolunun inşasına artıq başlanmışdır.

İşğaldan azad edilmiş ərazilərin sənaye potensialını nəzərə alsaq, Füzulidə artıq beynəlxalq hava limanının inşasına başlanmışdır. Eyni zamanda Horadizdən Zəngilana, oradan Qubadlıya və sonra Laçına qədər yolun çəkilişinə də hazırlıq işləri görülür.

Azərbaycan Respuklikasının Prezidenti cənab İlham Əliyev erməni vandalizmindən danışarkən qeyd etmişdir ki, işğaldan azad edilmiş rayonlarda 300-ə yaxın kənd, 5 şəhər, 4 qəsəbə-yaşayış evləri və inzibati binalarla yanaşı, 700 tarixi-mədəni abidə, 927 kitabxana, 800 mədəniyyət mərkəzi, 85 musiqi və incəsənət məktəbi, ümumilikdə 100 000 artefaktın saxlandığı 22 muzey, 4 rəsm qalereyası, 4 kinoteatr, 2 konsert zalı məhv edilmişdir. Bunların bərpası üçün tələb olunacaq milyardlarla investisiyaların



*Işləri müvəffəqiyyətlə yerinə yetirmək üçün Qarabağ Dirçəliş Fondu yaradılıb.*



*Azad olunmuş ərazilərdə kəndlər "Ağıllı kənd" konsepsiyası əsasında qurulacaq.*

cəlb edilməsi xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan Respuklikasının Prezidenti cənab İlham Əliyev işğaldan azad olunmuş ərazilərdə kəndlərin "Ağıllı kənd" konsepsiyası əsasında qurulacağını qeyd edib: "Biz indi" Ağıllı kənd" konsepsiyasını hazırlayırıq. Bu konsepsiya demək olar ki, hazırdır. "Ağıllı kənd" birinci pilot layihəsi icra ediləcəkdir. Məhz o yerlər də düzgün təsbit edilməlidir. Əkin sahələri və əkin sahələrinə gedən yollar təmizlənməlidir". "Ağıllı kənd" konsepsiyasının həyata keçirilməsi Zəngilan rayonundan başlayacaqdır və bu konsepsiyanın yerinə yetirilməsinə cəlb ediləcək yerli və xarici investisiyalardan səmərəli istifadə bir daha vurğulanmışdır.

Dövlətin başçısı cari ilin yekunlarına həsr olunan müşavirədəki çıxışında bildirdi ki, azad edilmiş torpaqlar gələcəkdə "Yaşıl enerji" zonası olacaq: "Mən artıq xarici və yerli investorları dəvət etmişəm. Onu da bildirmişəm ki, bütün əsas işləri dövlət olaraq biz özümüz görürük və görəcəyik. Xarici və yerli investorlar investisiya qoymaqla həm öz biznes maraqlarını təmin edə bilərlər və həm də Azərbaycanın uzunmüddətli, dayanıqlı, ucuz və ekoloji cəhətdən təmiz enerji növləri ilə təmin etmək üçün öz sözlərini deyə biləcəklər.

Bizim planımız bundan ibarətdir. Kəlbəcər və Laçın rayonlarında külək enerjisinin çox böyük potensialı var. Zəngilan, Cəbrayıl rayonlarında daha çox günəş enerjisinin böyük potensialı var. Artıq ilkin tədqiqatlar aparılıb və beləliklə, biz enerji generasiya güclərimizi, ötürücü xətlərimizi yenidən quraraq Qarabağı "Yaşıl enerji" zonasına çevirəcəyik". Beləliklə, yalnız Kəlbəcər və Laçın rayonunda dağıdılmış və bərpa ediləcək stansiyaların generasiya gücü 120 meqavat olacaqdır. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın, Şuşa, Ağdam və Kəlbəcər rayonlarında ümumilikdə 308 kilometr elektrik verilişi xəttinin çəkilməsi və yeni yarımstansiyaların tikilməsi ilə 110 kilovotluq şəbəkənin yaradılacağı nəzərdə tutulub. Eyni zamanda "Xudafərin" və "Qız qalası" su elektrik stansiyalarının inşası da nəzərdə tutulmuşdur.

Azərbaycan Respuklikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, işğaldan azad edilmiş torpaqlarda aqrar sahənin inkişafı ilə bağlı mühüm tədbirlər görülür. Belə ki, Kənd Təsərrüfatı Nazirliyi, "Azərkosmos" ASC azad olunmuş ərazilərdə faktiki əkinaltı torpaqların peyk təsvirləri əsasında xəritələşdirməsini aparıb. Həmin torpaqlarda əkinlərə, o cümlədən çoxillik əkmələrə aqrotexniki qulluq göstərilməsi məqsədilə işlərə başlanılıb. Göründüyü kimi, Qarabağ bölgələrində kənd təsərrüfatının inkişafı ilə bağlı dövlət başçısının tapşırıqlarına uyğun olaraq başlanılan işlər indidən uğur vəd edir. Fermerlərin kənd təsərrüfatı texnikasının tələbatını ödəmək məqsədilə onlara minlərlə maşın və mexanizm verilməsi, həmçinin minlərlə baş damazlıq heyvanların satışı maliyyələşdirilib. Ötən il 3400-dən çox fermerə mikro kreditlər verilib, bu ildən isə həmin kreditlər artıq olacaqdır.

Ümumiyyətlə, Prezident İlham Əliyevin "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərin" təsdiq edilməsi haqqında sərəncamda qeyd edilir ki, əldə edilən iqtisadi üstünlük, hər şeydən öncə, işğaldan azad edilmiş ərazilərin mövcud iqtisadi potensialından xalqımızın rifahı üçün tam istifadə olunmasına geniş şərait yaradacaqdır.

# Qarabağda ekoloji tələblərin beynəlxalq sertifikatlaşdırma sisteminə inteqrasiyası

*t.e.d., prof.  Aslanov Zabit*

*Ekoloji tələblər üzrə sertifikatlaşdırma təsərrüfat və digər fəaliyyətin (Ətraf mühitin qorunması haqqında Qanunun) həyata keçirilməsi zamanı ekoloji təhlükəsizliyin təmin olunması üçün tətbiq edilir. Ekoloji etitket sisteminin ölkəmizə inteqrasiyası ekoloji şəhərsalma, sənayeləşdirmə, kənd təsərrüfatı məhsullarının yetişdirilməsi, ixracı və s. kimi sahələrdə çox mühüm bir sistemdir.*



**Şəkil 1.** Ekoloji uyğunluq nişanı

Ekoloji sertifikat və ya uyğunluq nişanı (ekonişan) məhsulların böyük əksəriyyəti üçün onların rəqabət qabiliyyətliliyi müəyyənedici faktordur. 1993-cü ildə Avropa Birliyi ölkələrində vahid bazara çıxarılan ekoloji sertifikatlaşdırılmış məhsulların üstünlüyünü təsdiq edən direktiv qəbul edilmişdir – bu zaman məhsulların qiyməti ən azı iki dəfə artır.



Ekoloji markalanmanın bəzi növləri




**Ekoloji sertifikatlaşdırmanın məqsədi** – istehsalçıları təbii mühiti minimal dərəcədə çirkləndirən və istehlakçıya onun həyatı, sağlamlığı, mülkiyyəti və yaşayış mühitinin təhlükəsizliyinə təminat verən texnoloji proseslərin tətbiqinə və məhsul istehsalına həvəsləndirir.

Ekoloji idarəetmə sisteminin standartlaşdırılması üzrə işlər 1993-cü ildən başlanmışdır. Bu zaman İSO/TK 207 "Ətraf mühitin idarə edilməsi" texniki komitəsi yaradılmışdır. 1996-cı ildə həmin komitə müəssisənin fəaliyyətinin ekoloji aspektlərinin idarə edilməsinə aid İSO14000 seriyasının standartlar kompleksini hazırlamışdır. Sertifikatlaşdırma orqanı müsbət nəticə olduğu halda sifarişçiyə müəyyən edilmiş nümunəyə uyğun ekoloji sertifikat verir və sertifikatlaşdırılma obyektinə məhsullarını sistemə uyğunluq nişanı (şəkil 1) ilə markalamağa hüquq verir.

Ekoloji sertifikatlaşdırmada içməli su və məişət tullantılar, xüsusi yer tutur. "Nanotexnologiyalar" İSO/TK229 sədri P.Xettonun məlumatına görə, dünya bu sahədə artıq ciddi böhranla rastlaşıb, iqlim dəyişikliyi isə bu prosesi daha da dərinləşdirir. Hazırki, dövrdə artıq 1,1 milyard insan təhlükəsiz su mənbələrindən, 2,6 milyard insanın isə adi sanitariya və gigiyena vasitələrindən məhrumdur. 1900-cü ildən 2000-ci ilədək keçən 100 il ərzində su sərfiyyatı 6 dəfə artaraq əhalinin artım sürətindən 2 dəfə çox olmuşdur. Stokholm Ətraf Mühit Problemləri İnstitutunun (Stockholm Environment İnstitute) proqnozuna görə, su çatışmazlığı olan ölkələrdə yaşayan əhalinin sayı 2025-ci ilədək əhəmiyyətli dərəcədə dəyişəcək. Əgər 1995-ci ildə bu cür ölkələrdə Yer kürəsi əhalisinin 34 %-i yaşayırdısa, 2025-ci ildə 63%, təqribən 6 milyard insan yaşayacaq. Nəzərə almaq lazımdır ki, bu hesablama iqlimin mülayim dəyişməsi ssenarisi ilə qiymətləndirilmişdir. İnkişaf etməkdə olan ölkələrin əhalisinin ölümə səbəb olan xəstəliklərinin 5/4-ü su ilə gətirilən infeksiyaların nəticəsidir. Bu xəstəliklər sırasında – vəba, Denqe qızdırması, yapon (ağcaqanad) ensefaliti, malyariya, poliomielit, leptospiroz (sarılığın analoqu), şistosomoz (parazitlərin törətdiyi xəstəlik), qarın yatalağı və həmçinin qalxanabənzər vəzi xəstəliklərini göstərmək olar.

**Qlobal istiləşmə stresi əhəmiyyətli dərəcədə artırır:** düşən yağıntıların miqdarı, çayların sululuğu, göllərin səviyyəsi və həmçinin yeraltı qrunt sularının bölünməsi dəyişir. Dünyanın bəzi rayonlarında su mənbələri azalır, digər rayonları isə su basır. Dünya miqyasında əhalinin çox hissənin məskunlaşdığı çay vadiləri və rütubətli torpaqlar məhsuldarlığını itirir, ekosistemlərə dəstək olmaq və onların sabit inkişafını təmin etmək üçün zəruri olan, müvafiq keyfiyyət və kifayət qədər su əldə etməyə imkan verən təbii şəraitdə bərpa olunma qabiliyyəti itirilir. ərzaq istehsalının fasiləsiz dövriyyəsi pozulur və buna görə də

*1- "Şimal qu quşu" (Skandinaviya);*
*2 – "Avropa çiçəyi" (Avropa Birliyi);*
*3 – "Həyat yarpağı" (Rusiya);*
*4 – "Mavi mələk" (Almaniya);*
*5 – "Ekonişan" (Yaponiya).*



bol məhsul əldə etmək getdikcə çətinləşir.

Ekoloji idarəetmənin alətlərindən biri İSO14020-İSO14024 standartlarının obyekti olan ekoloji markalamadır.

Ekoloji markalama istehsalçı ilə istehlakçı arasında əlaqələndirici həlqədir. O, məhsulun keyfiyyətinə və ekoloji təhlükəsizliyinə zəmanət verir. Ekoloji markalama – Rusiya və xarici ölkə məhsullarının qablaşdırması üzərindəki nişandır. Bu nişanı ekspertizadan keçmiş və məhsulunun yüksək keyfiyyətini və ekoloji təhlükəsizliyini sübut etmiş şirkətlər əldə edə bilərlər.

*Ekoloji markalama istehsalçı ilə istehlakçı arasında əlaqələndirici həlqədir. O, məhsulun keyfiyyətinə və ekoloji təhlükəsizliyinə zəmanət verir.*

Avropa Birliyi dövlətlərində məhsulların ekoloji markalama sistemi fəal inkişaf edir və demək olar ki, bütün mal qruplarını əhatə edir. Qeyri-ərzaq mallarının iki ekoloji markası (şəkil 3) - şimal ("Şimal qu quşu") və Avropa ("Avropa çiçəyi") daha məşhurdur. Hər iki nişan tualet kağızı və döşəkdən tutmuş hotel və kompüterədək çoxsaylı əmtəə qruplarını əhatə edir. Bəzi əmtəə qrupları hər iki markalama tipi ilə markalana bilər.

**Dünyada mövcud olan ekoloji markalanmanı məlumat çatdırılması baxımından aşağıdakı əsas qruplara bölmək olar:**

- istehsalın bütün proseslərini əhatə etməklə məhsulun bütövlükdə ekoloji təmizliyi barədə məlumat. Bu markalanmaya aiddir: "Şimal qu quşu", "Avropa çiçəyi" və "Həyat yarpağı";

- məhsulun ayrı-ayrı xassələrinin ekoloji təmizliyi barədə məlumat (misal üçün, "Mavi mələk", "Ekonişan"). Bura həmçinin Yer kürəsi ətrafındakı ozon qatının azalmasına səbəb olan maddələrin olmadığını bildirən nişanlar da daxildir;
- istehlak əşyalarını ətraf mühitə az ziyan vurmaqla utilizasiya edilməsinin mümkün olduğunu bildirən nişanlar və digərləri;

- təbii yeyinti məhsullarının (üzvi istehsal) eyniləşdirilməsi üçün məlumatlar.

# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ KOMMUNİKAŞİYA PROBLEMLƏRİNİN HƏLLİ YOLLARI

*f.-r.e.n., dos. Əliyeva Təranə*

*Sirr deyil ki, 2020-ci il bütün dünya ölkələri üçün çətin keçdi, lakin həmin ilin son aylarında Azərbaycan xalqı tarixinin ən yaddaqalan və şanlı dönəmlərindən birini yaşadı. Ali Baş Komandan, Prezident İlham Əliyevin strateji rəhbərliyi ilə Azərbaycan ordusu vaxtilə nağıl kimi görünən həqiqətləri günbəgün bərqərar etdi, işğal olunmuş ərazilərdən illərlə didərgin düşmüş əhalinin həsrətinə son qoyuldu. 28 il işğal altında saxlanan və adları hər bir azərbaycanlının yaddaşında hifz olunan bu ərazilərin xalqımız üçün tarixi-mədəni əhəmiyyəti və dəyəri ilə yanaşı, zəngin iqtisadi potensialı vardır. Bu ərazilərin ölkə iqtisadiyyatına inteqrasiyası ilə yaradılacaq yeni iqtisadi dəyər Azərbaycan dövlətinin çəkdiyi və bundan sonra da tərəddüdsüz və xüsusi fiskal gərginlik yaşamadan çəkəcəyi bütün maliyyə xərclərini dəfələrlə üstələyəcəkdir.*

Bəs işğaldan azad olunan ərazilərin iqtisadi potensialı nədən ibarətdir? Bu iqtisadi potensialın əsas parametrlərinə diqqət yetirsək, görərik ki, Ermənistan tərəfindən işğal tarixindən bu günədək talançılıq, qeyri-səmərəli istismar nəticəsində regionun infrastrukturu çox dağıdılmışdır. İşğaldan azad edilmiş ərazilərdə iqtisadi infrastrukturun, o cümlədən yol, meliorasiya-irriqasiya, elektrik, qaz, su, kanalizasiya və s. sistemlərinin yaradılması, bərpası və inkişaf etdirilməsi prioritet məsələlərdən biridir. Bu səbəbdən gələcək bərpa işləri ümumi infrastrukturun (yollar, qaz, su, elektrik enerjisi, rabitə) və ilkin yaşayış şəraitinin qurulmasından başlamalı və sonrakı mərhələdə isə iqtisadi inkişaf layihələrinə keçilməlidir. Sovet dövründə Qarabağ düzən Qarabağla və Azərbaycanın digər iqtisadi rayonları ilə sıx iqtisadi əlaqədə inkişaf edib. Bütün istiqamətlərdə keçən yollar bu iki ərazini iqtisadi cəhətdən bir-birinə möhkəm bağlamışdır.

*Qarabağın ermənilər tərəfindən işğalı və digər rayonlarından ayrılması regionun əhalisi və təsərrüfatı üçün çox ciddi problemlər yaratdı.*



Qarabağın ermənilər tərəfindən işğalı və digər Azərbaycan rayonlarından ayrılması regionun əhalisi və təsərrüfatı üçün çox ciddi problemlər yaratdı. Uzun illərdən bəri Qarabağın ərazisində yerləşən müəssisələrin böyük əksəriyyəti Azərbaycanın rayonlarından gətirilən yanacaq, xammal və materiallar əsasında işləyirdilər, bir çoxları isə Bakının iri müəssisələrinin filialları kimi fəaliyyət göstərirdi. 1985-ci ildə Qarabağın Xankəndidəki iri İpək Kombinatına daxil olan barama xammalının cəmi 8 %-i Qarabağın özündə istehsal olunurdu, 92 %-i isə Azərbaycanın digər rayonlarından gətirilirdi. Qarabağ Vilayətinin 1986-cı ildə həyata keçirdiyi xarici iqtisadi əlaqələrin həcminin cəmi 0,3 %-i və idxalının isə 1,4%-i Ermənistan Respublikasının payına düşdüyü halda, Azərbaycana onun ixracatının  33,3 %-i düşürdü.

Keçmiş Qarabağ Muxtar Vilayətinin mərkəzi Xankəndi vaxtilə birbaşa Azərbaycan dəmir və şose yollarına, bütövlükdə respublikanın nəqliyyat-kommunikasiya sisteminə sıx bağlanmışdır. Xankəndidən dəmir yolu ilə Bakıya qədər olan məsafə 392 km-dir. Regionun gələcək inkişafında bu çox vacib amildir, yeni infrastruktur layihələrində sovet vaxtı mövcud olan nəqliyyat logistikasının xəritələrindən istifadə edilə bilər. Təbii olaraq, zəbt olunmuş rayonlarda illərdən bəri fəaliyyət göstərən vahid nəqliyyat-kommunikasiya sistemi Ermənistanın təcavüzü nəticəsində hal-hazırda bərbad vəziyyətdədir.

*Ermənistan tərəfindən işğal tarixindən bu günədək talançılıq, qeyri-səmərəli istismar nəticəsində regionun infrastrukturu çox dağıdılmışdır.*

İlk baxışda zəngin su təchizatı, elektrik enerjisi, sənaye rekreasiya imkanları və zəngin faydalı qazıntılar azad olunan ərazilərin sənaye potensialının karkasını təşkil edir.

Bütün dünyada iqlim dəyişikliyi və onun nəticəsində su qıtlığı ən aktual problemlərdən biridir. Su qıtlığı Azərbaycan üçün də önəmlidir. Məlumdur ki, ölkənin su ehtiyatları obyektiv coğrafi səbəblərdən daha kasaddır və əsas mən-bələr qonşu ölkələrdədir. Ölkə ərazisində su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 aprel tarixli sərəncamı ilə yaradılmış Dövlət Komissiyası fəaliyyət göstərir. Bu kontekstdə azad olunan ərazilərin zəngin su ehtiyatları ölkənin sənayesi və kənd təsərrüfatı üçün xüsusi əhəmiyyət kəsb edir. Respublikada ən



Ağdam şəhəri

hündür bəndli Sərsəng su anbarının daxil olduğu Ağdərə rayonunun tam azad olunması respublikanın Tərtər, Ağdam, Bərdə, Goranboy, Yevlax və Ağcabədi rayonlarında 100 min hektara yaxın torpaq sahəsini suvarma suyu ilə təmin etməyə imkan yaratdı. Qeyd etmək lazımdır ki, işğaldan azad olunmuş zonalarda Sərsəng su anbarından başqa ümumi tutumu 80 mln. $m^3$ olan digər su anbarları da vardır ki, onların da ölkə təsərrüfatına qatılması əlavə 15 min hektar torpaq sahəsinin suvarılmasına şərait yarada bilər.

2016-cı ilin fevralında "Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında Araz çayı üzərində "Xudafərin" və "Qız Qalası" hidroqovşaqlarının və su elektrik stansiyalarının (SES) tikintisinin davam etdirilməsi, istismarı, energetika və su ehtiyatlarından istifadə sahəsində əməkdaşlıq haqqında Saziş" imzalanmışdır. Bu layihələrin reallaşması nəticəsində Azərbaycanda illik 368 milyon kVt/saat elektrik enerjisi istehsal oluna bilər. Şübhəsiz, "Sərsəng" və "Xudafərin" SES ətraf rayonların enerji təminatının yaxşılaşdırılmasında və azad edilmiş ərazilərin bərpa edilməsində aktiv istifadə ediləcəkdir. Ümumilikdə isə bu elektrik stansiyalarının ölkənin enerji sisteminə qatılması güclərin artırılması ilə yanaşı, mənbələrin coğrafi diversifikasiyası, yəni Abşeron, Şirvan və Mingəçevir üzərindən yüklərin azaldılması, həmçinin alternativ enerji istehsalının ümumi istehsalda payının artırılması deməkdir.

*Cənab Prezidentin tapşırığı əsasında Qarabağ bölgəsi davamlı inkişaf etdirilərək ölkə həyatına reinteqrasiya olunacaqdır.*

Cənab Prezidentin tapşırığı əsasında Qarabağ bölgəsi davamlı inkişaf etdirilərək ölkə həyatına reinteqrasiya olunacaqdır. İnfrastrukturun yaradılmasında şəhərlərin salınması məsələsi xüsusi əhəmiyyət kəsb edir. Şəhərsalma qanununa əsasən, şəhərlər salınmamışdan öncə orada yaşayacaq əhalinin sayı və tikiləcək binalarda mərtəbələrin sayı dəqiqləşdirilməlidir. Bundan sonra şəhərdə yeraltı və yerüstü kommunikasiya işləri aparılmalıdır. Şəhərsalma qaydalarına

görə, hər bir şəhərin mərkəzi olmalı və bu mərkəzlər sputniklərlə əlaqələndirilməlidir. Müxtəlif sputniklər yaradılsa, yeni şəhərlərdə gələcəkdə kortəbii tikintinin də qarşısı alınar. Statistik göstəricilərə əsaslanaraq hesab edirəm ki, yenidənqurma işləri zamanı bu ərazilərin seysmikliyi də nəzərə alınmaqla maksimum 9 mərtəbəli, xüsusilə daha çox 3,5 və 7 mərtəbəli binaların inşası nəzərdə tutulmalıdır.

Bizim "Laçın dəhlizi" kimi tanıdığımız yol əslində Yerevan-Gorus-Laçın-Şuşa-Xankəndi yoludur. Kəlbəcər və Qubadlı kimi digər rayonlar da bu yola birləşir. Perspektivdə bu yolun daha da genişləndiriləcəyini və rus sülhməramlılarının bu dəhlizdə əbədi qalmayacağını, tədricən münasibətlərin fərqli istiqamətdə inkişaf edəcəyini nəzərə alsaq, deyə bilərik ki, bir müddət sonra Laçın ticarət fəaliyyətlərindən bəhrələnən bir rayon olacaq. Çünki bu gün daha çox hərbi münaqişədə adı hallanan bu marşrut bir gün öz təyinatını ticarət münasibətlərinə və yükdaşımaya dəyişəcək. Bu gün bu mənzərəni təsəvvür etmək o qədər də asan deyil, lakin tarix bunu göstərir ki, belə keçidlər əvvəl müharibələrə, sonra ticarətə xidmət edir. Məsələn, illər boyu müharibələrin xidmətində duran Xudafərin körpüsü artıq təyinatını çoxdan dəyişib. Odur ki, Qarabağın, eləcə də ətraf rayonların Ermənistanla əlaqəsinin bu coğrafiya üzərindən edilməsi buranın iqtisadi təşəkkülünə öz təsirini göstərəcək, çünki burada təkcə əmtəə bazarının yüksəlişi deyil, eyni zamanda kontraktasiya müqavilələrinin bağlanması üçün çox əlverişli mühit yaranacaq.

Prioritetlər sırasında beynəlxalq hava limanlarının və yeni dəmir yolu xətlərinin tikintisi, həmçinin mobil rabitə sistemlərinin yaradılması da mühüm yer alır. Azərbaycan Respublikasının Prezident cənab İlham Əliyevin işğaldan azad olunmuş ərazilərdə müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında fərmanına əsasən, "Azərkosmos" ASC bu ərazilərin peyk təsvirlərini, digər geoinformasiya məlumatlarını və müxtəlif məzmunlu təhlilləri müvafiq dövlət orqanlarının sorğuları əsasında onlara təqdim etməlidir. Artıq Şuşada ilk "4G" şəbəkəsi və mobil operator

*İşğaldan azad olunmuş ərazilərə həyatın qaytarılması prosesində dövlət-dövlət, dövlət-özəl, dövlət-vətəndaş və dövlət-donor əməkdaşlığı zəruridir.*

fəaliyyət göstərir. Hesab edirəm ki, işğaldan azad edilmiş bütün ərazilərin sürətli müasir mobil şəbəkə ilə əhatə olunması, fasiləsiz rabitə xidmətlərinin bərpası və radio-televiziya yayımının genişləndirilməsi üçün yaradılan LTE şəbəkəsi və keyfiyyətli nəqliyyat, telekommunikasiya, poçt və modern sərnişindaşıma xidmətlərini təmin edən texniki infrastruktur bu bölgənin inkişafına əhəmiyyətli təkan verməklə yanaşı, məşğulluq məsələlərinin də həllinə xidmət edəcəkdir.

Beynəlxalq təcrübədə postkonflikt bərpa fondları münaqişə nəticəsində dəymiş ziyanın təhlili, post-konflikt ərazilərin minalardan təmizlənməsi, infrastrukturun bərpası, səhiyyə və təhsil kimi xidmətlərin bərpası, məcburi köçkün icmalarının evlərinə qaytarılması, iqtisadi bərpa kimi bir çox məsələləri əhatə edir. Bu fərmanla yaradılan "Qarabağ Dirçəliş Fondu" bütün bu məsələləri əhatə etməklə geniş funksionallığa malikdir. Fondun yaradılmasında əsas məqsəd işğaldan azad olunmuş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsidir.

Dövlət Qarabağın bərpası ilə bağlı baza tədbirlərinə - ərazilərin minalardan təmizlənməsi, təhlükəsizliyin təminatı, ilkin mərhələdə zəruri infrastrukturun qurulması – yolların çəkilməsi, kommunikasiya xətlərinin bərpası və s. kimi proseslərə hələ müharibə tam bitmədiyi günlərdən başlanılıb. İşğaldan azad olunmuş ərazilərin yenidənqurma proqramlarının yalnız dövlətin iqtisadi resursları hesabına edilməsi bu prosesi uzada bilər. Ona görə də işğaldan azad olunmuş ərazilərə həyatın qaytarılması prosesində dövlət-dövlət, dövlət-özəl, dövlət-vətəndaş və dövlət-donor əməkdaşlığı zəruridir.

Dövlət başçısının sözlərinə görə, "noyabrın 10-da imzalanmış üçtərəfli bəyanata əsasən, bütün kommunikasiyaların, o cümlədən Ağdam-Xankəndi-Şuşa avtomobil yolunun açılması, eyni zamanda Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın əsas hissəsini birləşdirən yollar və kommunikasiyalar gələcəkdə bölgədə uzunmüddətli sülhə də öz töhfəsini verəcəkdir".

# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİNİN AQRO POTENSİALININ ÖLKƏNİN ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN YÜKSƏLDİLMƏSİNƏ TƏSİRİ

*i.e.n., dos. Xeyirxəbərov İsmayıl*

*Ölkəmizin müstəqilliyinin daha da möhkəmləndirilməsi onun iqtisadi təhlükəsizliyinin tərkib hissəsi kimi ərzaq təhlükəsizliyinin təmin edilməsindən bilavasitə asılıdır. Sözügedən aspektdə təhlükəsizliyin təmin edilməsi beynəlxalq bazarlardan asılılığın minimumlaşdırılmasını və əhalinin əsas növ ərzaq məhsullarına olan tələbatının əhəmiyyətli hissəsinin – 80 %-nin yerli istehsal hesabına ödənilməsini nəzərdə tutur.*

Əhalinin şəxsi istehlakına daxil olan əsas növ ərzaq məhsullarının 20 %-nin idxal hesabına ödənilməsi aqro-ərzaq kompleksinin arzu edilən templərlə inkişafının təmin edilməsinə heç bir təhlükə törətmir.

Son beş ildə ölkəmizdə yaradılmış əsas növ ərzaq məhsullarının ehtiyyatlarında idxalın payı aşağıdakı cədvəlin məlumatları ilə xarakterizə edilir /cədvəl 1/.

Cədvəl 1-in məlumatlarından göründüyü kimi, bütövlükdə dənli və dənli paxlalıların, o cümlədən buğda ehtiyyatlarının tərkibində idaxlın payı çox yüksəkdir. Bu məhsulun əhalinin şəxsi istehlakına daxil olan hissəsində idxalın payı daha da yüksəlir. Deməli, ərzaq bazarının strateji əhəmiyyətli bu məhsul seqmentində təhlükəsizliyin təmin edilməsilə bağlı problem var. Bu problemin yaranmasının başlıca səbəbi ölkəmizdə istehsal edilən ərzaqlıq buğdanın müəyyən hissəsinin keyfiyyət xüsusiyyətlərinin tələblərə cavab verməməsidir.

Aşağıdakı diaqramda son beş ildə ölkəmizdə yaradılmış buğda ehtiyatları və onun tərkibində idxalın payı əks etdirilmişdir /diaqram 1/.

Tədqiqatlar göstərir ki, 2015 – 2019 - cu illər ərzində ölkəmizin idxal etdiyi buğdanın həcminin sözügedən məhsulun bilavasitə ərzaq kimi istifadə edilən həcmi ilə ondan ərzaq istehsalı məqsədilə istifadə edilən həcminin cəminə nisbəti 60,0 %-dən çox olmuşdur.

Əlbəttə, ərzaq təhlükəsizliyinin təmin edilməsinin əsası taxılla təminatdır. Ona görə də bu bazarın taxıl və taxıl məhsulları seqmentində yerli istehsalçıların payının yüksəldilməsinə daha çox diqqət verilməlidir.

Təqdirəlayiq haldır ki, yuxarıda göstərilən problemlərin minimumlaşdırılması üçün taxıl istehsalçılarının dövlət tərəfindən müdafisinə yönəldilmiş kompleks tədbirlər (taxılın təminatlı qiymətlərlə yerli istehsalçılardan alışı, taxıl istehsalçılarına istehsal prosesi üçün zəruri olan maddi-texniki resursların güzəştli qiymətlərlə satışı və s.) reallaşdırılır. Bu tədbirlərin reallaşdırılmasının nəticəsidir ki, 2014 - 2018-ci illər ərzində Azərbaycanın

**Cədvəl 1.**

**Əsas növ ərzaq məhsullarının ehtiyatlarında idxalın payı, %**

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|
| **Dənli (çəltik daxil olmadan) və dənli paxlalılar** | 27,7 | 28,0 | 24,9 | 20,9 | 27,0 |
| **O cümlədən buğda** | 35,1 | 37,4 | 31,3 | 27,7 | 36,0 |
| **Kartof** | 9,2 | 11,7 | 10,1 | 9,5 | 11,3 |
| **Bütün növ tərəvəz** | 2,8 | 4,0 | 2,8 | 2,1 | 2,0 |
| **Meyvə və giləmeyvə** | 7,4 | 9,3 | 9,0 | 11,5 | 10,9 |
| **Bütün növ ət və ət məhsulları** | 5,4 | 12,0 | 15,3 | 16,9 | 17,2 |
| **Süd və süd məhsulları** | 14,9 | 12,4 | 14,5 | 13,7 | 15,3 |
| **Yumurta** | 0,3 | 1,2 | - | 1,1 | 0,1 |
| **Balıq və balıq məhsulları** | 21,5 | 17,8 | 18,7 | 16,8 | 17,7 |
| **Bitki yağları** | 50,8 | 60,4 | 57,9 | 60,2 | 61,4 |
| **Şəkər** | 14,1 | 11,3 | 35,6 | 15,2 | 22,1 |

Mənbə: cədvəl Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.

buğda üzrə idxaldan asılılığı 45,9 %-dən 35,2 %-ə qədər azalmışdır. Ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün bu göstəricinin səviyyəsi daha da azaldılmalı və ölkə əhalisinin şəxsi istehlakına daxil olan taxıl və taxıl məhsullarının miqdarında idxalın payı 20 %-i keçməməlidir .

Unutmamalıyıq ki, taxıl böyük ərzaq resurslarına malik dövlətlərin əlində kiçik dövlətlərə təsir baxımından qorxulu silah hesab edilir. Ölkəmizin ərzaq təhlükəsizliyinin təmin edilmə səviyyəsinin yüksəldilməsi üçün taxıl istehsalçılarının müdafiəsinə yönəldilmiş tədbirlər davamlı olmalıdır.



**İşğaldan azad edilmiş torpaqlardan səmərəli istifadə taxılçılıqla yanaşı, həm də heyvandarlığın inkişafına imkan verəcəkdir.**

**Diaqram 1. Buğda ehtiyyatlarında idxalın payı**




İşğaldan azad edilmiş əkin sahəsi 100 min hektara bərabərdir. Ölkəmizin taxıl və taxıl məhsulları bazarının beynəlxalq bazarlardan asılılığının minimumlaşdırılmasına aqro potensialın tərkib hissəsi kimi bu torpaqlardan səmərəli istifadə çox təsir göstərəcəkdir. Əlbəttə, bu, torpaqların təsərrüfat dövriyyəsinə cəlb edilmə səviyyəsindən asılı olacaq və bunun üçün isə, ilk növbədə, həmin torpaqların minalardan təmizlənməsi lazımdır.

Burada onu da qeyd etmək vacibdir ki, işğalçı ölkənin kənd təsərrüfatı nazirinin etiraf etdiyinə görə, Azərbaycanın işğal edilmiş torpaqlarında istehsal edilən və işğalçı ölkəyə daşınan taxılın miqdarı hər il 150 - 200 min ton civarında olub. Göstərilən miqdarda taxılın Ermənistana daşınması bu ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətli rol oynayıb. Torpaqlarımızın işğaldan azad edilməsi ölkəmizdə taxılın ən azı həmin miqdarda artımı deməkdir. Bu, Azərbaycanın hər il idxal etdiyi taxılın 10 %-dən çox azalmasına, mövcud idxal qiyməti səviyyəsində taxıl alınmasına sərf edilən 32 mln. dollardan çox valyutaya qənaət edilməsinə və ölkəmizin ərzaq təhlükəsizliyinin təmin olunma səviyyəsinin yüksəlişinə gətirib çıxaracaq.

İşğaldan azad edilmiş torpaqlardan səmərəli istifadə taxılçılıqla yanaşı, həm də heyvandarlığın inkişafına imkan verəcəkdir. Hazırda ölkəmizin ərzaq bazarının heyvandarlıq məhsulları seqmentinin tutumu daha çoxdur və əhalinin bu məhsullara tələbatının dolğun ödənilməsilə bağlı müəyyən çətinliklər müşahidə edilir. Qarabağda heyvandarlığın inkişaf etdirilməsi yerli istehsalçılar tərəfindən bazara heyvandarlıq məhsullarının təklifinin artımına, sözügedən məhsulların bazar qiymətlərinin azalmasına və əhalinin müxtəlif təbəqələrinin daha keyfiyyətli qidalanmasına imkan verəcəkdir.

# QARABAĞDA KİÇİK VƏ ORTA MÜƏSSİSƏLƏRİN İNNOVATİV FƏALİYYƏTİNİN STİMULLAŞDIRILMASI VƏ PERSPEKTİVLƏRİ

*riy.f.d. Rzayeva Ülviyyə*

BU GÜN YÜKSƏK TEXNOLOGİYALAR DÖVRÜNDƏ QARABAĞIN QLOBAL İNNOVASİYA SİSTEMİNƏ CƏLB EDİLMƏSİ ÜÇÜN DƏYƏRLİ VƏ EYNİ ZAMANDA LAYİQLİ HƏDƏFLƏR QARŞIYA QOYULUB.

Qarabağın yüksək texnologiyalar və innovasiyalar bölgəsinə çevrilməsi dövlətimizin iqtisadiyyatı və tərəqqisi naminə olduqca vacibdir. Bu baxımdan, kiçik və orta sahibkarlar, müasir iqtisadiyyatın xüsusi bir sektoru olaraq iqtisadiyyatın struktur çevrilməsində "cığıraçan" rolunu oynayırlar. Bu mövqe inkişaf etmiş ölkələrdə kiçik biznesin təcrübəsi ilə təsdiqlənir, kiçik və orta biznes (KOB) tərəfindən innovativ potensial uğurla yaradılır və daha sonra iri şirkətlər tərəfindən tətbiq olunur. **Qarabağın azad edilməsi bu bölgələrdə kiçik və orta sahibkarlar üçün tarixi bir fürsət yaradır.**

İşğaldan əvvəlki dövrdə bu ərazilərdə 163 müxtəlif növ mineral yataqlar qeydə alınmışdır, o cümlədən qızıl (4 yataq), civə (7), mis (2), qurğuşun və sink (1), kömür (1), gips (7), vermikulit (4), soda istehsalı üçün xammal (1), rəngli və dekorativ daşlardan 12 yataq (obsidian, mərmər oniks, jasper və s.), mişar daşı (10), üzlük daşı (21), gil (10), sement xammalı (21), müxtəlif növ tikinti daşı (8), əhəng daşı xammalları (6), qum və çınqıl (11), tikinti qumu (4), perlit (1), pemza-vulkanik kül (8), yeraltı şirin su (16) və mineral sular (10).

Bölgədə müxtəlif növ metal yataqları mövcuddur. Bunlar əsasən sink, qurğuşun, mis, qızıl, pirit və dəmirdir. Yataqlar Mehmana, Heyvali, Gülyataq, Kasapet, Vəngli, Qazançı, Sırxavənd, Turşsu, Cəmiyyət, Sur və Çardaqlı kəndlərinin yaxınlığında, həmçinin Tərtər və Xaçınçay çay aralığında və Murov dağı yamacında yerləşir. Xankəndi şəhərinin yaxınlığında müxtəlif çalarlı iri mərmər, qranit, tuf, bazalt və əhəng daşı yataqları mövcuddur. Mineral yanacaq növlərinə aid olan Tərtər rayonunun Çardağlı, Kəlbəcər rayonunun Narınclar və Kolatağ kəndlərinin yaxınlığında yerləşən kömür antrasitləri var.

Dağlıq Qarabağ həm də mineral su ehtiyatları ilə zəngindir. Şuşa şəhərindən 16-18 kilometr məsafədə yerləşən mineral su bulaqları xüsusi əhəmiyyət kəsb edir. Bu sular tərkibində olan dəmir və müalicəvi elementlər ilə qiymətlidir.

Zəngin təbii qaynaq bazasına güvənərək və KOB-lara birbaşa

və dolayı dəstəyə (infrastrukturun yaradılması, informasiya xidmətlərin göstərilməsi və s.) diqqət yetirərək Azərbaycan hökuməti əlverişli innovasiya mühiti üçün dayanıqlı təməl yaratmağa çalışır. Milli KOB-lara dövlət dəstəyi tədbirlərinə aşağıdakılar daxil edilir: texnologiya və maliyyə siyasəti, biznes inkubatorlarının yaradılması, innovasiyaların idarə edilməsi, marketinq və kadr siyasəti.

Hal-hazırda **Qarabağda yenilikçilik səmərəliliyinin artırılması üçün texnoloji park və mərkəzlərin açılması planlaşdırılır.** Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi nəzdində İnnovasiyalar Agentliyi, Türkiyənin ən böyük sənaye bölgələrindən birində yerləşən və 130 texnoloji şirkəti dəstəkləyən GOSB Texnoparkı ilə memorandum imzalayaraq bu yolda ilk addımı atdı.

Artıq Qarabağda bərpa olunan enerji mənbələrinin istifadəsini, enerji səmərəliliyini, ekoloji cəhətdən təmiz texnologiyaları, o cümlədən nəqliyyat vasitələrinin istifadəsini və s. əhatə edəcək yaşıl zona konsepsiyasının inkişafına başlanmışdır. Bu istiqamətdə Beynəlxalq Bərpa olunan Enerji Agentliyi ilə müzakirələr aparılır. İlkin hesablamalara görə, bu ərazilərdə 4000 meqavatdan çox günəş, 500 meqavatadək külək enerjisi ehtiyatları mövcuddur.



Qarabağ bölgəsində çox geniş turizm potensialı da var. Qarabağ bölgəsinin olduqca zəngin, mənzərəli, misilsiz təbiətə və tarixi abidələrə malik olduğunu nəzərə alsaq, bu regionun Azərbaycanın əsas turizm zonalarının birinə çevrilməsi ehtimalı yüksəkdir.

İnnovativ KOB-ların inkişafının effektivliyi əsasən yol sektorunun inkişafı ilə müəyyən edilir. İlk layihəyə artıq start verilib - mürəkkəb relyefli ərazidən keçən Əhmədbəyli-Alxanlı-Füzuli-Şuşa yolunun inşası başlanılıb. Göygöl-Toqanalı, Kəlbəcər-İstisu, Kəlbəcər-Laçın, həmçinin Horadiz-Mincivan yollarının tikintisi üçün bir neçə layihə hazırlanır.

Eyni zamanda Kəlbəcər və Füzulidə müasir beynəlxalq hava limanlarının inşası planlaşdırılır. Ölkə daxilində məhsulların mübadiləsi üçün vaxt və maliyyə xərclərini nəzərə alsaq, iki beynəlxalq hava limanı Qarabağ zonasının bərpasında, malların daşınmasında və turizmin inkişafında misilsiz kömək edəcəklər. Bundan başqa, dağıdılmış Horadiz-Ağbənd dəmir yolunun yenidən qurulması nəzərdə tutulur ki, bu da Naxçıvan dəhlizinin açılması üçün xüsusi əhəmiyyət kəsb edir.

İnnovasiya və texnoloji modernləşmə daha yüksək əlavə dəyəri olan məhsulların ixracının artmasına, yeni artım mənbələrinin inkişafına və iqtisadi irəliləmədə maneələrin aradan qaldırılmasına kömək edəcəkdir.



# İşğaldan azad olunmuş ərazilərdə infrastrukturun bərpası

*dos. Kaşiyeva Flora*

*''İşğaldan azad olunmuş ərazilərdə infrastrukturun yaradılması mərhələli şəkildə həyata keçirilməlidir''.*

*"Qarabağ Azərbaycandır!"*

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev**

Artıq hamıya bəllidir ki, 30 ilə yaxın müddət idi doğma Azərbaycanımızın əbədi, əzəli torpağı olan gözəl Qarabağımızı qəddarcasına işğal edən Ermənistana qələbə qazandıq. İllərdir arzusunda olduğumuz, bir an belə unutmadığımız, daima dualarımızda olan, səbirsizliklə gözlədiyimiz Zəfər günü 03.12.2020-cı il tarixində cənab Preziden İlham Əliyevin müvafiq sərəncamı ilə elan edildi. Məhz buna görə II Qarabağ müharibəsində dövlətimizin güclü, şanlı, rəşadətli, yenilmək nədir bilməyən ordumuzun qəhrəmanlığı, insanlarımızın, xalqımızın birliyi nəticəsində əldə etdiyimiz bu qələbə münasibətilə xalqımızı təbrik edir, qanı, canı bahasına başa gələn yaralı qazilərimizə uca Allahdan sağlamlıq, heç bir zaman unuda bilməyəcəyimiz və hər zaman qürür və ehtiramla yad edəcəyimiz müqəddəs Şəhidlərimizə rəhmət diləyirik.

Qeyd edək ki, fərəh doğuran hallardan biri odur ki, Azərbaycanımızın iqtisadi əsasları getdikcə güclənir, möhkəmlənir, iqtisadiyyat dinamik inkişaf edir, yeni müəssisələr, iş yerləri açılır, güclü iqtisadi potensial formalaşır, beynəlxalq iqtisadi birliklərdə, arenalarda Azərbaycan böyük, uğurlu layihələrə imza atır, dünya ölkələri ilə sıx əməkdaşlıq edir, qürur duyduğumuz üçrəngli bayrağımız Birləşmiş Millətlər Təşkilatının ofisinin qarşısında dalğalanır, qələbə sevinci yaşadan güclü ordumuz formalaşır və s. onu göstərir ki, 90-cı illərin əvvəllərində xalqın birbaşa tələb və təkidi ilə Azərbaycana hakimiyyətə qayıdan həmişəyaşar milli liderimiz Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin əməyinin, zəhmətinin, xalqına, dövlətinə, ölkəsinə göstərdiyi rəğbətin, sevginin, inamın, qayğının bariz nümunəsi və göstəricisidir.

Aydın məsələlərdən biri odur ki, işğalçı dövlət olan Ermənistan işğal etdiyi ərazilərə külli miqdarda maddi ziyan vuraraq vəhşilik törətmiş, yaşayış evlərini dağıtmış, əraziləri minalamış, bütün təbii sərvətlərimizi məhv etməklə, meşələri yandırmaqla kifayətlənməmiş hamımızın ümid yeri olan, səcdə və dua etdiyimiz müqəddəs məscidlərimizi də yerlə yeksan etmişdir.

Dünya təcrübəsi göstərir ki, müharibədən sonrakı bərpa, quruculuq, yenidənqurma işləri müəyyən vəsait və zaman tələb edir. Bu isə qaçılmazdır, vacibdir, zəruridir.

Bu, bir həqiqətdir ki, gözəl Qarabağımızın ərazisi çox mühüm əhəmiyyətə malik ərazidir. Bu isə, həqiqətən, Uca Yaradan tərəfindən verilən bir nemətdir. Zəngin təbiətə, maddi, faydalı resurslara malik, bitib-tükənməyən təbii sərvətlər, iqlim şəraiti, bərəkətli münbit torpaqlar bizə vəd edir ki, Qarabağ torpaqlarında hər bir dünya ölkələri üçün mühüm əhəmiyyətə malik kənd təsərrüfatını, turizmi, (yeri gəlmişkən, dünya ölkələrinin vətəndaşları üçün Qarabağ torpağı çox maraqlıdır) dağ-mədən sənayesi, mineral ehtiyyatlar mədənləri, qeyri-neft sektoru üçün vacib əhəmiyyət kəsb edən sahələr,

*Can qurban etməyin vaxtı çatıbsa,*
*Səndən hansı namərd əsirgəyər can?*
*Atıram başımı ayaqlarına,*
*Ey məğrur vətənim Azərbaycan!*

iqtisadi dirçəliş üçün istehsal sahələrinin inkişafı, ən əsası, illərdir səbirsizliklə "Böyük qayıdış" məcburi qaçqın və köçkünlərimizin (ümidvaram "məcburi qaçqın və köçkün" ifadələri artıq lüğətimizdən belə, silinəcək) öz dədə-baba yurdlarına qayıtması bizi çox gözlətməyəcəkdir.

Həqiqətən də, ölkəmizdə aparılan iqtisadi islahatlar, görülən işlər xüsusilə sahibkarlığın, biznesin inkişafı hər zaman dövlət başçımızın diqqət mərkəzində olmuş, diqqətdən kənarda qalmamış və uğurlar əldə edilmişdir. Bu baxımdan, Qarabağ ərazisi, onun zəngin torpaqları həm yerli sahibkarlar, investorlar, iş adamları, həm də xarici dövlətlərin yatırımları üçün əlverişli və faydalı ola bilər.

İşğaldan azad olunmuş ərazilərdə bərpa, yenidənqurma işləri, yeni infrastrukturun yaranması istiqamətində aparılacaq işlərdən ilki, əlbəttə ki, əraziləri minalardan dəqiqliklə təmizləmək, yaşayış və həyat üçün vacib olan yeni infrastrukturun qurulmasıdır. Bunlarla yanaşı, kənd təsərrüfatı ilə əlaqədar yeni fəaliyyət sahələrinin, xidmət, ticarət, tikinti, nəqliyyat və s. sahələrinin yaradılması və inkişafı mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda görüləcək işlər konkretləşdirilməli, dəyən zərər və bu zərərlərin həlli üçün həm dövlət tərəfindən atılan addımlar, həm də cəlb edilən investisiyalar dəqiq müəyyən edilməlidir. Yeri gəlmişkən, Ölkə Prezidenti 06 noyabr 2020-ci il tarixində ötən ilin sentyabr ayının 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına və s. dəymiş ziyanın aradan qaldırılması və qiymətləndirilməsini təmin etmək məqsədilə xüsusi olaraq Dövlət Komissiyası yaratmış və tapşırmışdır ki, dəymiş ziyanı qiymətləndirərək, zərər dəymiş obyektlərin tam bərpası ilə əlaqədar tələb olunan maliyyə vəsaitləri ilə bağlı Prezidentə təqdim edilsin.

Əlbəttə, istehsal sahələrinin inkişaf etmə sürəti artdıqca o zaman xidmət, ticarət sahələrinin də dinamik tempi artacaqdır. Bu dinamik iqtisadi göstərici artdıqca da əhali üçün yeni iş yerlərinin açılması ümid doğurur ki, bu da müsbət nəticələrdən biri olacaq. Xüsusilə ərazilərdə kənd təsərrüfatı sahələrinin məhsullarının istehsalı onu göstərir ki, bu sahə iqtisadi fəaliyyət növlərindən biri olacaq. Çünki məcburi köçkün və qaçqın düşmüş əhalimizin, vətəndaşlarımızın geri qayıtması baxımından məşğulluğun təmin edilməsi də vacib məsələlərdən biri olacaq. Bu baxımdan, işğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatının dinamik inkişafı dəqiq sistemləşdirilmiş şəkildə həyata keçirilməlidir.

Bəli, qeyd olunan və görüləcək işlərin siyahısını davam etdirmək də olar. Bu gün Azərbaycan doğma vətənimizdə həyat dəyişir, insanların rifah halı yaxşılaşır, həm paytaxtda, həm də bölgələrdə yeni-yeni sosial layihələrə imza atılır, tikilən göydələnlər, nəhəng körpülər, rahat yollar və s. müstəqil Azərbaycanımızın getdikcə artan iqtisadi qüdrətindən xəbər verir.

Fərəhverici hallardan biri odur ki, bu məsələlərin həlli ilə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 4 yanvar 2021-ci il tarixli fərmanı əsasında Qarabağ Dirçəliş Fondu yaradılmışdır.

Əlbəttə ki, ərazilərdə bərpa işləri ilə əlaqədar xərclər, resurslar lazım olacaq. "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir!" Azərbaycanın ümummilli lideri Heydər Əliyevin zamanında söylədiyi bu fikri bizə tam əminlik verir ki, güclü iqtisadiyyata, dünya ölkələri arasında böyük nüfuza, hər zaman xarici investorların diqqət mərkəzində olan, rəqabətə dayanıqlı, yenilməyən, 30 ilə yaxın müddətə "Zəfər Günü"nü səbirlə gözləyən bir xalq, bir dövlət yeni-yeni layihələrin, uğurlu atılacaq addımların öhdəsindən layiqli şəkildə gələcəkdir İnşaAllah.

Azərbaycanımızın dövlət müstəqilliyi, qələbəmiz xalqımızın tarixi nailiyyətidir. Dövlətimizin qədrini bilmək, onu qorumaq, inkişafımız üçün əlimizdən gələn köməyi, yardımı göstərmək hər bir Azərbaycanlıyam! deyənin borcudur.

**Qarabağ ərazisi, onun zəngin torpaqları həm yerli sahibkarlar, investorlar, iş adamları, həm də xarici dövlətlərin yatırımları üçün əlverişli və faydalı ola bilər.**

# Qarabağın yabanı bitki xammallarının Azərbaycan iqtisadiyyatına müsbət təsirini şərtləndirən amillər

*tex.e.n. dos. Fərzəliyev Elsevər*

1988-ci ildən başlayaraq Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan Respublikasının Qarabağ bölgəsində yüz minlərlə hektar ərazisi işğal olunmuşdur. Təəssüf hissi ilə qeyd etmək istəyirəm ki, işğal olunmuş bu ərazilərdə 460 növdən çox yabanı ağac və kol bitkiləri bitir, bunlardan da 70-i endemik növ olub, dünyanın heç bir yerində təbii halda bitmir, 200-ə qədəri isə həm qida məhsulu kimi, həm xalq təbabətində və həm də dərman xammalları kimi əczaçılıq sənayesində geniş istifadə oluna bilir. Qaraçöhrə, ayı fındığı, Araz palıdı, yalanqoz, şərq çinarı, adi nar, meşə üzümü, pirkal, şümşəd, adi xurma, söyüdyarpaq armud və bir çox digər bitki növləri, işğal olunmuş ərazilərdə erməni qəsbkarlarının vəhşicəsinə olan münasibəti sayəsində məhv edilərək dünya florasının xəzinəsindən silinmək səviyyəsinə çatdırılmışdır. Bəsitçay Dövlət Təbiət Qoruğu, Arazboyu Dövlət Təbiət Yasaqlığı, Qaragöl Dövlət Təbiət Qoruğu, Laçın Rayon Dövlət Təbiət Yasaqlığı, Qubadlı Rayon Dövlət Təbiət Yasaqlığı, Daşaltı Dövlət Təbiət Yasaqlığı və Qarabağın işğal edilmiş başqa ərazilərində olan qiymətli ağac və biomüxtəlifliyin digər növləri də 30 ilə yaxındır ki, erməni vandalları tərəfindən istifadə olunaraq, olduqca vacib milli sərvətlərimiz talan edilmiş və mənimsənilmişdir.



**ÖLKƏNİN İŞĞAL OLUNMUŞ ƏRAZİLƏRİNDƏ YABANI AĞAC VƏ KOL BİTKİLƏRİNDƏN HƏM QİDA MƏHSULU KİMİ, HƏM XALQ TƏBABƏTİNDƏ VƏ HƏM DƏ DƏRMAN XAMMALLARI KİMİ ƏCZAÇILIQ SƏNAYESİNDƏ GENİŞ İSTİFADƏ OLUNA BİLİR.**

İşğal olunmuş rayonlarda 247352 hektar meşə sahəsi, o cümlədən 13197,5 ha qiymətli meşə sahələri mövcud olmuşdur.

Uzun əsrlər boyu Qarabağ ərazisi ecazkar təbiətə malik olduğundan bu torpaqlarda yetişən bitki örtüyü də, sözün əsl mənasında, özünün müsbət xüsusiyyətləri ilə həmişə üstünlük təşkil etmiş və diqqət mərkəzində saxlanılmışdır.

Bütövlükdə Qarabağ ərazisində, eləcə də ona bitişik olan ayrı-ayrı rayonların meşə zolaqlarında, dağlıq və dağətəyi sahələrdə, qayalıqlarda, dərələrdə, talalarda, düzənliklərdə, çayların

sahillərində yabanı halda yetişən bir çox qiymətli meyvə-giləmeyvə xammallarına təsadüf edilir. Belə xammallardan itburnu (başqa sözlə, bu bitki növü "dərgil" kimi də adlandırılır), yemişan, əzgil, çaytikanı, zoğal, zirinc, böyürtkən, qoz, meşə fındığı və bu kimi bir çox digərlərini göstərmək olar. Demək olar ki, hər il kifayət qədər yüksək məhsuldarlığa malik olan bu yabanı meyvə və giləmeyvələrin ağac və kolları, çoxlu miqdarda ekoloji təmiz, "organic" və "bio" qida məhsulları istehsal etmək üçün xammal ehtiyatları tədarük etməyə zəmin yaradır.

Təbiətdə heç bir müdaxilə olmadan yabanı halda yetişən meyvə-giləmeyvə xammalları, müəyyən kənd təsərrüfatı müəssisələrində və ya şəxsi həyətyanı təsərrüfatlarda mədəni halda becərilərək yetişdirilən növlərdən bir çox üstünlüklərə malikdir. Belə ki, yabanı meyvə-giləmeyvələrin tərkibi karbohidratların, zülalların, (o cümlədən əvəzolunmaz aminturşu tərkibinin), efir birləşmələrinin (eləcə də fosfo, qliko və neytral lipidlərin tərkibinə daxil olan çox vacib doymuş və doymamış yağ turşuları), bir çox vitamin qruplarının, polisaxarid və oliqosaxaridlərin, polifenol birləşmələrin, makro, mikro və ultramikroelementlərin, qida boyaqlarının və qida liflərinin vəsfi tərkibinə və miqdarı göstəricilərinə görə olduqca mühüm əhəmiyyət kəsb edir. Adıçəkilən bu birləşmələr insan orqanizminin qida maddələrinə olan gündəlik tələbat normasının ödənilməsində və bunun nəticəsində də orqanizmin normal fəaliyyətinin və inkişafının təmin olunmasında çox mühüm rola malikdir.

**Yabanı meyvə və giləmeyvələrin ağac və kolları, çoxlu miqdarda ekoloji təmiz, "organic" və "bio" qida məhsulları istehsal etmək üçün xammal ehtiyatları tədarük etməyə zəmin yaradır.**

Bu mühüm məlumatlar kontekstindən çıxış edərək söyləmək olar ki, təbiətin cəmiyyətə bəxş etdiyi olduqca vacib ekoloji təmiz qida xammallarının müxtəlif çeşidli yeni qida məhsulları istehsalı üçün istifadə olunması heç də az əhəmiyyət kəsb edən məsələ deyildir. Onu da vurğulamaq yerinə düşər ki, doğma Qarabağımızın işğaldan azad edilmiş torpaqlarında yetişən yabanı qida xammallarının maya dəyəri kifayət qədər kiçikdir və bu, onlar əsasında istehsal ediləcək qida məhsullarının iqtisadi səmərəsinin daha yüksək olacağına zəmin yaradır. Qeyd etmək yerinə düşər ki, ekoloji təmiz (organic) kənd təsərrüfatı məhsulları istehsalına qoyulan investisiya xərcləri, çəkisinə görə heç də kiçik rəqəmlərlə əhatələnmir.

İşğaldan azad edilmiş Qarabağ bölgəsinin inkişaf etdirilməsi və dirçəldilməsi məqsədi ilə ölkə başçısının müvafiq göstərişləri əsasında hazırlanan tədbirlər planına uyğun olaraq, bu bölgədə qida məhsulları istehsal edən yeni emal müəssisələrinin layihələndirilməsi və tikilməsinin reallaşdırılması ölkə iqtisadiyyatının inkişafına müsbət təsir göstərər.

İşğaldan azad edilmiş ərazilərə yerli əhalinin (1992-1993-cü illərin qaçqın və məcburi köçkünləri) mərhələli şəkildə köçürülməsi, orada yaşayanların işlə təmin olunması zərurətini qarşıya qoyur. Təklif olunan emal müəssisələrinin tikilməsi də bu zərurətin həlli üçün həyata keçirilən tədbirlər sırasından sayıla bilər.

Məlumdur ki, Azərbaycanın Qarabağ bölgəsi havasının, suyunun və torpağının saflığı, təmizliyi ilə əsrlər boyunca insanların diqqət mərkəzində olmuş və olmaqda davam edir. Qarabağ torpaqlarında yetişən yabanı meyvə-giləmeyvə xammallarından istifadə edilməklə istehsal olunan ekoloji təmiz "organic" qida məhsullarının xarici ölkə bazarlarına çıxarılması da bir tərəfdən ölkə




iqtisadiyyatının inkişafına kifayət qədər müsbət təsir göstərər. Bu hal Ümumdünya Səhiyyə Təşkilatının (ÜST/VOZ) son zamanlar önəm verdiyi və diqqət mərkəzində saxladığı dünya əhalisinin (o cümlədən Azərbaycan əhalisinin) sağlam qida məhsulları ilə təminatlandırılması məqsədi ilə atılan addım kimi qiymətləndirilə bilər.

Qeyd etmək lazımdır ki, yabanı halda yetişən meyvə-giləmeyvə xammalları əsasında qida məhsulları istehsalının həyata keçirilməsi, bəzi vacib tədbirlərin öncədən reallaşmasını şərtləndirir. Belə ki, yabanı halda yetişən ağac və kollardan meyvə və giləmeyvə xammallarının yığılaraq toplanması məqsədi ilə ayrı-ayrı bələdiyyə mərkəzlərində tədarük məntəqələrinin yaradılması və tədarük edilən xammalların bu məntəqələrdə saxlamasını təmin edən saxlama kameralarının qurulması zəruri sayılır. Bu zəruri məsələlərin həyata keçirilməsi yeni iş yerlərinin yaranmasına və region əhalisinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşmasına xidmət göstərən bir tədbir kimi qiymətləndirilə bilər.

Ölkə başçısı, Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının rəhbərliyi ilə Azərbaycan Respublikasının müzəffər Silahlı Qüvvələri 2020-ci ilin sentyabr-noyabr aylarında 44 günlük Vətən müharibəsini böyük zəfərlə başa vurdu və işğala son qoyuldu. İşğaldan azad edilmiş Qarabağ torpaqlarının dirçəldilməsi üçün hazırlanmış tədbirlər planına uyğun olaraq regionda ölkə iqtisadiyyatının inkişafına müsbət təsir göstərən bir çox digər amillər də mövcuddur.

Qarabağ ərazisi həm də meyvəçiliyin, üzümçülüyün, quşçuluğun, heyvandarlığın (həm iribuynuzlu, həm xırdabuynuzlu heyvandarlıq və həm də quşçuluğun) inkişaf etdirilməsi üçün hərtərəfli imkanlara (o cümlədən kifayət qədər böyük otlaq sahələrinə, yaylaq və qışlaqlara) malikdir. Məlum olduğu kimi, kənd təsərrüfatı məhsullarının demək olar ki, hamısı qida sənayesi müəssisələri üçün xammal kimi istifadə oluna bilər.

**Yabanı halda yetişən ağac və kollardan meyvə və giləmeyvə xammallarının yığılaraq toplanması məqsədi ilə ayrı-ayrı bələdiyyə mərkəzlərində tədarük məntəqələrinin yaradılması zəruri sayılır.**

Fikirlərimi yekunlaşdıraraq qeyd etmək istəyirəm ki, yuxarıda göstərilən amillər işğaldan azad edilmiş bərəkətli Qarabağ torpaqlarının çiçəklənməsinə, yeni tikiləcək qida sənayesi müəssisələrində yabanı xammallar əsasında istehsal ediləcək bioməhsullar ölkə əhalisinin sağlamlığının qorunması ilə yanaşı, həm də "Made in Azerbaijan" brendi ilə onların xarici bazarlara çıxarılması ölkəmizin qüdrətinin tərənnüm edilməsinə, realizə olunmasından əldə edilən iqtisadi səmərə isə Azərbaycan iqtisadiyyatının yüksəlməsinə xidmət göstərəcəkdir.

Qarabağ Azərbaycandır!



# Qarabağın işğaldan azad olunmuş Ağdam rayonunun iqtisadiyyatı: reallıqlar, perspektivlər

i.e.n., dos. Məmmədov Akif

*Ağdam rayonu Azərbaycanın qədim, füsunkar təbiətli torpağı olan Qarabağın mərkəzində - Qarabağ dağ silsiləsinin şimal-şərq ətəklərində, Kür-Araz ovalığının qərbində yerləşir. Yuxarı Qarabağ regionuna daxil olan Ağdam rayonu 1930-cu il avqustun 8-də yaranıb. Rayonun mərkəzi olan Ağdam şəhəri Bakıdan 362 km məsafədə yerləşir. Rayonun ümumi sahəsi 1,15 min km$^2$-dir və rayonda 1 şəhər, 2 qəsəbə (Quzanlı, Açarlı), 123 kənd vardır. Dövlət Statistika Komitəsinin məlumatına görə, Ağdam rayonunun əhalisi 204000 (1 yanvar 2020-ci il tarixə) nəfər, rayonu işğal olunmayan kəndlərində yaşayan əhalinin sayı isə 46569 nəfər təşkil edir.*

Ağdam ağır, yeyinti və yüngül sənayeyə, inkişaf etmiş kənd təsərrüfatına malik rayondur. Rayon ərazisinin 1700 hektarı meşəlik, 91,3 hektar sahə isə kənd təsərrüfatına yararlı torpaqlardan ibarətdir. Kənd təsərrüfatı əsas bitkiçilik məhsullarının istehsalında ilk yerdə tərəvəz - 103 ton, daha sonra dənli və dənli paxlalılar - 53 ton (o cümlədən buğda-45 ton) və şəkər çuğunduru - 20 ton olmaqla qərarlaşıb (2020-ci il statistika məlumatlarına əsasən). Digər bitkiçilik məhsullarından isə pambıq, üzüm, meyvə və giləmeyvə, dən üçün günəbaxan, kartof və bostan məhsullarını göstərmək olar. Kənd təsərrüfatının heyvandarlıq məhsullarının istehsalında ət, süd, yumurta və yun məhsullarının payı geniş vüsət almış və xüsusilə süd məhsullarının üstünlüyü 36 ton olmaqla nəzərə çarpır (həmin ilin 1 yanvar vəziyyətinə olan mal-qara və quşların sayı nəzərə alınmaqla).

Ağdam ağır, yeyinti və yüngül sənayeyə, inkişaf etmiş kənd təsərrüfatına malik rayondur. Rayon ərazisinin 1700 hektarı meşəlik, 91,3 hektar sahə isə kənd təsərrüfatına yararlı torpaqlardan ibarətdir. Kənd təsərrüfatı əsas bitkiçilik məhsullarının istehsalında ilk yerdə tərəvəz, daha sonra dənli və dənli paxlalılar və şəkər çuğunduru qərarlaşıb.

Ağdamda dəzgah avadanlıqları, aerokosmik və rabitə cihazları və s. istehsal olunurdu. Ağdam rayonunda traktor və avtomobil təmiri, asfalt, konserv, yağ-pendir, barama toxumu, pambıq, şərab və mexanikləşdirilmiş çörək zavodları, xalça fabriki, taxıl məhsulları emalı ilə bağlı müəssisələr var idi. Həmçinin 39 tikinti təşkilatı, 29 kənd təsərrüfatı müəssisəsi, 27 sənaye müəssisəsi, 13 kolxoz və 12 sovxoz, 4 ədəd onlara xidmət edən təşkilatlar olmuşdur. Xüsusən də Ağdam Dəzgahqayırma zavodunda 950 nəfər çalışmış və bu zavodun məhsulları keçmiş SSRİ-nin 125 şəhərinə göndərilirdi. Rayonda iki dəmir yolu vağzalı və aeroport, avtomobillərə texniki xidmət stansiyaları, məişət-xidməti kombinatı, kənd təsərrüfatının mexanikləşdirilməsi və elektrikləşdirilməsi müəssisəsi mövcud idi. Rayondakı Taxıl Məhsulları Kombinatı ildə 80 min ton məhsul istehsal edirdi,

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatları nəticəsində 44 gündən sonra Ermənistan məğlubiyyət sənədinə imza atmalı oldu. Nəticədə rayon və şəhərlərimiz azad olundu, Azərbaycanın ərazi bütövlüyü bərpa edildi. Azad edilən rayonlar arasında Ağdam da var. 1993-cü ildə işğal olunan və Qafqazın Xirosiması adlandırılan Ağdam rayonunda erməni vandalizmi hər addımda özünü göstərir. Burada bir dənə də olsun salamat yaşayış binası, istehsal sahəsi, yaxud infrastruktur obyekti qalmayıb. Bir vaxtlar kənd təsərrüfatının inkişaf etdiyi bu rayonda indi hər şey məhv olub.

Ağdam rayonunun işğaldan azad edilməsi ilə yeni iqtisadi təşəbbüsləri özündə canlandırır. Rayon ərazisi bitkiçilik və heyvandarlıq üzrə fermer təsərrüfatlarının və aqroparkların yaradılması, sənaye məhəlləsinin formalaşdırılması, müalicəvi və idman turizminin inkişafı istiqamətində geniş perspektivləri özündə əks etdirir. Ağdam rayonu ticarət mərkəzinin də formalaşması üçün unikal perspektivə malikdir. Topdan və pərakəndə ticarət məntəqələrinin fəaliyyətə başlaması ilə rayon əhalisinin geniş məşğulluğunu təmin etmək mümkündür. Habelə, rayon ərazisi tikinti materiallarının istehsalı ilə əlaqədar keçmiş təcrübəyə malikdir. Şahbulaq yüksəkliyində yerləşən daş karxanasının işinin bərpa edilməsilə sözügedən sektorda canlanmanı bərpa etmək olar.

İyirmi yeddi il işğal altında qalan Ağdam rayonunun çoxşaxəli aqrar potensialı var. İşğal nəticəsində Ağdamın sərvətləri düşmən tərəfindən talan edilib, kənd yerlərində təsərrüfatla məşğul olan əhali məcburi köçkün vəziyyətində ölkənin digər şəhər və rayonlarında məskunlaşmağa məcbur qalıb və yaşayış binaları, ümumi infrastruktur, o cümlədən kənd təsərrüfatı istehsalı üçün zəruri infrastruktur obyektləri darmadağın edilib.

İşğal edilmiş rayonların arasında əhalinin sayına görə Ağdam ən böyük rayondur. Ölkə ərazisinin 1,3 faizini əhatə edən və sahəsi 1150 kvadratkilometr olan rayonun relyefi əsasən düzənliklərdən, qismən dağlıq ərazilərdən ibarətdir. Ağdam rayonu Azərbaycanın qədim, füsunkar təbiətli torpağı olan Qarabağın mərkəzində - Qarabağ dağ silsiləsinin şimal-şərq ətəklərində, Kür-Araz ovalığının qərbində yerləşir. Ərazi baxımından Yuxarı Qarabağ iqtisadi rayonunun tərkibinə daxildir. İşğaldan əvvəl Ağdam rayonunda 143 min insan yaşayırdı. Rayon əhalisi əsasən kənd yerlərində məskunlaşmışdı və əsas məşğuliyyəti kənd təsərrüfatı olmuşdur.

Ağdam rayonunun iqlimi qışda quru keçir, mülayim-isti iqlim tipi hakimdir. Bu iqlim tipi mülayim nəmliyi, qışının yağıntılı və yumşaq, yayının isə mülayim- isti keçməsi ilə səciyyələnir. Rayonun mövcud torpaq örtüyündə əsasən çimli dağ-çəmən, bozqır dağ-çəmən, qonur dağ-meşə, qəhvəyi dağ-meşə, dağ-qara, bozqəhvəyi, dağ-şabalıdı, boz, şabalıdı, çəmən-meşə torpaq tipləri yayılıb. Yuxarı Qarabağ iqtisadi rayonunda ən çox suvarılan torpaqlar Ağdam rayonundadır. Rayonun ərazisi əsasən Qarqar, Gülyataq, Xaçın, Qabartı çayları ilə suvarılır. Bu rayonun kənd təsərrüfatı torpaqları, həmçinin Xaçın çayı

üzərində yerləşən Dərbənd su anbarı və Tərtərçay üzərində yerləşən Sərsəng su anbarı hesabına da suvarılır. Lakin bununla belə, əkin dövriyyəsinə cəlb edilən azad olunmuş ərazilərin suvarılması üçün yeni potensial da yaranıb. Belə ki, Suqovuşan, Xudafərin və Sərsəng su anbarları, Ağdam kənd, Vəlvələçay kimi su resurslarının Ağdamın əkin torpaqlarının suvarılması üçün istifadə edilməsi rayonun kənd təsərrüfatının inkişafına töhfəsi çox yüksək olacaq.

Yayı isti, qışı quraq keçən Ağdam rayonunda örüş-otlaq və biçənək sahələri genişdir (18,4 min ha) və əhalinin maldarlıq sahəsində olan təsərrüfatçılıq ənənələri saxlanılmışdı. Rayon düzən ərazisinə və əlverişli təbii-iqlim şəraitinin mövcud olmasına görə bitkiçilik sektoru ağırlıqlı kənd təsərrüfatına malik olsa da, heyvandarlıq sektoru ilə bağlı aqrar potensialı heç də az deyildi. Qeyd edək ki, burada mövcud olan örüş-otlaq və biçənək sahələri respublikanın müvafiq sahələrinin təxminən 0,8 faizini təşkil edir. Ərazisində hakim olan iqlimin və bol sulu çaylarının verdiyi imkanlara görə rayon sakinləri həm birillik əkmələr, həm də çoxillik əkmələri rahat becərə bilirdilər.

İşğal altında qalan və işğaldan azad olunmuş Ağdamda sovetlər dönəmində əkinçiliyin əsas sahələri olan pambıqçılıq, taxılçılıq, üzümçülük və tərəvəzçilik inkişaf etdirilmişdi. Rayon ərazisində taxıl zəmiləri, pambıq tarlaları, üzümlüklər, meyvə bağları, yem bitkilərinin əkini geniş sahə tutmuşdu.

> Artıq Ağdam azaddır, tamdır və bütövdür...
>
> Ağdam öz potensialı ilə yüksək inkişaf vəd etməkdədir. Ağdam rayonunun əsas ixtisaslaşdığı sahələr olan taxılçılıq, tərəvəzçilik və üzümçülüyün yenidən bərpa edilməsi ölkə iqtisadiyyatına əhəmiyyətli töhfə vermiş olacaq.

Aqrar istehsal potensialı ilə yanaşı, Ağdam rayonunda taxılın emalı, südün emalı, gön-dərinin emalı müəssisələrinin qurulması üçün böyük potensial da nəzərə alınmalıdır. Bu region üçün trend hesab edilən tərəvəzçilik sektoru üzrə emal müəssisələri, arıçılıq məhsullarının istehsalı imkanları da hesablanarsa, burada aqro-sənayenin təmərküzləşmiş və klasterial inkişafının iqtisadiyyata töhfəsinin sovet dövründəki potensialdan daha artıq olduğu müşahidə edilir.

Ümumilikdə Ağdam rayonunda kənd təsərrüfatı infrastrukturun bərpası, yeni əkin sahələri və bağların salınması, otlaq sahələrinin, eləcə də heyvandarlıq sahəsinin inkişafı üçün zəruri infrastrukturun bərpası nəticəsində məhsuldar dövrün başlanğıcı hesab olunan 2025-ci ildə ölkədəki kənd təsərrüfatı istehsalına birbaşa əlavə töhfəsi 641 milyon manat, başqa sözlə, 4,5 faiz olacağı proqnozlaşdırılır. Təbii ki, bu proqnozlar, sadəcə, aqrar potensialı əhatə edib. Sonrakı dövrdə emal və dəyər zənciri üzrə aqro-sənaye potensialı da hesablanarsa, dolayı olaraq daha böyük miqyasda ümumi daxili məhsulda və yeni iş yerlərinin yaradılması baxımından həndəsi silsilə ilə müsbət effekt hiss ediləcək.

1985-ci ildən 35 il kimi çox uzun bir vaxt keçib. Bir qərinə ərzində kənd təsərrüfatının bütün sahələrində Azərbaycan Respublikası ciddi inkişaf əldə edib. Şübhəsiz ki, ermənilər tərəfindən işğal edilməsəydi, Ağdam rayonunun 77 faizlik hissəsi də bu inkişafdan kənarda qalmayacaqdı. Eyni zamanda müasir dövrdə elmin inkişaf səviyyəsi, intensiv istehsal texnologiyaları, innovativ becərmə üsulları və digər amillər rayonun potensial imkanlarının daha böyük olduğunu deməyə əsas verir.

Peyk görüntülərindən də Ağdamın 27 il işğal altında qalan torpaqları ilə işğala məruz qalmamış əraziləri arasında olan fərq aydın görünür. Necə ki, işğalda qalan Ağdam ərazisi digər hissə ilə müqayisədə inkişafdan çox uzaq, “ruhlar şəhəri” adlandırılaraq illərlə anılmışdır. Heç şübhəsiz ki, bu, ermənilərin düşünülmüş və qərəzli, faşist və separatçı siyasətinin bariz nümunəsidir. Lakin artıq Ağdam azaddır, tamdır və bütövdür... Ağdam öz potensialı ilə yüksək inkişaf vəd etməkdədir.

Böyük torpaq sahəsinə malik olan Ağdamın kənd təsərrüfatı üzrə istehsal göstəricilərinin təqdim edilməsindən görünür ki, keçən 30 il ərzində Qarabağın işğal altında qalması ölkə üçün nə qədər böyük ziyana səbəb olub. Ümid edirik ki, ən qısa zamanda insanlar öz ata-baba torpaqlarına geri qayıdaraq dinc şəkildə yaşayıb-yaradacaqlar. Ağdam rayonunun əsas ixtisaslaşdığı sahələr olan taxılçılıq, tərəvəzçilik və üzümçülüyün yenidən bərpa edilməsi isə ölkə iqtisadiyyatına əhəmiyyətli töhfə vermiş olacaq.



# QARABAĞIN İNKİŞAFININ ÖLKƏ İQTİSADİYYATINA TƏSİRİ

*Rəşad Əlisultanov*

**1. Qarabağın inkişafının ölkə iqtisadiyyatına təsiri**

Azərbaycan artıq qalib ölkədir. Uzun illərdir ki, düşmən tapdağında olan, sinəsində daim qanayan yara olan Qarabağ artıq bizimdir. Əvvəl də bizim idi. Sadəcə, düşmən tapdağında. Lakin tarixən çox az görülmüş şücaətlə, hərbi taktika ilə, əsgərlərimizin fərdi bacarığı ilə, dost və qardaş ölkələrin dəstəyi ilə çox qısa müddətdə, cəmi 44 gündə minimum itki ilə Qarabağımızı geri aldıq. Tarixdə vətəndaş müharibəsi ilə bağlı çox faktlar eşitmişik. Ancaq Azərbaycan bu dəfə dünyaya vətəndaş birliyinin necə olmalı olduğunu göstərdi. Bütün ölkə ərazisində böyükdən kiçiyə kimi hər kəs demək olar ki vuruşurdu. Bir hissəsi əlində silahla cəbhədə, bir hissəsi əlində kamera ilə ictimaiyyəti məlumatlandıraraq, bir hissəsi dəstək olaraq. Bir sözlə, ölkənin hər qarışında güclü dəstək var idi. Mən bir vətəndaş olaraq belə bir ölkənin vətəndaşı olduğum üçün fəxr etdim. Torpaqlarımızı şəhidlərimizin qanı, qazilərimizin yaraları bahasına geri aldıq. Ancaq bildiyimiz kimi, füsunkar təbiəti, tarixi və incəsənət abidələri ilə əlimizdən alınmış qarabağ bizə çox çılpaq vəziyyətdə qayıtdı. Abidələr məhv edildi, təbiəti yandırıldı, bir sözlə, daş üstündə daş qalmadan qaytarıldı. Ancaq bizim güclü dövlətimiz, uzaqgörən Ali Baş Komandanımız var. Biz xalq olaraq bunların hamısının tez bir zamanda

əvvəlkindən də yaxşı olacağını bilirik. Qarşıda bizi mühüm və məsuliyyətli bir mərhələ gözləyir - Qarabağ sıfırdan qurulmalı, inkişaf etdirilməlidir. Ölkəmizin iqtisadi imkanları Qarabağın inkişafının yüksək səviyyədə təşkil olunacağına inamı daha da artırır.

**1.2. Qarabağın inkişaf strategiyasında layihələr**

Mühüm məqamlar var. Burada nəzərə alınmalı olan məqamlar bir neçə yox, onlarladır. Dövlət mütləq şəkildə stimullaşdırıcı, həvəsləndirici layihələr həyata keçirməlidir. Qarabağla bağlı başqa vacib məqamlardan biri diplomatik nümayəndəliklərin bir neçəsinin Qarabağa köçürülməsi üzərində işlərin aparılmasıdır. Bu addımın bütün siyasi-diplomatik tərəfləri təhlil olunmalıdır. Bundan başqa, hansı diplomatik korpusları köçürməklə daha çox divident qazanmaq olar ki, bu təhlil olunmalıdır. Çünki fikrimcə, bəzi səfirliklərin Bakıdan kənarlaşdırılması daha yaxşı nəticələnən bir addım olar. Qarabağ əslində öz-özlüyündə iqtisadiyyatın yeni inkişaf lokomotivi olacaq. Məsələn, bu bölgənin turizmdə əvəzsiz bölgələrdən biridir. Turizmin inkişafına dair xüsusi tədbirlərin hazırlanması və həyata keçirilməsi, dağ turizminin inkişafına dair tədbirlərin görülməsi Qarabağ zonasının inkişafında əvəzolunmaz sahələrdən biridir. Dağlıq ərazilərdə qış turizminin inkişafı üçün çox gözəl təbii şərait var. Eyni zamanda Qarabağın ənənəvi və turizmlə bağlı sənətkarlıq sahələrinin bərpa olunmasına və inkişafına dövlət tərəfindən maliyyə yardımı göstərilərsə, bu yeni iş yerlərinin dairəsinin genişləndirilməsində, həm də turizmin inkişafında özünəməxsus vacib rol oynaya bilər. Bundan başqa, çox zəngin su ehtiyatları, xüsusilə də Laçın və Kəlbəcər rayonlarında olan şirin su ehtiyatları əsasında süfrə suları emalının və qablaşdırılmasının dəstəklənməsi həm yerli bazarda, həm də ixracda böyük fayda verə bilər. Sadalanan tədbirlərin vaxtında, sistemli və davamlı şəkildə həyata keçirilməsi həm Azərbaycanın gücünə güc qatacaq, həm də nüfuzunun artmasına, əhalinin güzəranının yaxşılaşmasına müsbət təsir göstərəcək. Qarabağın ənənəvi təsərrüfatçılıq təcrübəsindən çıxış etməklə işğaldan azad olunan torpaqlarda üzümçülük, tütünçülük, pambıqçılıq, baramaçılıq, meyvə-tərəvəz, bostançılıq və heyvandarlığın inkişafı üçün yetərincə imkanlar mövcuddur. Qarabağda kənd təsərrüfatı məhsullarının emalı üçün və ərzaq sənayesinin inkişafı üçün potensial və ənənə var. Buna görə də aqrar sahənin inkişafında fermer təsərrüfatlarının, kooperativlərin və aqroparkların, eləcə də kənd təsərrüfatı məhsullarının emalından son məhsul alınanadək bütün mərhələləri əhatə edəh klasterlərin yaradılmasına üstünlük verilməsi daha düzgün addım olar. Aqrar-sənaye kompleksi müəssisələri, fermer təsərrüfatları dövlətin maliyyə yardımı ilə təmin edilməli və kənd təsərrüfatında bazar prinsiplərinə əsaslanan sığorta sistemi təşkil edilməlidir. Gənclərə uyğun iş yerlərinin yaradılması, onların sahibkarlıq fəaliyyəti ilə məşğul olması üçün işlək mexanizm hazırlanmalı və tətbiq edilməlidir. Gənclərin sahibkarlıq fəaliyyəti və əmək məşğulluğu ilə bağlı genişmiqyaslı özünü məşğulluq layihələri həyata keçirmək lazımdır. Bunun üçün beynəlxalq təşkilatların dəstəyindən istifadə olunması vacibdir. Qarabağda əhalinin məskunlaşması genişləndikcə start verilən infrastruktur xarakterli tədbirlər, məsələn, su, işıq, istilik və s. kimi təchizat sahələrində görülən tədbirlər həmin yerlərdə bağça, təhsil, peşə, orta ixtisas və ali məktəblərin, eyni zamanda səhiyyə və digər sosial obyektlərin yaradılması və maddi-texniki təchizatı ilə bağlı tədbirlərlə tamamlanacaq.

**1.3. İşğaldan azad edilən ərazilərdə vacib məqamlar**

Bütün bunlardan əlavə, söhbət təkcə sosial-iqtisadi layihələrdən yox, Qarabağın həm də hərbi infrastrukturunun inkişafından gedir. Elə ən vacib amil də budur. Biz Qarabağda hərbi hissələrin, hüquq-mühafizə və xüsusi xidmət orqanlarının, dövlər qurumların fəaliyyətini ənənəvi üslubda qurmalıyıq. Şübhəsiz, onların da fəaliyyəti digər bölgələrdəki kimi Azərbaycan Respublikasının qanunları ilə tənzimlənəcək. Qanunlar çərçivəsində və hüquq daxilində! Lakin bütün bunlardan əlavə olaraq məsələnin həm də mənəvi və ictimai tərəfləri var. Düşünək ki, bu torpaqlar 28 il işğal altında qalıb və orada hər bir iş yenidən qurulmalıdır. Bunun üçün bizə lazım olan güclü iqtisadiyyatdır. Bu gün Azərbaycan bu iqtisadiyyata sahibdir. İqtisadiyyatın daha da inkişafı üçün Qarabağın yenidən qurulması vacibdir. Çünki istənilən sahədə çox güclü potensiala malikdir. Qarabağın işğaldan azad olunması Azərbaycan iqtisadiyyatının genişlənməsinə və diversifikasiyasına töhfə olacaq. Çünki dövlətimizin başçısı demişkən “Qarabağ Azərbaycandır!”



# Qarabağ bölgəsinin turizm destinasiyası olaraq dəyərləndirilməsi: Ekoturizm nümunəsində

*müəllim Mirzəyeva Gülnar*

*Günümüzdə **turizm regional inkişafın** hərəkətverici qüvvəsinə çevrilir və getdikcə daha çox yeni destinasiyaları əhatə edir. Ortaya çıxan yeni turizm destinasiyaları turizmin inkişaf etməsindən daha çox fayda əldə etməyə çalışır. Bunun nəticəsində destinasiyalar arasındaki rəqabət də artmağa başlayır.*

Destinasiyaların sayının artmasının turistləri daha çox sevindirməsinə və daha çox seçimə sahib olmalarına baxmayaraq, ölkələrin öz turizm destinasiyalarını digər destinasiyalardan fərqləndirməsi çətinləşir. Turizm destinasiyalarının alternativ turizm növlərinin inkişaf etdirilməsi üçün potensiala sahib olması onların rəqabətdə önə keçməsi və digər destinasiyalardan fərqlənməsində mühüm rol oynayır. Son 15 ildə potensialı olan turizm destinasiyaları güclü rəqabət ortamında həm iqtisadi, həm də sosial fayda qazanmaq üçün ekoturizmi inkişaf etdirməyə çalışır.

Bu gün insanların ekoloji şüurunun artması ilə bərabər, təbiətin araşdırılması və müxtəlif fəaliyyətlərin axtarışı ekoturizmin daha geniş yayılmasına və ekoturistlərin sayının artmasına səbəb olur. Ekoturizm təbii ekosistem balansını qorumada və dayanıqlı inkişafın təşviqi baxımından potensial bir strategiya olaraq görülür. UNEP (BMT-nin Ətraf Mühit Proqramı) tərəfindən aparılan bir araşdırmaya görə; ekoturizm turizm növləri içində ən üst sıralarda yer alır. Dünya Turizm Təşkilatının proqnozlarına görə, həm turistlərin sayı araşdırıldıqda, həm də ümumilikdə ekoturizmin inkişaf seyri qiymətləndirildikdə artım müşahidə olunur. 2024-ci ilə qədər qlobal turizm bazarının 5 %-ni ekoturizmin təşkil edəcəyi proqnozlaşdırılır.

Ekoturizm dayanıqlı turizmin alt komponentidir. Ekoturizmin

dayanıqlı inkişaf üçün təsirli bir vasitə olaraq görülməsi inkişaf etməkdə olan ölkələrin ekoturizmi mənimsəməsinin, iqtisadi inkişaf və qoruma strategiyalarına daxil etməsinin əsas səbəbidir. Yerli əhalinin qazanc əldə etməsinə səbəb olan, ekoloji və mədəni həssaslığı artıran, ətraf mühitə dair məlumatlılıq yaradan ekoturizm həm ziyarətçilər, həm də ölkə iqtisadiyyatı baxımından fayda qazandırır. Ölkəmiz Strateji Yol Xəritəsində turizmin inkişafı ilə bağlı hədəflərində ekoturizmə xüsusi yer verib. Belə ki, 2025-ci ilə qədər Azərbaycanın artıq sağlamlıq, qış və mədəni turizm növləri kimi ekoturizmin də kifayət qədər tanınmış olacağı proqnozlaşdırılır.

**Qarabağ bölgəsini turizm destinasiyası olaraq dəyərləndirsək, bir çox alternativ turizm növlərində yüksək potensiala sahibdir.** Bu bölgədə mədəni turizm, qaranlıq turizm, termal turizm və başqa turizm növlərində olduğu kimi, alternativ turizm növlərindən olan ekoturizmdə də böyük potensial var. Qarabağ bölgəsinin zəngin flora və faunaya sahib olması, relyefinin əsasən dağlıq olması, füsunkar təbiəti, yaşı minilliklərlə ölçülən abidələrinin olması, zəngin mədəniyyətə sahib olması bu bölgədə ekoturizmin inkişaf etdirilməsini labüd edir. Ölkənin Strateji Yol Xəritəsində ekoturizmə önəm verilməsi Qarabağ bölgəsinin də ekoturizm çərçivəsində dəyərləndirilməsini qaçılmaz edir. Qarabağ bölgəsi sahib olduğu yüksək potensialı istifadə edərək aşağıda qeyd olunan ekoturizm fəaliyyətlərini həyata keçirə bilər:

**1. Mağara turizmi:** Azərbaycanın cənub-qərbində yerləşən Füzuli şəhəri yaxınlığındakı Azıx mağarası dünyada ən qədim insan məskənlərindən biridir. Burada ilk insanların Paleolit dövründə məskunlaşdığı güman edilir. Bu da ekoturizm çərçivəsində istifadə edilən mağara turizminin inkişaf etdirilməsinə əsas verir.

**2. Termal fəaliyyətlər:** Qarabağ bölgəsinin zəngin termal mənbələrinin olması ekoturizm çərçivəsində istifadə ediləcək əsas resurslardandır. Bu da günümüzdə təbiətdə vaxt keçirmək ilə bərabər, öz sağlamlığını düşünən turistlərin bu destinasiyaya cəlb edilməsində mühüm rol oynayacaq.

**3. Dağ turizmi:** Qarabağ bölgəsinin relyefinin əsasən dağlıq olması bu turizm növünün inkişaf etdirilməsi üçün əsas verir. Dağ turizmi ekoturizm çərçivəsində uğurlu bir şəkildə tətbiq ediləcək və destinasiyanı daha çəkici edəcək vacib turizm növləri içində ən üst sıradadır.

**4. Aqroturizm:** Bu turizm növünün inkişafı gələcəkdə bölgədə yaşayacaq əhalinin sosial rifahını artıracaq, bölgə əhalisinin mədəniyyətinin yaşadılmasına və tanıdılmasına səbəb olacaq.

**5. Trekking:** Dağlıq hissələrdə və daha çox qrup şəklində həyata keçiriləcək trekking fəaliyyətləri ekoturizm çərçivəsində daha çox turistin bölgəyə çəkilməsinə səbəb olacaq.

**6. Botanika turizmi:** Qarabağ bölgəsinin endemik və nadir bitkilərlə zəngin olması bu turizm növünün inkişafına və təbiətdə daha çox vaxt keçirmək istəyən turistlərin bölgəyə cəlb edilməsinə şərait yaradır.

Eyni zamanda ekoturizm çərçivəsində velosiped turları, atçılıq, inanc turizmi, mədəni-tarixi yerlərin turistlərə tanıdılması və Qarabağ bölgəsinin özünəməxsus mədəniyyətinin ziyarətçilərə öyrədilməsi həyata keçirilərək bu bölgənin turizm destinasiyası olaraq digər destinasiyalar qarşısında rəqabətdə önə keçməsinə və turizm destinasiyası olaraq turizm məhsullarının diversifikasiyasına səbəb ola bilər.



# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ TURİZMİN İNKİŞAFI

## ŞUŞA ŞƏHƏRİ TİMSALINDA

*dos., i.f.d. Hüseynli Aytən*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev xalqa müraciətində bildirdi ki, "Biz Şuşanı dirçəldəcəyik. Digər işğaldan azad olunan ərazilərimiz kimi, Şuşanın da Azərbaycanın tərkibində sürətli inkişafı gözlənilir. Mərhələlərlə, işğaldan azad olunan ərazilərimizdə kommunikasiyalar bərpa olunacaq, yaşayış və iqtisadiyyat canlandırılacaq. Şuşanın işğaldan azad edilməsi isə Azərbaycan dövlətinin, cəmiyyətinin və iqtisadiyyatının intibah dövrünə qədəm qoyması deməkdir".*

Şuşa şəhərinin təməli 1752-ci ildə Qarabağ hökmdarı Pənahəli xan tərəfindən qoyulub və ilk çağlarda şəhəri Şuşa adı ilə yanaşı, xanın şərəfinə Pənahabad adlandırırdılar.

XVIII əsrdə Şuşa şəhəri Azərbaycanın ən mühüm şəhərlərindən birinə çevrilmişdi. Onun dövrəsində böyük və güclü sədd çəkilib çoxsaylı sənətkar məhəllələri yaranmışdı. Şuşalı tacirlər İran şəhərləri və Moskva ilə ticarət əlaqələri saxlayır, burada Pənahabadi adlanan gümüş sikkə zərb edilirdi. Şuşa şəhəri 1992-ci il may ayının 8-də erməni birləşmələri tərəfindən işğal edildi. Şuşanın işğalı nəticəsində azərbaycanlıların tarixi izlərini silmək məqsədilə erməni vandalları 600-ə yaxın tarixi memarlıq abidəsini, o cümlədən Pənahəli xanın sarayını, Yuxarı Gövhər ağa məscidini, Aşağı Gövhər ağa məscidini, Xurşidbanu Natəvanın evini, Molla Pənah Vaqifin məqbərəsini yerlə-yeksan etdilər.

7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, orta ixtisas musiqi məktəbini, 8 mədəniyyət evini, 22 klubu, 31 kitabxananı, 2 kinoteatrı, 8 muzeyi, o cümlədən Şuşa Tarix Muzeyi, Azərbaycan Xalça Muzeyinin filialı və xalq tətbiqi sənəti muzeyi, Qarabağ dövlət tarix muzeyini, turist bazasını, Qafqazda yeganə Şərq musiqi alətləri fabrikini dağıtmış, buradakı nadir sənət incilərini talanmış və məhv edilmişdir. Şəhərin tarixi muzeyinin 5 minədək əşyası, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyini Şuşa filialı, Dövlət Qarabağ Tarixi Muzeyinin 1000-dək əşyası, peşəkar Azərbaycan musiqisinin banisi, bəstəkar Üzeyir Hacıbəyovun (300-dən çox əşya), müğənni Bülbülün (400-dək əşya), musiqiçi və rəssam Mir Möhsün Nəvvabın (100-dən çox əşya) xatirə muzeylərinin fondları qarət edilmişdi.

8 noyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən Şuşa şəhəri işğaldan azad edildi.

Torpaqlarımızın işğaldan azad olunması siyasi, hərbi qələbəmizlə yanaşı, həm də iqtisadiyyatımıza əsaslı təsir göstərəcəkdir. Başlıca olaraq qeyri-neft sektorunun inkşafına öz təsirini göstərəcək yeraltı və yerüstü sərvətlərə malik olan ərazilərdə turizmin inkişafı da qaçılmaz deyil.

Turizmdə ən böyük motivasiyalardan biri təbii guşələrə maraq olduğu üçün bu, Şuşanı ön plana çıxarır. Şuşanın tarixi və mədəni potensialı turizmi burada inkişaf etdirəcək əsas amillərdən biridir, çünki:

1. Qeyd edildiyi kimi tarixi və mədəni irslə tanışlıq turistlərin cəlb edilməsi üçün ən vacib vasitədir, ən güclü turist motividir;

2. Tarixi və mədəni irs obyektləri mənfəət qazana bilən və iqtisadi inkişafa əhəmiyyətli dərəcədə təsir göstərə bilən mühüm bir sərvətdir;

3. Bölgənin müsbət imicini yaradır, turizm arenasında liderliyin mənimsənilməsinin təsirli vasitəsi kimi istifadə olunan tarixi və mədəni irsə "brend" kimi yanaşılmasını təmin edir.

Turistlərin xərcləri sayəsində Şuşanın iqtisadiyyatına əlavə gəlir gələcəkdir. Zamanla turist sayının artması, şübhəsiz ki, turizm sahəsi üzrə məhsul istehsalının artmasına, turizm üzrə aktiv istehlak bazarının yaradılmasına və yerli turizm sənayesində investisiya cəlbediciliyinin artmasına səbəb olacaqdır. Turistlərin tələbatları nəticəsində istehsal olunan məhsulların və onların satışının həcmi artdıqca bölgədə turizm sənayesinə yararlı yeni obyektlər (otellər, iaşə müəssisələri, istirahət və əyləncə mərkəzləri) inşa edilə bilər. Açılacaq yeni kafelər, restoranlar turistlərə ölkənin zəngin mətbəxini tanıdacaqdır.

Ticarət mərkəzlərində gündəlik tələbatımızı qarşılayan geyim və əşyalarla yanaşı, turistlərin diqqətini cəlb edəcək Azərbaycan mədəniyyətinə məxsus ənənəvi geyimlərin, dulusçuluq məhsullarının, tariximizi əks etdirən əşyalarımızın satılması turizmə olan maliyyə axınını artıracaqdır.

Şəhər içində faytonların istifadəyə verilməsi ilə turistlər üçün qədim dövr Şuşa ab-havası yaradıla bilər. Həmçinin bir çox ölkələrdə mövcud olan, velosiped kirayə götürmənin şəhər üzrə tətbiqi gələn qonaqların həm uyğun qiymətlə, yorulmadan şəhər turuna çıxmasına, həm də şəhərin təmiz havasının avtomobil tüstüsünə çox məruz qalmamasına şərait yaradacaqdır.

Şuşanın relyefi dağlıq olduğu üçün snowbord və xizəksürmə üçün uyğun qarlı zəmin yaradıla bilər. Həmçinin sıldırım qayalar və yüksəkliklər alpinizm və "bungee jumping" (insanların əsasən ayaqlarına elastik möhkəm bir ip bağlayaraq yüksək yerlərdən aşağı atladıqları və ip vasitəsilə yuxarı çəkildikləri ekstremal əyləncə növü) üçün ideal şərait yaradır. Ərazisində axan çaylar "rafting" (raft adı verilən qayıqları avar vasitəsilə idarə edərək, çay boyu qayaları və maneələri aşaraq devrilməməyə çalışmaq) üçün də olduqca uyğundur.

Şəhərdə yenidənqurma işləri aparıldığı təqdirdə Dünya Turizm Təşkilatı (UNWTO) tərəfindən müəyyənləşdirilmiş üç əsas müalicə turizm formasını tətbiq etmək mümkündür:

1. Müalicə və ya tibbi turizm - müalicə almaq üçün xüsusi klinikalara və ya ixtisaslaşmış mütəxəssislərə müraciət məqsədli turizm. Əksər hallarda insanların öz yaşadıqları ərazidə mövcud olmayan müalicə keyfiyyəti bu turizmin ön plana çıxmasına şərait yaradır.




**Şuşanın relyefi dağlıq olduğu üçün snowbord və xizəksürmə üçün uyğun qarlı zəmin yaradıla bilər.**

2. Sağlamlığın yaxşılaşdırılması – fitnes, spa-wellness (dünya miqyasında, xüsusilə sağlamlıqlarına fikir verən şəxslərin önəm verdiyi, stresdən və modern yaşamın neqativ təsirlərindən uzaqlaşmağa yardımçı olan turizm sahəsi), hidroterapiya və palçıq vannaları və.s

3. Reabilitasiya və bərpa – xüsusi baxım təklif edən, sağlamlığın bərpası üçün əlverişli sayılan yerlərdə yerləşən müəssisələr.

Şəhərdə açılacaq yeni konservatoriya, musiqi məktəbləri və keçiriləcək festivallar, konsertlər, tədbirlər Şuşanın şöhrətini yenidən özünə qaytaracaqdır. "Xarı Bülbül" festivalının bərpa olunması isə Azərbaycanın mədəniyyət sektoru üçün olduqca önəmli bir hadisədir.

Qarabağın döyünən ürəyi Şuşanın azad olunması bütün Azərbaycan və Türk Dünyasına sevinc bəxş etdi. "Bakı-Xankəndi-Şuşa turizm marşrutu"u üzrə ilk düşüncələr də artıq simvolik deyil, mövcud istəklərin doğurduğu bir reallıqdan yarandı. Çünki Şuşa bizim, Qarabağ Azərbaycandır!



# Alternativ enerji Qarabağda!

*müəllim, Pərvin Məmmədzadə*

Tarixən siyasi və sosial-iqtisadi inkişaf həmişə enerji istehlakındakı artım və artan CO2 tullantıları ilə sıx əlaqələndirilmişdir. İqlim dəyişikliyinin qarşısını almaq üçün alternariv enerji mənbələrinin inkişafına başlanmış və qabaqcıl texnologiyaların istifadəsi üçün imkanların açılması, enerjiyə çıxışın asanlaşdırılması, iqlim dəyişikliyinə və ətraf mühitə təsirinin azaldılması ilə davamlı inkişafa səbəb olmuşdur. 2019-2020-ci illərdə davamlı inkişaf hədəfləri və sabit siyasətə əsaslanan qlobal elektrik istehsalının 26%-dan çox bərpa olunan enerji mənbələri təmin etmişdir. Əvvəlki illərdə olduğu kimi, güclü siyasi dəstəyin olmaması və yeni texnologiyaların yavaş inkişafı səbəbindən istilik, soyutma və nəqliyyat sektorlarında alternativ enerjidəki irəliləyiş cüzi olmuşdur. Alternativ enerjinin istifadəsi ilə rəqabətə davamlı, yerli enerji texnologiyalarının inkişafı və iş yerlərinin açılması şərti ilə maliyyəyə qənaət tətbiq etmək mümkün olmuş və bununla da sosial-iqtisadi inkişaf stimullaşdırılmışdır. Enerji mənbələrinə daim artan tələbat, məhdud karbohidrogen ehtiyatları və ənənəvi enerji istehsalının yaratdığı ekoloji problemlər alternativ və bərpa olunan enerji mənbələrindən istifadəni zəruri etmişdir.

*Təhlükəsiz enerji təchizatının yaxşılaşdırılması, mərkəzləşdirilməmiş elektrik enerji şəbəkələri yaratmaq, enerji təchizatı fasilələrinin payını azaltmaq və enerji mənbələrini şaxələndirməklə Azərbaycan və işğaldan azad olunan ərazilərdə ucqar bölgələrin sakinləri üçün enerjiyə çıxışını təmin edir və sürətləndirir.*

Qlobal iqtisadiyyatın qaz və neft ehtiyatları ilə təmin olunma səviyyəsinin azalması yeni enerji reallığını əsk etdirir. Bu şərtlərdə sənaye cəhətdən inkişaf edən istehlakçıların bərpa olunan enerji mənbələrinə marağı formalaşmışdır, yəni artan enerji mənbələrinə olan tələbat şəraitində enerji problemini həll etmək elmi aləmin gündəminə və aktual mövzusuna çevrilmişdir. Ölkəmizdə bu sahənin inkişafını təmin etmək üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 21 oktyabr 2004-cü il tarixli 462 nömrəli Sərəncamı ilə “Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı” təsdiqlənmiş və ölkəmizdə alternativ və bərpa olunan enerji mənbələrinin inkişafını təmin etməsi üçün uzunmüddətli strateji fəaliyyət planları hazırlanmışdır.

2016-cı ildə Azərbaycan alternativ enerji mənbələrindən istifadənin, istehsal və mənzil-kommunal təsərrüfatlarında karbon emissiyalarının azaldılması üçün tədbirlərin işlənməsinin prioritet istiqamətləri kimi müəyyənləşdirildiyi İqlim Dəyişikliyi üzrə Paris Sazişini imzalamışdır. Alternativ enerji hədəfləri arasında 2020-ci ilə qədər elektrik enerjisi istehsalında payının 20 %-ə, ümumi enerji istehlakında isə 9,7 %-ə çatdırılması və qaz paylama sistemlərindəki itkilərin azaldılması daxil olmuş və ümumi gücü 2 min MVt olan bərpa olunan enerji mənbələri əsasında elektrik stansiyalarının istismara verilməsi planlaşdırılmışdır. 2030-cu ilədək isə hədəf karbon dioksid emissiyalarının 1990-cı il bazasına nisbətən 35 %-ə qədər azaldılması nəzərdə

tutulmuşdur. Alternativ enerji mənbələrinin inkişafı Azərbaycanda enerji sisteminin davamlılığına da kömək edə bilər. Məsələn, paylanmış alternativ enerji sistemləri, batareyaların artan istifadəsi ilə birlikdə tədarük təhlükəsizliyini artıracaq.

Dövlət Proqramının məqsədi bərpa olunan və ekoloji cəhətdən təmiz mənbələrdən elektrik enerjisi istehsalını və karbohidrogen enerji mənbələrindən daha səmərəli istifadəni ölkə daxilində təşviq etməkdir. Dövlət Proqramının əsas məqsədləri bunlardır:

- Elektrik enerjisi istehsalı üçün alternativ enerji mənbələrinin potensialının müəyyənləşdirilməsi;
- Alternativ enerji mənbələrini inkişaf etdirərək ölkədə enerji mənbələrindən istifadənin səmərəliliyini artırmaq;
- Alternativ enerji istehsal sahələrinin yaradılması ilə əlavə iş yerlərinin açılmasını təmin etmək;
- Azərbaycanda ənənəvi enerji mənbələrinin mövcudluğunu nəzərə almaqla, alternativ enerji mənbələri hesabına enerji tutumunu artırmaq və bu səbəbdən ölkənin enerji təhlükəsizliyinə nail olmaq.

Külək enerjisi ekoloji etibarlılığı və sınırsız mövcudluğu səbəbindən günəş, hidro, geotermal və biokütlə üzərində üstünlük verilən bir enerji mənbəyidir. Azərbaycanın bir çox bölgəsi, o cümlədən işğaldan azad edilmiş ərazilərdə külək enerjisi obyektlərindən istifadə üçün böyük perspektivlərə malikdir. Hesablamalar göstərir ki, Azərbaycan Respublikası coğrafi mövqeyi, təbiəti və iqtisadi infrastrukturuna görə illik 1500 MW texniki külək enerjisi gücünə malikdir. Təxminən bu ehtiyat 2,4 milyard kVt/saat elektrik enerjisidir. Bu, 1 milyon tona qədər standart yanacağa qənaət, ozon qatını dağıdan karbon dioksid və çox miqdarda tullantıların atılmasının qarşısını almasını deməkdir. Həmçinin Azərbaycanda günəş enerjisindən istifadə edərək elektrik və istilik enerjisi istehsalı üçün böyük imkanlar var. Məsələn, ABŞ və Orta Asiyada günəş işığının illik sayı 2500-3000 saat, Rusiyada 500-2000 saat, Azərbaycanda isə 2400-3200 saatdır. Tədqiqatlar göstərir ki, Azərbaycan Respublikasında çayların ümumi hidroenerji potensialı 40 milyard kVt/saatdır. Texniki cəhətdən reallaşdırıla bilən potensial 16 milyard kVt/saatdır ki, bunun da 5 milyard kVt/saatı kiçik su elektrik stansiyaları ilə əlaqədardır. Energetika Nazirliyinin təqribi qiymətləndirmələrinə əsasən, Qarabağ və ətraf regionlarda 4000 meqavatdan çox günəş, 500 meqavatadək isə külək enerjisi potensialı və Azərbaycanın yerli su ehtiyatlarının 25 %-i, yəni ildə təqribən 2 milyard 560 milyon kubmetr su ehtiyatları bu ərazidə formalaşır. Bütün bunlarla yanaşı, Kəlbəcər rayonu ərazisində 3 093 m3 /gün, Şuşada isə 412 m3 /gün termal su ehtiyatları mövcuddur. Qeyd olunmalıdır ki, enerji məqsədli istifadənin mümkünlüyü ərazilərin düşmən işğalından tam azad olunduqdan  sonra tədqiq ediləcəkdir.

*Neft və qazın üstünlük təşkil etdiyi bir ölkədə alternativ enerji Qarabağ və ətraf regionlarda yeni iş imkanları, texnoloji yeniliklər və iqtisadi dəyər yaratmaq üçün yeni imkanlar üçün katalizator rolunu təmin edəcək.*

Nəticədə, enerji daşıyıcılarının optimal qarışığını müəyyənləşdirmək, müvafiq siyasi və sosial-iqtisadi qərarlar qəbul etmək üçün elektrik, sənaye, yaşayış, ticarət, kənd təsərrüfatı və nəqliyyat sahələrində enerji tələbatı üçün ətraflı uzunmüddətli planlaşdırma planları həyata keçirilməsi məqsədəmüvafiqdir. Bərpa olunan enerji mənbələrinin payının artması ilə gələcək ssenariləri müəyyənləşdirmək üçün bərpa olunan enerji mənbələrinin texniki və iqtisadi potensialının texnologiya ilə qiymətləndirilməsi tələb olunur. Ölkənin enerji sisteminin modernləşdirilməsi üçün tələb olunan investisiyalar kimi məqamlara xüsusi diqqət yetirərək mövcud enerji infrastrukturunun hərtərəfli qiymətləndirilməsini aparmaq lazımdır. Enerji mənbələrini şaxələndirməklə və daha çox ixracat üçün ənənəvi enerji mənbələrini artırmaqla Azərbaycan iqtisadiyyatı tarazlaşdırmaq üçün uzunmüddətli enerji ssenarilərinin inkişafı, bərpa olunan enerji mənbələrinin orta və uzun müddətə enerji sisteminə inteqrasiya problemini həll etməsinə müsbət təsir göstərəcək.

# Neofunksional nəzəriyyə çərçivəsində qarabağ bölgəsində regional əməkdaşlıq imkanları

*müəllim, Məmmədov Aqil*

**1. Neofunksional nəzəriyyənin əhəmiyyəti**

Funksional nəzəriyyələr, bir qayda olaraq, inteqrasiya proseslərinin vacibliyini ortaya qoyaraq, regional əməkdaşlıq imkanlarını maksimum səviyyədə ortaya çıxartmağı hədəfləməkdədir. Nəzəriyyənin ilkin mərhələsi funksionalizm olaraq ortaya çıxsa da, sonrakı mərhələdə daha da inkişaf etdirilərək Neofunksional nəzəriyyə kimi elmi ədəbiyyatlarda özünəməxsus yer tutmuşdur. Müasir dünyada inkişaf etmiş ölkələrin praktik olaraq istinad etdiyi funksional nəzəriyyələrin prinsipləri bir çox nəzəriyyələrdən əsaslı formada fərqlənməkdədir.

İnsan ehtiyaclarının prioritetləri əsasında qurulmuş olan bu nəzəriyyələr dövlətlərin eyni zamanda sıx əməkdaşlıq etməsi üçün əsaslı formada zəmin hazırlamaqdadır. Dövlətlərin bir-biri ilə əməkdaşlığa söykənən fəaliyyətləri eyni zamanda qarşılıqlı asılılıq üçün münbit şəraitin əsasını da qoymuş olacaqdır. Bu addım dövlətlərarası münasibətlərin asılılıqdan qarşılıqlı asılılığa keçidi, əməkdaşlıq imkanları üçün yeni bir mərhələnin əsasını qoymuş olmaqla yanaşı, dövlətlərin bir-biri ilə müharibə etmə potensialını məhdudlaşdıraraq, sülh şəraitini də təşviq etmiş olacaqdır. Daha da konkret olaraq:

**DÖVLƏTLƏRİN BİR-BİRİ İLƏ ƏMƏKDAŞLIĞA SÖYKƏNƏN FƏALİYYƏTLƏRİ EYNİ ZAMANDA QARŞILIQLI ASILILIQ ÜÇÜN MÜNBİT ŞƏRAİTİN ƏSASINI DA QOYMUŞ OLACAQDIR.**

• "Neofonksional nəzəriyyəyə görə, müəyyən bir sahədə başlayan inteqrasiya zamanla digər sahələrə təsir etməyə başlayacaq.

• İnsanların ehtiyacları və rifah səviyyələrini yüksəltmək üçün siyasi ideologiyaların deyil, teknokratik perspektivin ön planda olmasının vacibliyi qeyd edilir. Funksional nəzəriyyə öz-özlüyündə bu prosesi "şaxələnmə" (ramification) olaraq təyin etməkdədir.

• Neofunksionalizm isə spill over (yayılma) anlayışını inkişaf etdirmişdir. Spill over təsirini qısa olaraq qeyd etsək, beynəlxalq ticarətin artan inkişaf dinamikası dövlətlərin gündəmini daha çox məşğul edəcək və bununla dövlətlər siyasi olaraq bütünləşmə yolunda addımlarını atacaqlar. İqtisadi sahədə başlayan əməkdaşlıq imkanları potensial olaraq siyasi sahədə də birləşmə yönündə təzyiqləri artıra biləcəkdir.

Əməkdaşlığın daha çox sektorlara ayrılması ilə artan ixtisaslaşma əmsalı isə dövlətlərin investisiya etdikləri təşkilatların vasitələri ilə daha məhsuldar olmasına imkan verəcəkdir. Digər tərəfdən, bütün bu əməkdaşlıq zəncirlərinin faydalılığını konkret olaraq görəcək olan milli dövlət və cəmiyyətlər də bu inteqrasiyaya mərkəzli yeni bir imic ilə sülhü sağlamlaşdıracaqlar.



## 2. Qarabağ bölgəsində neofunksional əməkdaşlıq imkanları

Bu mənada, nəzəriyyədə qeyd olunan prinsipləri nəzərə alaraq Qarabağ bölgəsinin iqtisadi potensialının kifayət qədər olması səbəbi ilə regionda münasibətlərin inkişafı üçün yeni bir mərhələnin başlana biləcəyini ifadə etmək mümkündür.

**Regionda olan enerji təməlli qarşılıqlı asılılıq siyasətini şaxələndirərək, region dövlətləri ilə sənaye, kənd təsərrüfatı kimi cəmiyyətin əsas ehtiyaclarını ödədiyi məsələlərdə də əməkdaşlıq fürsətlərini ortaya çıxsrır.**

Konkret olaraq qeyd etsək, Dağlıq Qarabağ və ətraf regionlarda müxtəlif enerji, o cümlədən hidroenerji mənbələrindən istifadə üçün çox böyük potensial olduğunu ifadə edə bilərik. Bu potensial neofunksional nəzəriyyələrin üzərində xüsusilə durduğu fərqli sektorların inkişafı üçün əsas rol oynadığını ifadə etmək mümkündür.

Ölkənin sənayesi və kənd təsərrüfatı üçün regionun əhəmiyyətini daha da rahat formada anlamaq mümkündür. Bu sahədə regionda olan enerji təməlli qarşılıqlı asılılıq siyasətini şaxələndirərək, region dövlətləri ilə sənaye, kənd təsərrüfatı kimi cəmiyyətin əsas ehtiyaclarını ödədiyi məsələlərdə də əməkdaşlıq fürsətlərini ortaya çıxarır.

İqtisadiyyatın əsası üçün ehtiyac olan əsas faydalı qazıntıların Qarabağ bölgəsində yer alması burada nəinki daxili tələbatın ödənilməsi, eyni zamanda regionda olan digər dövlətlərlə konkret sahələrdə əməkdaşlıq üçün əsas mənbə rolunu oynaya biləcəkdir.

Bununla yanaşı, Qarabağ regionu nəinki turizm sahəsi üçün yeni fürsətlər ortaya çıxarır, eyni zamanda alternativ turizmin inkişafı üçün də potensialı yetərli qədər olan bölgələrimizdən biri hesab olunmaqdadır.

Qarabağ bölgəsində inkişafi daha da səmərəli formada təşkil etmək üçün texniki sahələrdə ixtisaslaşmış olan beynəlxalq təşkilatların da köməyindən yararlanaraq, regionun iqtisadi inkişafını daha da effektiv formada etmək mümkün ola biləcəkdir. Eyni zamanda, iqtisadiyyatın şaxələnməsi və fərqli sahələrdə yayılması üçün funksional nəzəriyyələrin qeyd etdiyi prinsipləri yerinə yetirmək mümkün olacaqdır.

Bütün bu sadalananlar ilə birlikdə Qarabağ bölgəsinin Azərbaycanın istər iqtisadi, istərsə də siyasi həyatında nə qədər önəmli rol oynadığını da bariz şəkildə ifadə edə bilərik.

# QARABAĞ AZƏRBAYCANIN QƏDİM ETNİK-TARİXİ-MƏDƏNİYYƏT BEŞİYİDİR

*t.e.d., prof. Cəfərov Hidayət*

*Elmi dəlillər və faktlarla çoxdan və birmənalı olaraq sübut olunub ki, bütövlükdə Qarabağ, o cümlədən onun dağlıq hissəsi ən qədim dövrlərdən başlayaraq Azərbaycanın tərkib hissəsi olmuşdur.*

Təkzibedilməz tarixi faktlar göstərir ki, nəinki hazırda xalis genosid siyasəti nəticəsində aborigen Azərbaycan əhalisini öz doğma yurdlarından didərgin salmaqla etnik təmizləmə aparmış Dağlıq Qarabağda yaşayan ermənilər buraya gəlmədir, habelə bütünlükdə Ermənistan ən qədim dövrlərdən Cənubi Qafqaz ərazisindən kənarda mövcud olmuşdur. Bu faktı Azərbaycan alimləri ilə yanaşı, rus, hətta erməni alimlərinin də bir çoxu dəfələrlə öz əsərlərində etiraf etmişlər (A.S.Qriboyedov, B.İşxanyan, V.A.Parsamyan, İ.A.Orbeli, V.L.Veliçko, N.N.Şavrov və b.). Qarabağ heç bir vaxt erməni torpağı, erməni dövləti ilə heç bir əlaqəsi olmamışdır. Əksinə, tarixin təkzib edilməz faktları ilə sübut edilmişdir ki, bütövlükdə Qarabağ, o cümlədən onun bir yarısı olan Dağlıq Qarabağ mövcud olduğu bütün tarixi dövrlərdə Azərbaycanın ayrılmaz tərkib hissəsi olmuşdur.

Qarabağın ekoloji durumu, zəngin flora və fauna aləmi, təbii şəraiti, reliktiv meşələri, yeraltı sərvətləri, əlverişli iqlimi, bol sulu çayları, şəfalı bulaqları, bir sözlə, yaşamaq üçün bütün zəruri ehtiyatların varlığı ən qədim dövlərdən ərazinin məskunlaşmasını şərtləndirmişdir.

Qarabağ təkcə Azərbaycanda və Qafqazda deyil, bütün keçmiş sovet məkanında kompleks halda tarixi-arxeoloji tədqiqata cəlb olunan nadir bölgələrdəndir. Bu diyarın arxeoloji abidələri haqqında onlarla monoqrafiya, yüzlərlə elmi məqalə, beş doktorluq və çoxsaylı namizədlik dissertasiyası yazılmışdır.

Qarabağda arxeoloji tədqiqatlar əsasən XIX əsrin ikinci yarısından başlamış, XX əsrin 20-30-cu illərində fasilələrlə davam etdirilmiş, XX əsrin ikinci yarısı- XXI əsrin əvvəllərində isə intensiv xarakter almışdır. Elmi axtarışlar nəticəsində müəyyənləşdirilmişdir ki, bu bölgə insanın təşəkkül tapdığı ilk dövrlərdən son orta əsrlərədək olan dövrü əhatə edən arxeoloji abidələrlə zəngin olan qədim sivilizasiya mərkəzlərindən biridir. Ulu sakinlərin gündəlik məişət və təsərrüfat həyatını əks etdirən maddi tapıntılar bölgədə formalaşan Paleolit-Mezolit, Neolit-Eneolit, Kür-Araz, Üzərliktəpə və Xocalı-Gədəbəy arxeoloji mədəniyyətləri arasındakı varisliyin təzahürüdür. Azıx, Tağlar, Şuşa, Zar kimi Paleolit (qədim Daş dövrü) mağara düşərgələri də Qarabağda yerləşir. Neolit-Eneolit dövrlərində (e.ə.VII-IV minilliklərdə) bu ərazi sıx məskunlaşmış, nəticədə zəngin əkinçi-maldar mədəniyyəti formalaşmışdır. E.ə. IV-I minilliyin əvvəllərini əhatə edən Tunc və İlk Dəmir dövründə ictimai-siyasi və iqtisadi yüksəliş mədəni inkişafa yeni impuls vermiş, bölgədə ilk Tunc dövrünə aid Kür-Araz, orta tunc dövrünün Üzərliktəpə, son Tunc – ilk Dəmir dövrünü əks etdirən Xocalı-Gədəbəy arxeoloji mədəniyyətləri

təşəkkül tapmışdır. Dünya alimlərinin böyük əksəriyyəti tərəfindən birmənalı qəbul edilən bu etnik-mədəni birliklərin daşıyıcıları Azərbaycan xalqının soy-kökünün formalaşmasında müstəsna rol oynamışlar.

Doğrudan da, təkzibedilməz tarixi faktlar və arqumentlərlə sübut olunub ki, ibtidai icma quruluşu dövründə burada Quruçay mədəniyyətini yaratmış, qədim əcdadlarımız olmuş ilk insanlar təşəkkül tapmış və formalaşmışdır. Bu faktlar danılmazdır və sübut edir ki, Azıx, Tağlar mağaralarında məskunlaşmış əhali zəngin təbiətə və əlverişli iqlim şəraitinə malik olan Qarabağın ilk sakinləri olmuşlar. İbtidai insanların məskunlaşdığı düşərgələr sırasına Qarabağın dağlıq hissəsində aşkar olunmuş Şuşa və Kəlbəcərdəki Zar mağaraları da daxildir. Bütün bu faktlar birmənalı olaraq söyləməyə imkan verir ki, Azərbaycan və onun Qarabağ regionu dünyanın ilkin insanların təşəkkül tapması və inkişafının baş verdiyi çox nadir əraziləri cərgəsində layiqli yer tutmuşdur.

Maraqlıdır ki, qədim Daş dövründə Qarabağın sərt iqlimə malik dağlıq zonasında yığıcılıq və bəsit ovçuluq həyatı keçirmiş ilkin məskunlardan fərqli olaraq, erkən əkinçi – maldar tayfalar olan ibtidai fermerlər düzənlik zonalarda yayılmışlar. Yeri gəlmişkən, xatırlatmağı lazım bilirik ki, Tunc dövrünün ilk mərhələsindən başlayaraq, sanki insanların genetik yaddaşı işə düşmüş, Qarabağın həmin dövr sakinləri " yüz minilliklərdən sonra yenidən Paleolit dövründə yaşamış keçmiş əcdadlarının "vətənini" - dağətəyi və dağlıq zonaları məskunlaşdırmışlar.

Bu prosesin reallaşdırılmasında bir çox faktorlar, o cümlədən təsərrüfat ukladının, içtimai-siyasi və sosial-iqtsadi həyatın, bunlarla yanaşı, heç də onlardan az əhəmiyyət kəsb etməyən iqlim səraiti və ekoloji durumun da böyük rolu olmuşdur.

Azərbaycanın Qarabağ bölgəsində dünya alimlərinin də qəbul etdiyi, xronoloji baxımdan biri digərini əvəz etmiş



**Azıx, Tağlar mağaralarında məskunlaşmış insanlar zəngin təbiətə və əlverişli iqlim şəraitinə malik olan Qarabağın ilk sakinləri olmuşlar.**



"Quruçay" (Paleolit dövrü), "Şomu təpə" (Neolit-eneolit dövrü), "Leylatəpə" (son Eneoloit, erkən Tunca keçid), "Kür-Araz" (ilk Tunc), "Üzərliktəpə" (orta Tunc), "Xocalı-Gədəbəy" (son Tunc-erkən Dəmir) arxeoloji mədəniyyətlər formalaşmışdır.

Eneolit və Tunc dövründə (e.ə. VII-II minilliklər) Qarabağda yaşamış tayfalar və tayfa birlikləri qədim Azərbaycanda əkinçilik, maldarlıq və sənətkarlığın, mədəni-iqtisadi əlaqələrin inkişafında böyük rol oynamışlar.

İlk Tunc dövrünün Kür-Araz mədəniyyətinə aid etnik mədəni qrupları, orta Tunc dövründə Qarabağda məskunlaşmış və Üzərliktəpə mədəniyyətini yaratmış tayfalar, habelə e.ə. XIV - VIII əsrlərdə Qarabağın dağlıq hissəsindən tutmuş, onun geniş və bərəkətli düzənlik ərazisi də daxil olmaqla Gəncə, Qazaxa qədər böyük bir regionu özündə cəmləşdirən Xocalı – Gədəbəy etnik massivinin tərkib hissəsi kimi Qarabağın qədim sakinləri zəngin ümumazərbaycan mədəni irsinin formalaşmasında fövqəladə rol oynamışlar. Xüsusi olaraq vurğulamağı vacib sayırıq ki, Ağdam şəhəri kənarında yerləşmiş, e.ə. II minilliyin birinci yarısına aid Uzərliktəpə abidəsində aparılan tədqiqatlar Azərbaycanda protoşəhər sivilizasiyasının təşəkkülünü izləmək baxımından mühüm əhəmiyyət kəsb edir. Uzərliktəpə ilə yanaşı, qonşuluqdakı Çinartəpə, Naxçıvandakı II Kültəpə, habelə Ağdamdakı Qaratəpə şəhər tipli yaşayış məskənləri timsalında ilkin şəhərsalma mədəniyyətinin qnessen kökünü araşdırmaqda əvəzsiz mənbələrə malik oluruq.

E.ə. IV- y.e. VIII əsrlərində Qarabağ və onun dağlıq hissəsi Azərbaycanın qədim dövlətlərindən olan Qafqaz Albaniyasının tərkibində olmuş, bu dövlətin aparıcı vilayətlərindən biri kimi onun ictimai-siyasi və iqtisadi



**XVIII əsrin ortalarında yaranmış müstəqil feodal dövlətlərindən biri olan Qarabağ xanlığının mərkəzi Pənahabad – Şuşa şəhəri idi.**

həyatında mümkün yer tutmuşdur.

Ərəb işğalları və ərəb xilafəti dövründə bütövlükdə Azərbaycan, o cümlədən onun tərkib hissəsi kimi Qarabağ ərəb xilafəti sistemində qərarlaşmışdır. Xilafət əsarətinə son qoyulduqdan sonra IX-XII əsrlərdə mövcud olmuş müstəqil Azərbaycan feodal dövlətlərinin tərkibində olan Qarabağ monqol işğalları dövründə Hülakilər dövlətinin tərkibində Azərbaycanın bir əyaləti olaraq qalmışdır.

Orta əsrlər dövründə də bu ərazi Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi gah Şirvanşahlar, gah da Qaraqoyunlu və Ağqoyunlu dövlətinin tərkibində olmuş, 1501-ci ildən sonra isə mərkəzləşmiş Azərbaycan Səfəvilər dövlətinin vilayətlərindən biri kimi fəaliyyət göstərmişdir.

XVIII əsrin ortalarında yaranmış müstəqil feodal dövlətlərindən biri olan Qarabağ xanlığının mərkəzi Pənahabad – Şuşa şəhəri idi. O zaman Qarabağdakı kiçik məlikliklər (Çiləbört, Vərəndə, Dizaq, Xaçın və Gülüstan) Qarabağ xanlığının tərkibi kimi Qarabağ xanlığının banisi Pənahəlı xan və onun varisi İbrahimxəlil xanın tabeliyində idi.

Nəhayət, 1805-ci il mayın 14-də bağlanmış Kürəkçay müqaviləsinə əsasən, Qarabağ xanlığı Rusiyanın tərkibinə qatılmışdır. Yəni, bu xanlıq ermənilərin iddia etdiyinin əksinə olaraq, erməni əyaləti kimi deyil, məhz müstəqil Azərbaycan Qarabağ xanlığı kimi müxtəlif şərtlərlə Rusiya imperiyasının tərkibinə birləşdirilmişdir. İki mərhələdə – 1813-cü ilin Gülüstan, 1828-ci ilin Türkmənçay müqavilələri ilə bütövlükdə Arazdan şimalda olan Azərbaycan ərazisinin bir hissəsi kimi Qarabağ xanlığı da çar Rusiyasının tərkibinə qatılmışdır. Bu asılılıq 1918-ci ilə qədər davam etmişdir. Ermənilərin Qarabağ, Naxçıvan, İrəvan ərazisində sonradan məskunlaşması tarixi ilə bağlı faktlar kifayət qədərdir. Bunun üçün bədnam Türkmənçay və Ədirnə müqavilələrinin erməni əhalisinin İran və Türkiyə ərazisindən Azərbaycanın göstərilən vilayətlərinə köçürülməsinə rəvac verməsi ilə bağlı bəndlərinə diqqət yetirmək kifayət edər. 1918-1920-ci illərdə mövcud olmuş müstəqil Azərbaycan Cümhuriyyəti dövründə Qarabağ bütövlükdə bu dövlətin sərhədləri daxilində onun bir quberniyası kimi mövcud olmuşdur. 1920-ci ilin aprel çevrilişindən sonra da ermənilər Azərbaycana qarşı ərazi iddialarından əl çəkməmişlər. 1923-cü il iyulun 7-də AzMİK Azərbaycan SSR-nin tərkibində DQMV-nin yaradılması haqqında dekret verdi Bundan sonra 1980-ci illərin sonuna qədər həmin vilayət Azərbaycan SSR-in tərkib hissəsi olmuşdur.

Çox təəssüf ki, xarici havadarlarından hərtərəfli dəstək alan, Azərbaycanda XX əsrin 80-ci illərinin sonu, 90-cı illərinin ilk illərində hakimiyyətdə olmuş rəhbərlərin məsuliyyətsizliyi və səriştəsizliyindən istifadə edən erməni vandalları tarixi – arxeoloji abidələrlə zəngin olan, əzəli-əbədi Azərbaycan torpaqlarını, Qarabağı işğal edə bildilər. Bunun nəticəsində Qarabağ və onun ətrafındakı yeddi Azərbaycan rayonu işğal olundu. 30 il müddətində qədim tarixə, zəngin təbii sərvətlərə malik ərazilərimizdə həm də tariximizin ən müxtəlif mərhələlərini əks etdirən unikal və çox halda analoqu olmayan tarixi-arxeoloji memarlıq abidələri yağı düşmən tapdağı altında qalmışdır.

Zəngin maddi-mədəniyyət abidələri vəhşicəsinə dağıdılmlş, müxtəlif dövrlərə aid arxeoloji abidələrin milli mənsubiyyəti danılaraq erməniləşdirilmişdir. Azıx Paleolit düşərgəsində, Şuşa ətrafında, Xankəndi yaxınlığında, Qarabağın digər abidələrində, Şahbulaqda, Ağdam kurqanlarında qanunsuz



arxeoloji qazıntılar aparılmış, artefaktlar Yerevana daşınmışdır. E.ə. IV-y.e. VII əsrlərində mövcud olmuş, müasir respublikamızın ilk dövlətçilik sələfi olmuş Qafqaz Albaniyasına məxsus antik şəhər yerlərinin, xüsusilə xristian məbədlərinin guya ermənilərə məxsusluğu heç bir elmi-tarixi əsası olmadan dünya ictimaiyyətinə təlqin olunmağa çalışılmışdır.

Erməni işğalçıları BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsinə məhəl qoymayraq 30 il müddətində dünya ictimaiyyətinə meydan oxudu. Baxmayaraq ki, bütün dünyada terrorizmə qarşı ciddi mübarizə aparılırdı, lakin dünya ictimaiyyəti nədənsə erməni terrorizmi, onların qəddar ASALA və s. terrorçu təşkilatına qarşı mübarizə aparmaqdan çəkinir, ikili standart, xristianlığa havadarlıq müstəvisindən çıxış edərək azğınlaşmış erməni quldurlarını ram etmək istəmirdilər, yenə də istəmirlər. ATƏT-in Minsk Qrupu deyilən ölü doğulmuş bir qurum isə elə yarandığı gündən hər vəchlə çalışmışdır ki, "Dağlıq Qarabağ" deyilən uydurma bir "problem"in yalnız intəhasız və səmərəsiz "danışıqlar yolu ilə" həllinin mümkünlüyünü təlqin etsin. Başqa sözlə, "problem"in hərb variantı kökündən rədd edilirdi.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyev cənablarının dəmir iradəsi, yenilməzliyi, diplomatik və hərbi sahədə fövqəltəbii istedadı sayəsində Müzəffər Ordumuz 30 il müddətində həlli mümkül görünən "Qordi düyününü" 44 günlük Vətən müharibəsində birdəfəlik həll etdi. "Məğlubedilməz" erməni mifini elə erməni ordusu ilə bərabər məhv etdi. Qarabağın tacı Şuşa da daxil olmaqla, ermənilərin məlum havadarlarının köməyi ilə 30 il işğalda saxladığı ərazilərimiz yağı düşməndən azad edilidi. BMT-nin də, ATƏT-in də töhmətdən canı qurtardı. Əslində BMT, onun qəbul etdiyi və 30 ildə heç vəchlə icra edə bilmədiyi dörd qətnaməni 44 günlük şanlı Hərb əməliyyatında çox yüksək səviyyədə başa çatdıran Azərbaycana minnətdar olmalıdır. Cənab Ali Baş Komandan, cənab İlham Əliyevin dediyi, Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin də təsdiq etdiyi kimi daha "Dağlıq Qarabağ problemi" deyilən termin yoxdur. Azərbaycan bu uydurma söz birləşməsini tarixən zibilliyinə atdı. Qarabağ öz əbədi-əzəli sahibinə, Azərbaycana qovuşdu. Dünya birliyinə sübut olundu ki, Qarabağ Azərbaycandır!

Azərbaycan dövləti sübut etdi ki, ölkə rəhbəri ilə xalq, onun silahlı qüvvələri "Dəmir Yumruq" kimi birləşərək düşmənin belini sındırmaq mümkündür. İndi yeni dövr başlanır. İşğaldan azad olunmuş rayonlarda böyük quruculuq işləri, erməni faşistlərinin xarabazara çevirdiyi ərazilərimizin qaynar həyata qaytarılması, həyatın canlanması prosesinə start verilir. Prezidentimizin dediyi kimi, möhtəşəm quruculuq işləri sayəsində Qarabağ cənnətə çevriləcək. Müvafiq dövlət strukturları öz cavabdeh olduqları sahələrdə qarşıya qoyulan tapşırıqları icra edəcəklər. Şübhəsiz, Qarabağda gedən yenidənqurma işlərini, həyatın bütün sahələrinin qaynamasını öz gözləri ilə əyani görmək istəyənlərin sayı da çoxalacaq. Xüsusilə dünya əhəmiyyətli tarixi, arxeoloji, memarlıq abidələrini ziyarət etmək həvəsində olan turistlərin gəlişi gözlənilir. Ekoturizm, arxeoturizm kimi yeni turist marşrutlarının reallaşması günün vacib reallığı yaranacaqdır. Bu məqsədlə Azərbaycan Mədəniyyət Nazirliyi, Dövlət Turizm Agentliyi, AMEA-nın müvafiq qurumları, respublikanın ali məktəbləri ilə birlikdə abidələrin turizm marşrutlarının müəyyən edilməsi kimi qarşıda mühüm işlər durur. Ömrünün əlli ilini Qarabağın qədim arxeoloji abidələrinin tədqiqinə həsr etmiş bir şəxs kimi mən və mənim həmkarlarım bu marşrutların tərtibinə öz töhfəmizi verməyə hazırıq. Bu marşrutlar bir neçə istiqamətdə davam edərək Qarabağın həm düzən, həm də dağlıq zonalarını əhatə edəcəkdir. Artıq bu istiqamətdə Dövlət Turizm Agentliyi ilə ilkin işlərə start verilmişdir.

***Bizi bütün sahələrdə möhtəşəm quruculuq işləri gözləyir.***



# İşğadan azad olunmuş Qarabağ memarlıq abidələrinin bərpaya doğru həlli yolları

*Namazova Nərminə*

BƏŞƏR SİVİLİZASİYASININ ƏN QƏDİM ƏRAZİLƏRİNDƏN BİRİ OLAN AZƏRBAYCANDA YAŞAMIŞ İNSANLAR TARİX BOYU BÖYÜK YARADICILIQ YOLU KEÇƏRƏK ÇOXSAYLI MƏDƏNİYYƏT ƏSƏRLƏRİ YARATMIŞDIRLAR. YARANMIŞ MƏDƏNİYYƏT İNCİLƏRİNDƏN ƏN ÖNƏMLİ OLAN AZƏRBAYCAN MEMARLIQ ABİDƏLƏRİDİR.



Qarabağ ərazisində yerləşən abidələrimizi dağıtmaqda mənfur düşmənlərin əsas amalı mədəniyyət və mənəviyyat tariximizin daşlaşmış yaddaşının silinməsi olmuşdur. Bu abidələrin hər daşında həm mədəniyyətimizin, həm də tariximizin silinməz izləri vardır. Qarabağda memarlıq abidələrimiz, muzeylərimizlə yanaşı, dini məbədlərimiz də dağıdılmışdır. Azərbaycanın memarlıq irsi böyük itkilərə uğramışdır. Bu gün Qarabağ işğaldan azad olunmuşdur. Mənfur düşmən tərəfindən talan edilmiş qədim yaşayış məntəqələrindəki tariximizin, mədəniyyət və mənəviyyat abidələrimizin yenidən bərpa edilməsi uğrunda işlər aparılmaqdadır. Qarabağda dağıdılmış olan memarlıq abidələrinin yenidən qurulması və bərpası hazırda Azərbaycan memarlarının mühüm yaradıcılıq fəaliyyətinin əsasını təşkil edir. Burada maddi-mədəni irsimiz olan memarlıq abidələrinin qorunması və bərpası ilə bağlı müxtəlif qərar və tədbirlər həyata keçirilməkdədir.

Qarabağda illər boyu əsir qalmış memarlıq incilərimizdən "Bəylərin evi", "Xan qızı Natəvanın sarayı", "İbrahimxəlil xan sarayı", "Qarabağ xan sarayı", "Məlik Əjdər türbəsi", "Gövhər ağa məscidi, "Şah Abbas məscidi" və bir çoxlarının adlarını çəkmək olar. Bir vaxtlar azan səsi eşidilən ibadət evlərimiz erməni işğalçıları tərəfindən dağıdılmış və ya yararsız vəziyyətə gətirilmişdir. Qarabağda yerləşən məscidlərimiz yenidən bərpa olunacaq və bu məscidlərin minarələrindən yenə də azan səsi ucalacaqdır.

Bu gün ilk növbədə Qarabağın tarixini, mədəni irsini bərpa etmək, qorumaq lazımdır. Bu istiqamətdə mühüm işlər görülür. Ölkə başçısı İlham Əliyev bu sahəyə xüsusi diqqət yetirir. Qarabağın mədəni irsinin qorunması və təbliği istiqamətində bir neçə qanun və dövlət proqramları qəbul olunub. Abidələr bərpa olunaraq beynəlxalq aləmə çıxarılmalı, dünya mədəni irs siyahılarına daxil edilməlidir. Bu abidələrimizin yenidən bərpası ilə tariximiz qorunur. Onların gələcək nəsillərə çatdırılması və turizm nümayiş obyektinə çevrilməsi üçün şərait yaradılır.

*1990-cı ildən Ermənistanın Azərbaycana qarşı başladığı Qarabağ müharibəsi nəticəsində Qarabağ və ətraf rayonlar işğal olundu. Bu ərazilərdə qalan çoxsaylı Azərbaycan abidələri məhv edildi. Azərbaycanın Ermənistan tərəfindən işğala məruz qalmış ərazilərində tamamilə və ya qismən məhv edilmiş milli sərvətimiz olan bir çox tarixi abidələrimiz vardır.*

Bu sahədə tədqiqatlar aparılmalı və gənc mütəxəssislər bərpa işlərinə cəlb olunmalıdır. Ayrı-ayrı memarlıq abidələrinin qorunub saxlanılmasına dair tövsiyələrin hazırlanması və onların eskiz, bərpa və konservasiya layihələrinin tərtib olunması vacibdir. Bu memarlıq abidələrinin tədqiqi və indiki vəziyyətinin yoxlanılması kimi işlər yerinə yetirilməlidir. Qarabağ və ətraf ərazilərin memarlıq irsinin vəziyyəti, bərpası və qorunması bu gün qarşıda duran əsas məsələlərdəndir.

1990-cı illərin əvvəllərinə olan statistikaya əsasən, işğal edilmiş ərazilərimizdə 2625 abidə qeydə alınmışdı. Yüzlərlə mədəniyyət müəssisəsi, 927 kitabxana, 808 mədəniyyət sarayı, klub və mədəniyyət evləri, 85 musiqi və rəssamlıq məktəbi, 100 mindən artıq eksponatın toplandığı 22 muzey və muzey filialı, 4 rəsm qalereyası, 4 teatr müəssisəsi, 2 konsert müəssisəsi, 8 mədəniyyət və istirahət parkı, o cümlədən Füzuli rayonu ərazisində dünyanın ən qədim yaşayış məskənlərindən biri olan Azıx mağarası, Şuşa Dövlət Tarix-Memarlıq Qoruğu erməni vandalizminin qurbanına çevrilmişdir. Abidələrin bəzilərində inşaat-möhkəmləndirmə, bəzilərinin yenidən bərpası vacibdir. Əsas məqsəd abdələrimizin təmiri və bərpası onların zədələnmiş və itirilmiş hissələrinin konstruksiyasına, planlaşma həllinə, xarici və daxili görünüşünə xələl yetirmədən təmir edib ilkin halına gətirməkdir.

Ermənilərin törətdiyi vandalizm Azərbaycanın Qarabağ bölgəsində maddi mədəniyyət abidələrinin taleyini təhlükə altına qoydu. Çünki bəzi abidələrə nəinki xələl gətirilmiş, hətta tamamilə məhv edilmişdir.

Abidələrimizin funksional təyinatını, memarlıq-estetik görünüşü və uzunömürlülüyünün təmin edilməsi bu gün diqqət mərkəzindədir. Ölkəmizdə sahibkarlarlar da bu sahəyə investisiya qoymaqda maraqlı olmalıdırlar. Bu milli-tarixi, maddi-mənəvi irsimizə sahib çıxmaq, onu qorumaq və gələcək nəsillərə çatdırılması naminə aparılan vətənpərvərlik işidir.

# Pandemiyanın milli iqtisadi təhlükəsizliyə təsiri

*i.e.n., dos. Mənsur Bərxudarov*

*2020-ci ilin əvvəllərindən başlayaraq bu günə kimi davam edən və yekunu bəlli olmayan "COVİD-19" pandemiyasının dünya ölkələrinin sosial-iqtisadi həyatına vurduğu zərərin əhatəliliyi genişlənir və həcmi artır. Koronavirus pandemiyasına qarşı müdafiə olunmaq üçün ölkələrin hazırlıq səviyyələri və müdafiə olunmaq sistemləri bir-birindən kəskin şəkildə fərqlənir.*

Təcrübə göstərir ki, Azərbaycan Respublikasının yaranmış şoka hazırlıq səviyyəsi əksər inkişaf etmiş ölkələrin hazırlıq səviyyəsindən daha yüksəkdir. Bunun əsasında ölkədə effektiv fəaliyyət göstərən güclü hakimiyyət və güclü iqtisadiyyat dayanır. Xarici dövlət borcunun aşağı səviyyədə olması, kifayət qədər valyuta ehtiyatlarının (50 mlrd. dollar) mövcudluğu koronavirus pandemiyasının ölkəmizin həyatının bütün sahələrinə vurduğu ziyanı minimallaşdırmağa və milli valyutamızın kursunun qorunub saxlanılmasına imkanlar yaratdı. Bununla bərabər olaraq, Azərbaycan Respublikasının iştirakı ilə neft hasilatının azaldılması OPEC+ razılaşmasının dünya neft bazarında neftin qiymətinin artmasına müsbət təsiri nəticəsində ölkənin planlaşdırdığı illik dövlət büdcəsinin kəsirsiz icra edilməsi mümkün oldu.




Yuxarıda qeyd etdiklərimiz pandemiyadan zərər çəkən iqtisadi sektorlara, kiçik və orta biznes subyektlərinə, işsizlərə və gəlirləri olmayan əhali təbəqəsinə zəruri köməklik göstərilməsinə imkan yaratmış oldu.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin birbaşa rəhbərliyi ilə 27 sentyabr 2020-ci ildə başlayan Azərbaycan Ordusunun əks-hücumu prosesi 44 gün davam etdi və Ermənistanın bütövlükdə məğlubiyyəti ilə nəticələndi. Təbii ki, 44 günlük Vətən müharibəsinin aparılması dövlətimizə çox böyük iqtisadi zərər vurdu və çoxlu sayda hərbçilərimiz və mülki şəxslərimiz şəhid oldu. Əgər pandemiyanın vurduğu sosial-iqtisadi zərərlərin üzərinə biz müharibənin də vurduğu zərərləri əlavə etsək, onda Azərbaycan Respublikasının milli iqtisadi təhlükəsizliyinin daxili və xarici təhdidlərdən qorunmasını daha obyektiv qiymətləndirmiş olardıq. Davamlı olaraq xaricdən güclü dəstək alan və 30 il ərzində Azərbaycanın torpaqlarını işğal edərək həmin torpaqlarda azğın

bir şəkildə özbaşınalıq edən Ermənistanı pandemiya şəraitində və 30 il ərzində 1 milyon qaçqın vətəndaşının qayğısına qalan Azərbaycan 44 günlük müharibə ərzində diz çökdürdü. Bu möhtəşəm qələbə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin hərbi-siyasi qətiyyəti, güclü dövlətimizin fəaliyyəti, Azərbaycan Ordusunun gücü və Azərbaycan xalqının dəstəyi nəticəsində qazanılmışdır.

Yaşadığımız bugünkü gerçəkliyimiz göstərir ki, pandemiyanın ölkəmizin sosial-iqtisadi həyatına mənfi təsiri hələ də davam edir. Ona görə də dövlətimizin belə bir şəraitdə prioritet qəbul etdiyi hər şeydən əvvəl əhalinin sağlamlığının qorunub saxlanılmasıdır. Ölkənin sosial-iqtisadi həyatında təhlükəsizliyin təmin edilməsi üçün mütəmadi olaraq lazımi tədbirlər həyata keçirən Azərbaycan hökuməti həm də postpandemiya dövrü üçün milli iqtisadi inkişaf proqramını hazırlayır. Postpandemiya dövrü üçün davamlı və təhlükəsiz iqtisadi inkişafın gündəliyinin bu gündən hazırlanması milli iqtisadi təhlükəsizliyin təmin edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Beynəlxalq maliyyə-iqtisadi təşkilatların proqnoz qiymətləndirmələrinə görə, qlobal məcmu məhsul 2020-ci ildə 2019-cu ilə nisbətən 4,5%-dən, 5,5% arasında aşağı düşəcəkdir. Ona görə də dünya ölkələri üçün pandemiyanın neqativ sosial-iqtisadi nəticələrini aradan qaldırmaq uzun müddət tələb edəcə kdir. Belə bir aqibət Azərbaycanı da gözləyə bilərdi. Lakin Azərbaycanın həyata keçirdiyi çevik iqtisadi siyasət nəticəsində ölkədə qeyri-neft sektoru formalaşır və onun ixrac potensialı güclənir. Amma onu da qeyd edək ki, bu günə kimi Azərbaycanda neft-qaz sektoru iqtisadiyyatımızın aparıcı sektoru olmaqda davam edir və dünya energetika bazarında gözlənilən qeyri-sabit vəziyyət Azərbaycanın iqtisadi təhlükəsizliyinə xarici təhdid kimi çıxış edir.

Ölkənin real sektorunun iqtisadi təhlükəsizliyinin təmin edilməsinin onun maliyyə təhlükəsizliyi ilə funksional əlaqəsi vardır. Azərbaycanda maliyyə sektoru bütövlükdə idarə olunandır. Lakin 2014, 2015 və 2016-cı illərdə Azərbaycanın bank sektorunda yaranmış borc problemi bu gün də problem olaraq qalır və bu da bankların gəlirlərinin əhəmiyyətli dərəcədə azalmasına gətirib çıxarır. Nəticədə Azərbaycan mənşəli bankların effektiv fəaliyyəti təmin oluna bilmir. Bu da öz növbəsində banklar tərəfindən biznesin inkişafı istiqamətində kreditləşmənin həyata keçirilməsini çətinləşdirir.

Bir məsələni də xüsusi vurğulamaq lazımdır ki, pandemiya dövründə özünü təcridetmə şəraitində məsafədən fəaliyyət göstərən informasiya texnologiyalarının rolu birdən-birə sürətlə artmışdır. Belə olan şəraitdə təkcə iqtisadiyyat yox, ictimai həyatımızın bütün sahələrində köklü dəyişikliklərin labüdlüyü gözləniləndir. Bu dəyişikliklər aşağıdakılardır:
- Rəqəmsal dövlətin formalaşması;
- Rəqəmsal iqtisadiyyatın formalaşması;
- Rəqəmsal cəmiyyətin formalaşması.

Göründüyü kimi, koronavirus pandemiyasına qarşı mübarizəyə istiqamətlənmiş tədbirlərin həyata keçirilməsi rəqəmsal texnologiyanın və rəqəmsal iqtisadiyyatın əhəmiyyətli dərəcədə inkişaf etməsi üçün əlverişli şərait yaratmışdır. Pandemiya insanın birbaşa həyat şəraitini müəyyənləşdirən təhsil, səhiyyə, əmək və istirahət şəraiti və digər sahələrə öz konkret, yeni tələblərini qoyur. Ona görə də bu sahələrdə gedən dəyişikliklər tez bir zamanda təhlil olunaraq qiymətləndirilməlidir. Belə ki, müasir dövrdə sosial-iqtisadi inkişafın və milli iqtisadi təhlükəsizliyin təmin olunmasında insan potensialı həlledici amil kimi qəbul edilir.

Azərbaycanda insan potensialının formalaşdırılması və inkişafına proqramlı yanaşma mövcuddur. 2013-cü ildə Təhsilin inkişafı üzrə Dövlət Strategiyasının qəbul olunması və Azərbaycanın "resurs iqtisadiyyatı" modelindən "bilik iqtisadiyyatı" modelinə keçməsi istiqamətində sistemli və ardıcıl şəkildə həyata keçirilən islahatlar artıq öz bəhrəsini verməkdədir. Bu gün Azərbaycan Respublikası postpandemiya dövründə milli iqtisadi inkişafın gündəliyini tərtib edərək "Smart ölkə "konsepsiyasını əsas götürür." Smart ölkə "konsepsiyasına görə, Azərbaycanda rəqəmsal dövlət, rəqəmsal iqtisadiyyat və rəqəmsal cəmiyyətin formalaşdırılması strateji məqsəd kimi qarşıya qoyulur və bu məqsədə doğru inkişaf edərək irəliləyir.

Pandemiya şəraitində və erməni qəsbkarlarından azad olunmuş torpaqlarımızda ictimai həyatın bərpa olunması şəraitində rəqəmsal iqtisadiyyatın formalaşdırılması ilə paralel olaraq ölkənin iqtisadi təhlükəsizliyi daxili və xarici təhdidlərdən qorunmalı, onun enerji, sənaye, maliyyə və informasiya təhlükəsizliyi təmin olunmalıdır.

Fikrimizcə, pandemiya və Qarabağda həyatın bərpa olunması şəraitində rəqəmsal cəmiyyətin formalaşdırılması, insan kapitalına əsaslanan rəqabətə davamlı modern iqtisadiyyatın formalaşdırılması və onun təhlükəsizliyinin təmin edilməsi Azərbaycanda mümkün olacaqdır. Vətən müharibəsi zamanı dövlətimizin, xalqımızın və ordumuzun birliyi bizi möhtəşəm qələbəyə gətirib çıxartmağı onu deməyə əsas verir ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi altında ölkəmiz qısa zaman çərçivəsində öz sürətli sosial-iqtisadi inkişafını və bu inkişafın təhlükəsizliyini təmin edə biləcəkdir.



# Pandemiyanın ölkənin bank sektoruna təsiri

*i.e.d., prof. Məmmədov Zahid*

*“Böhran dövründə bank sektorunun fəaliyyəti xüsusi önəm daşıyır. Ona görə bankların sağlamlaşdırılması və bank sektorunun ölkə iqtisadiyyatına verə biləcəyi töhfənin düzgün qiymətləndirilməsi çox vacibdir”.*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində keçirilən müşavirədə çıxışı***



Toplu olaraq epidemiya 200-dən çox ölkəni əhatə etdi (25 may tarixinə 5,495 milyon bildirilən hadisə və 346 min ölüm). Pandemiya fonunda qlobal iqtisadiyyat tənəzzül vəziyyətinə girdi. COVİD-19 sıra ölkələrin, bankların və şirkətlərin maliyyə dayanıqlığına müflisləşməsi, kütləvi işsizliyə, dünya iqtisadiyyatının durğunluq dövrünü yaşamasına və nəticə etibarı ilə qlobal iqtisadiyyatın tənəzül dövrünə keçməsinə səbəb olmuşdur.

Böhranın qarşısını almaq və onun təsirini minimallaşdırmaq üçün antiböhran tədbirləri görülür, dünyanın aparıcı dövlətləri tərəfindən istehsalı bərpa etmək və bankları risklərdən qorumaq üçün maliyyə yardımları göstərilir.

Pandemiyanın ölkənin bank sektoruna təsirinin üç ötürmə kanalı var: tədiyyə balansı kanalı, gəlir kanalı və kredit kanalı.

Neftin və digər əmtəə ixracatının qiymətlərindəki enmə tədiyyə balansı kanalı ilə valyuta bazarına təsir göstərir. Kredit risklərinin reallaşması fonunda bankların maliyyə vəziyyəti pisləşə bilər, bu isə bankları borc verməyi məhdudlaşdırmağa məcbur edəcək və kredit kanalı vasitəsilə iqtisadiyyata mənfi təsir göstərə bilər. İqtisadi subyektlərin gəlirlərinin azalmasının nəticəsi kredit riskinin artması, maliyyə xidmətlərinə tələbin azalması və maliyyə sektorunun gəlirlərinin azalması olacaqdır.

Koronavirus pandemiyasının mənfi təsiri üçün əlavə kanal maliyyə sektorunda, ilk növbədə kreditləşmə sahəsində fəaliyyət potensialının azalması ola bilərdi. İqtisadi subyektlərin gəlirlərinin azalması onların kredit qabiliyyətini azaldır və bu da bankların iqtisadiyyata borc verməyə davam etmək istəklərini məhdudlaşdıra bilər.

Koronavirus pandemiyasının kredit kanalı üzərindəki təsiri aşağıdakı risklərin həyata keçirilməsinə görə baş verə bilər:

- potensial borcalanların gəlirlərindəki azalma;

- kreditlərə xidmət imkanlarının daralması səbəbindən öz kredit iştahlarını məhdudlaşdırır;

- eyni  zamanda gələcəkdə vətəndaşların və şirkətlərin gəlirlərinin bərpası ilə bağlı ciddi bir qeyri-müəyyənlik mövcuddur;

- borcalanların kredit keyfiyyətinin pisləşməsi və kredit riskinin artması ola bilər;

- yeni kreditlərə olan tələbi məhdudlaşdıran kreditlər üzrə faiz dərəcələrinin artmasına səbəb olur;

• banklar kredit məhsulları limitlərini aşağı salmaq da daxil olmaqla kredit standartlarını sərtləşdirə bilərlər;

• Maliyyə vəziyyətinin pisləşməsi fonunda bəzi banklar kreditləşməni artırmaq üçün kapital çatışmazlığı ilə üzləşə bilər.

Pandemiya Azərbaycana digər ölkələrə nisbətən daha gec gəldi, lakin enerji daşıyıcılarının ucuzlaşması hadisəsi müşahidə olunmağa başladı. Azərbaycanda makroiqtisadi sabitliyin qorunub saxlanılmasında qazanılan uğurlar və qlobal risklərin qarşısının alınması üçün qəbul edilən qərarlar Azərbaycan bazarı üçün qlobal dəyişkənliyin artması risklərini məhdudlaşdırdı.

Prezident İlham Əliyevin koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında Sərəncamına əsasən, dörd İşçi Qrup yaradıldı.

Mərkəzi Bankın sədrinin rəhbərliyi ilə fəaliyyət göstərən İşçi Qrupuna pandemiyanın Azərbaycanın bank sektoruna və makroiqtisadi mühitinə ehtimal olunan mənfi təsirlərinin qiymətləndirilməsinin həyata keçirilməsi, Azərbaycan manatının məzənnəsinin və istehlak qiymətlərinin sabitliyinin dəstəklənməsi, ölkədə makroiqtisadi sabitliyin qorunub saxlanması üçün həyata keçirilməli əlavə tədbirlərə dair təkliflər hazırlayıb Nazirlər Kabinetinə təqdim etmək tapşırıldı.

Mərkəzi Bankın sədrinin rəhbərliyi ilə yaradılan İşçi Qrupa pandemiyanın Azərbaycanın bank sektoruna və makroiqtisadi mühitinə ehtimal olunan mənfi təsirlərinin qiymətləndirilməsinin həyata keçirilməsi tapşırıldı, o cümlədən:

1. Azərbaycan manatının məzənnəsinin sabitliyinin dəstəklənməsi;

2. istehlak qiymətlərinin sabitliyinin dəstəklənməsi;

3. ölkədə makroiqtisadi sabitliyin qorunub saxlanması.

Hazırda Azərbaycanda həm sosial siyasət, həm də büdcə, pul siyasəti başlıca olaraq pandemiyadan zərər çəkmiş əhalinin, biznes gəlirlərinin neytrallaşmasına yönəldilib.

“Karantin rejimi müddətində pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarların öhdəliklərinin tənzimlənməsi məqsədilə kredit təşkilatlarına requlyativ tətilin verilməsi” tədbirinin icrası çərçivəsində Azərbaycan Mərkəzi Bankı Maliyyə Sabitliyi Şurasının tövsiyələrini nəzərə almaqla müvafiq qərar qəbul edildi. Bu qərar Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamında nəzərdə tutulan müvafiq tədbirlərlə sinxronlaşdırılmaqla bərabər, eyni zamanda daha geniş istiqamətləri, o cümlədən fiziki şəxslərin Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaitləri hesabına verilmiş ipoteka kreditlərinin restrukturizasiyasını, dövlət fondlarının vəsaitləri hesabına verilmiş biznes təyinatlı kreditlərin restrukturizasiyasını, eləcə də sığorta və kapital bazarı iştirakçılarının dəstəklənməsini əhatə edən məsələləri də nəzərdə tuturdu. Bütövlükdə nəzərdə tutulan tədbirlər pandemiya şəraitində biznesə və əhaliyə göstərilən maliyyə xidmətlərinin fasiləsizliyinin təmin olunmasına, iqtisadiyyatın kreditləşməsinin davam etdirilməsinə, maliyyə xidmətlərinin istehlakçılarının hüquqlarının qorunmasına şərait yaratdı.

"S&P Global Ratings" (S&P) beynəlxalq reytinq agentliyi Azərbaycanın bank sektorunun sahə və ölkə risklərini təhlil edərkən bir sıra müsbət və mənfi məqamları ortaya qoyub. Müsbət məqamlar kimi dövlətin xarici aktivlərinin böyük həcmli və borcunun nisbətən aşağı olması, beynəlxalq səviyyədə özəl sektorun borc yükünün orta səviyyəsi və xalis xarici öhdəliklərin mövcud olmaması qeyd olunub. Təhlil hesabatında bildirilib ki, bank sisteminin əsas müştərilərin baza depozitlərinin nisbətən yüksək səviyyəsi ilə fərqləndiyinə və xarici maliyyələşdirilmə mənbələrindən əhəmiyyətli dərəcədə asılı olmamasına baxmayaraq, 2015-ci ildə manatın kəskin devalvasiyası xarici valyutada maliyyələşdirilmə payının bank müştərilərinin vəsaitlərinin 60%-ni üstələməsinə görə bankların valyuta aktivlərinin və öhdəliklərinin həcminin uzunmüddətli qeyri-balansızlığa gətirib çıxarıb.

Hesabatda Azərbaycanda bank sektorunun zəif tərəfləri kimi aşağıdakılar qeyd olunub:

- aşağı neft qiymətləri;

- COVID-19 pandemiyası fonunda iqtisadi risklərin artması;

- yerli valyutanın ucuzlaşmasından sonra müştəri depozitlərinin yüksək dollarizasiya;

- Bank sektorundakı valyuta və kredit risklərini artması.

Hökumət və Mərkəzi Bank tərəfindən atılan addımların əsas hədəfi bütövlükdə bank sisteminin sağlamlaşdırılması və əhalinin maraqlarının, xüsusilə onların banklarda olan əmanətlərinin qorunması və itirilməsi təhlükəsinin qarşısının alınması, onlardan sərbəst istifadə etmək imkanlarının yaradılmasıdır.

Aprel 2020-ci il tarixində Mərkəzi Bankın qərarı ilə 4 bankın, o cümlədən

"Atabank", "Amrahbank", "AG-Bank" və "NBCbank"ın lisenziyaları geri alındı. Lisenziyası geri alınmış 4 bankda əhalinin qorunan əmanətlərinin ümumi məbləği 686 milyon manat təşkil etməklə, ümumilikdə 215 min əmanətçini əhatə edir. Bu banklarda ümumi əmanət portfelinin 99%-dən çoxu qorunan əmanətlərdir və onlar tam kompensasiya edilir. Bu bankların məcmu kapitalları müəyyən edilmiş tələbdən (50 milyon manat) aşağı idi. Hazırda hər dörd bank üzrə əmanətlər "Kapital Bank" və "Beynəlxalq Bank" vasitəsilə qaytarılır. Artıq 13 min 500 nəfər əmanətçiyə 245 milyon manatdan çox vəsait qaytarılmışdır.

Azərbaycanda bankların bağlanmasının pandemiya ilə demək olar ki, heç bir əlaqəsi yoxdur.

Bank sisteminin maliyyə sabitliyini qorumaq üçün hələ böhranın təsirləri hiss olunmamışdan öncə bir sıra qabaqlayıcı immunizasiya tədbirləri görülmüşdü. Yəni belə demək mümkündürsə, iqtisadi və kredit bumu dövründə kontrtsiklik prudensial tənzimləmə tədbirləri görülmüşdür. Belə ki, bank aktivlərinin yüksək templərlə artdığı bum illərində Mərkəzi Bank aktiv dialoq şəraitində bankları:

1) ehtiyatlı kredit siyasətinə dəvət etmiş;

2) kapitallaşma və ehtiyatlanma səviyyəsinin artırılmasını təmin etmiş;

3) prudensial tənzimləmə normativlərini sərtləşdirmiş;

4) xarici borclar üzrə məcburi ehtiyatlar tətbiq etmişdir.

İlin ilk 7 ayının nəticələrinə əsasən, maliyyə inklüzivliyi parametrlərindən müştərilərin bank hesablarının sayı Azərbaycanın bankçılıq tarixində ilk dəfə olaraq, 20 milyonu ötüb, bank müştərilərinin sayı isə 8,547,197 nəfərə çatıb. Bu göstəricilərin qeydə alınmasına həm də antipandemiya tədbirləri çərçivəsində ödənilən müavinətlərin bank kartları vasitəsilə verilməsinin də təsiri olduğunu qeyd edə bilərik. İlin ilk 7 ayının göstəricilərinə əsasən, bankların kredit portfelinin həcmi 14 milyard 585 milyon manat ətrafında sabitləşmişdir. İlin əvvəli ilə müqayisədə ümumi kredit portfellərinin həcmindəki azalma isə lisenziyası geri çağırılan banklarla əlaqədar olub. Eyni zamanda maliyyə bazarlarında sanasiya tədbirlərinin nəticəsi olaraq kredit portfellərinin keyfiyyət əmsallarında müsbət siqnallar qeydə alınmışdır.

Real sektorun maliyyə imkanlarına çıxışını genişləndirmək üçün Avropa Yenidənqurma və İnkişaf Bankı ilə 200 milyon dollar həcmində çərçivə sazişi bağlanılıb. Birinci tranş 50 milyon dollardan artıq reallaşmasına başlanıb. Bu kreditlər real sektorda olan müəssisələrə yönəldilməyə başlanmışdır.

Eyni zamanda pandemiyanın yaratdığı yeni paradiqmalar bütün dünya ölkələri üçün rəqəmsal transformasiya istiqamətində daha sürətlə irəliləyən, əsaslı baza bank xidmətlərinə malik, dəyişikliklərə çevik adaptasiya oluna bilən, proqressiv inkişaf texnologiyalarını ölkəyə transfer edə biləcək bank sistemi dizayn etməyin nə qədər kritik əhəmiyyətə malik olduğunu göstərdi.

Qlobal risklərin milli iqtisadiyyatın qeyri-neft sektoruna, məşğulluq və gəlir səviyyəsinə mənfi təsirlərini qabaqlayıcı rejimdə məhdudlaşdıran çevik makroiqtisadi tənzimləmənin həyata keçirilməsi vacib şərtdir. Bu baxımdan, 2021-ci ildə ölkə iqtisadiyyatının inkişafının davam etməsi və maliyyə dayanıqlığının təmin olunması üçün makroiqtisadi siyasətin bütün istiqamətlərinin daha güclü konsolidasiyası və koordinasiyası zəruridir.

Beləliklə, koronavirus infeksiyasının qlobal yayılması həm xarici iqtisadi şərtlərin pisləşməsi ilə, həm də istehsal məhdudiyyətləri daxil olmaqla məhdudlaşdırıcı tədbirlərin həyata keçirilməsi nəticəsində Azərbaycan iqtisadiyyatı və maliyyə sektoruna əhəmiyyətli dərəcədə təsirini azalda bildi.

## *Azərbaycanın bank sistemi haqqında arayış*

***Azərbaycanın bank sistemi*** *— "Banklar haqqında" qanunla tənzimlənir. Qanunvericiliyə əsasən, ölkənin bank sistemi ikipilləlidir – Azərbaycan Respublikasının Mərkəzi Bankından və kredit təşkilatlarından ibarətdir. Hal-hazırda Azərbaycanda bankların sayı 26, o cümlədən onlardan biri dövlət sərmayəli bank, digərləri isə özəl banklardır. Hazırda ölkədə ən geniş filial şəbəkəsi iki banka - Azərbaycan Beynəlxalq Bankı (ABB) və «Kapitalbank»a məxsusdur. 01.09.2020-ci il tarixinə bank sektorunun kredit qoyuluşları 14304,2 mln. AZN, əhalinin əmanətləri 7874,4 (mln. AZN) təşkil edir. 18.09.2020 tarixindən etibarən faiz dəhlizinin aşağı həddi 6%, yuxarı həddi 7% və uçot faiz dərəcəsi - 6.5%. 2020-ci il iyulun 1-nə 1 milyard 65,5 milyon manatlıq ödənişi gecikdirilmiş kredit qeydə alınıb. Bank sistemində təmərküzləşmə (konsentrasiya) səviyyəsi 60 % təşkil edir. Bank sistemində yeganə dövlət bankı olan Azərbaycan Beynəlxalq Bankıdır.*



# Pandemiya nəticəsində ən çox itki verən ölkələr

*müəllim, Əlizadə Təhmasib*

COVID-19 pandemiyası artıq 1 ilə yaxındır ki, qlobal gündəmin əsas mövzularındandır. Pandemiyanın fərqli sahələrə mənfi təsirlərini görürük. Əsas təsirlər təbii ki, səhiyyə və iqtisadiyyat üzərində formalaşıb. Həm milli iqtisadiyyatlar, həm də qlobal iqtisadiyyat bütünlükdə bir böhran yaşayır. Böhranın dərin olmasının əsas səbəbi pandemiyanın həm təklifə, həm də tələbə ciddi mənfi təsir göstərməsidir. Çünki bu prosesdə qlobal istehsal zənciri zərər görüb ki, bu da toplam təklifdə problemlər yaradır. Gəlirlərin aşağı enməsi isə tələbdə ciddi problemlər ortaya çıxarıb. Belə bir vəziyyətdə milli iqtisadiyyatların güclü qala bilməsi üçün makroiqtisadi siyasətlərin qarşısında təklifi və tələbi dirçəltmək kimi öhdəliklər yaranır. İnkişaf etmiş, inkişaf etməkdə olan və geri qalmış ölkələrdə öz iqtisadi inkişaf səviyyələrinə uyğun olaraq pandemiyanın fərqli səviyyədə təsirlərini görürük.

Pandemiyanın ölkələr üzərində yaratdığı iqtisadi itkiləri doğru dəyərləndirə bilmək üçün iqtisadi artım göstəricilərinə, işsizlik dərəcələrinə və başqa əsas makroiqtisadi göstəricilərə baxmaq lazımdır. Bu göstəriciləri həm ayrı-ayrılıqda milli dövlətlərin statistikalarında, həm də qlobal təşkilatların hesabatlarında görmək olar. Beynəlxalq Valyuta Fondu (BVF), Dünya Bankı (DB), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT-OECD) və digər qurumlar pandemiya dövründə müxtəlif hesabatlar, dəyərləndirmələr, siyasət həll yolları təqdim ediblər. Bununla yanaşı, müstəqil təhlil şirkətləri də ölkələrin iqtisadi itkilərini tədqiq edən araşdırmaları beynəlxalq ictimaiyyətlə bölüşüblər.

Bu dəyərləndirmələrdən birinə diqqət çəkə bilərik. Beynəlxalq Valyuta Fondunun (BVF) pandemiya dövründə təqdim etdiyi hesabatlara əsasən, ölkələr və regionlar üzrə iqtisadi artımın vəziyyəti təhlil edilir. Aprel və iyun aylarında iki dəfə təqdim edilən təhlillər pandemiyanın təsirlərinə uyğun olaraq az da olsa bir-birindən fərqlənir. İyun ayında təqdim edilən hesabat COVID-19 pandemiyası səbəbilə ortaya çıxan iqtisadi böhranın digərlərindən fərqləndiyini, əsas xüsusiyyətinin




isə bərpa prosesinin qeyri-müəyyən olmasını qeyd edir. Düşünürəm ki, bunu ayrı-ayrı ölkələrin vəziyyətlərində görmək mümkündür. Hesabata əsasən 2020-ci ildə qlobal iqtisadi artım dərəcəsi -4,9 % bəndində gözlənilir. Bu proqnozlara görə, pandemiya səbəbilə 2020-ci ildə iqtisadi artımda ən ciddi geriləmə müşahidə ediləcək region və ölkələr əsasən inkişaf etmiş ölkələrdir. Məsələn, ABŞ, Avrozona ölkələri, Yaponiya, Birləşmiş Krallıq və digər inkişaf etmiş ölkələr ciddi iqtisadi geriləmə ilə üzləşir. Xüsusilə də Avrozona ölkələrinin pandemiyadan öncə də iqtisadi artım problemi yaşadığını nəzərə alsaq, bu proqnozların 2020-ci ilin sonunda doğru çıxmasının ehtimalı yüksəkdir. 2020-ci ilin geridə qalan 3 rübündə artıq bunu müşahidə edirik. Digər regionalara və ölkələrə baxdığımız zaman yüksələn və inkişaf etməkdə olan iqtisadiyyatların da pandemiyadan mənfi təsirləndiyini görə bilərik. COVID-19 pandemiyasının əsas mənbəyi sayılan Çinlə bağlı vəziyyət isə fərqlidir. Belə ki, BVF-in ilk aprel hesabatında 2020-ci il üzrə Çin mənfi iqtisadi artım gözləntisinə sahib idisə, artıq ikinci, iyun hesabatında bu gözlənti  müsbət 1 %-dir. Deməklar olar ki, Çin 2020-ci ildə müsbət iqtisadi artım gözləntisinə sahib tək ölkədir. Təbii ki, gerçək rəqəmlərin vəziyyətdən asılı olaraq bu rəqəmlərdən fərqli olması mümkündür.

**Pandemiya həm istehsal zəncirində, həm də istehlakda problemlər yaratdığı üçün bu ölkələrin ciddi itkilərlə üzləşməsinə səbəb olub.**

**Cədvəl. Real ÜDM, illik artım tempi, faizlə (2019-2021)**

| Region/ölkə | 2019 | 2020* | 2021** |
|---|---|---|---|
| Dünya üzrə | 2.9 | -4.9 | 5.4 |
| İnkişaf etmiş ölkələr | 1.7 | -8.0 | 4.8 |
| ABŞ | 2.3 | -8.0 | 4.5 |
| Avrozona | 1.3 | -10.2 | 6.0 |
| Almaniya | 0.6 | -7.8 | 5.4 |
| Fransa | 1.5 | -12.5 | 7.3 |
| İtaliya | 0.3 | -12.8 | 6.3 |
| İspaniya | 2.0 | -12.8 | 6.3 |
| Yapoiniya | 0.7 | -5.8 | 2.4 |
| Birləşmiş Krallıq | 1.4 | -10.2 | 6.3 |
| Kanada | 1.7 | -8.4 | 4.9 |
| Digər inkişaf etmiş iqtisadiyyatlar | 1.7 | -4.8 | 4.2 |
| Yüksələn və inkişaf etməkdə olan iqtisadiyyatlar | 3.7 | -3.0 | 5.9 |
| Yüksələn və inkişaf etməkdə olan Asiya | 5.5 | -0.8 | 7.4 |
| Çin | 6.1 | 1.0 | 8.2 |
| Hindistan | 4.2 | -4.5 | 6.0 |

**Mənbə:** Beynəlxalq Valyuta Fondu (BVF)

*Qeyd edilən rəqəmlər BVF-in gözləntilərinə əsasən təqdim edilir.

**Qeyd edilən rəqəmlər BVF-in gözləntilərinə əsasən təqdim edilir.

İnkişaf etmiş ölkələrin və yüksələn iqtisadiyyatların COVID-19 pandemiyasından bu qədər ciddi təsirlənməsi həm də onunla bağlıdır ki, bu ölkələr normal zamanlarda qlobal ticarətin, qlobal dəyər zəncirinin aktiv iştirakçılarıdır. Pandemiya həm istehsal zəncirində, həm də istehlakda problemlər yaratdığı üçün bu ölkələrin ciddi itkilərlə üzləşməsinə səbəb olub. Məsələn, ABŞ

**Əksər ölkələr həm monetar, həm də fiskal siyasət alətlərindən istifadə edərək pandemiyanın iqtisadi zərərlərini azaltmağa, müəyyən dərəcədə ortadan qaldırmağa çalışıblar.**

pandemiya səbəbilə işsizlik göstəricilərində tarixi yüksək hədləri görüb. 2020-ci ilin aprel ayında ABŞ-da işsizlik dərəcəsi 14,7%, oktyabr ayında isə 6,9% bəndində qərarlaşıb. Bu, ABŞ üçün ciddi mənfi nəticədir, çünki ölkə pandemiyadan öncə işsizlik göstəricilərində müsbət bir dinamika əldə etmişdi və yaxşılaşma müşahidə edilirdi. Prosesin əvvəllərində, aprel ayında belə yüksək göstəricilərin olması anlaşılan idi. Çünki həm iqtisadiyyatda, həm də səhiyyədə "əkiz şok" effektinin yaşanması əmək bazarlarına ciddi mənfi təsir göstərdi. Zamanla isə ölkələr bu prosesə uyğunlaşdığı və siyasət həll alətlərindən istifadə etdikləri üçün vəziyyət əvvəlki dövrə nisbətən yaxşılaşdı və sabitləşdi. Eynisini digər inkişaf etmiş ölkələrdə və inkişaf etməkdə olan ölkələrdə də görmək mümkündür. Xüsusilə də gənclər arasında işsizliyin yüksəlməsi ölkələr üçün pandemiyanın yaratdığı ən ciddi zərərlər sırasındadır.

COVID-19 pandemiyasının ölkə iqtisadiyyatları üzərində formalaşdırdığı mənfi nəticələri ortaya çıxaran digər göstəricilər fərqli ölkələrdə təşkil edilmiş rəy sorğularıdır. Pew Research Center tərəfindən təşkil edilən sorğunun nəticələrinə əsasən, inkişaf etmiş ölkələrin çoxunda respondentlərin əksəriyyəti iqtisadiyyatın pandemiya dövründə yaxşı çalışmadığını düşünür. ABŞ-da 69%, İtaliyada 90%, Fransada 81%, Birləşmiş Krallıqda 79%, İspaniyada 84%, Yaponiyada 85%, Cənubi Koreyada 83% respondent iqtisadiyyatın pandemiya dövründə zəif inkişaf etdiyini düşünür. Bir neçə inkişaf etmiş ölkələrdə vəziyyət nisbətən fərqlidir. Məsələn, Almaniyada 51%, Niderlandda 61%, İsveçdə 68%, Danimarkada 74% respondent iqtisadiyyatın pandemiya zamanı yaxşı işlədiyini düşünür. Belə rəy sorğuları COVID-19 pandemiyasının cəmiyyətin fərqli tərəflərinə olan iqtisadi təsirlərinin ölçülməsi üçün alternativ dəyərləndirmə kimi qəbul edilir.

Həm BVF və digər qlobal təşkilatların hesabatlarında təqdim edilən rəqəmlərə baxdıqda, həm də müxtəlif mərkəzlərin apardığı sorğuların nəticələrinə nəzər yetirdikdə COVID-19 pandemiyasının iqtisadiyyatlar üzərində ciddi təzyiq və mənfi təsirlər formalaşdırdığını müşahidə edirik. Fərqli inkişafa sahib ölkələr həm pandemiyanın birbaşa təklif və tələbdə yaratdığı itkilər, həm də bir neçə aydır davam edən qeyri-müəyyənliklər səbəbindən iqtisadi zərərlərlə üzləşirlər. Eləcə də Azərbaycan inkişaf etməkdə olan ölkə kimi COVID-19 pandemiyasının mənfi təsirləri ilə üzləşib. Bu dövr ərzində, demək olar ki, əksər ölkələr həm monetar, həm də fiskal siyasət alətlərindən istifadə edərək pandemiyanın iqtisadi zərərlərini azaltmağa, müəyyən dərəcədə ortadan qaldırmağa çalışıblar. Tam uğurlu olduqlarını söyləmək çətindir. Bunun əsas səbəbləri odur ki, həm eyni anda təklifdə və tələbdə yaranan problemlər bu böhranı xüsusiləşdirir, həm də səhiyyə və iqtisadiyyatda eyni anda yaranan "əkiz şok" effekti önə çıxır.

# COVİD-19-dan sonra: proteksionizm, ya azad ticarət?

i.e.d., prof. Quliyev Müşfiq



COVİD-19 pandemiyasının sürətlə yayılması və yaranmış situasiyanın iqtisadi liberalizmə, qloballaşmaya, eləcə də ÜTT sisteminin perspektivlərinə təsiri barədə müzakirələr aktiv şəkildə genişlənməkdədir. Beynəlxalq ticarət sistemində son dövrlərdə baş verən bir sıra proseslərə nəzər saldıqda burada mühüm aktuallıq kəsb edən problemləri qeyd etmək olar: Ticarət mübahisələrinin həlli üzrə ÜTT sisteminin fəaliyyətinin vəziyyəti; ABŞ, Avropa İttifaqı və ÇXR arasında davam edən ticarət konfliktləri; bütün bunların ardınca COVİD-19 situasiyasının ticarət münasibətlərinə beynəlxalq miqyasda təsiri nəticəsində yaranan problemlər.

Müasir mərhələdə iqtisadi liberalizmin nailiyyətləri və inkişafı proteksionizmin yeni dalğasının maneələri ilə müşayiət olunur. Beynəlxalq ticarət sistemində proteksionist tədbirlərin tətbiqi xeyli genişlənməkdədir. ÜTT məlumatlarına görə, təkcə 2019-cu ildə tariflər və rüsumlar əsasında üzv dövlətlər bir-biriləri ilə ticarətdə 137 müxtəlif məhdudlaşdırıcı ticarət tədbirləri tətbiq etmişlər (bu məhdudiyyətlərin ümumi həcmi 588 mlrd. dollar təşkil etmişdir, əvvəlki illə müqayisədə isə bu göstərici 7 dəfə çoxdur). ÜTT Baş direktoru R.Azevedo (2018) qeyd edirdi ki, tezləşməkdə davam edən ticarət məhdudiyyətlərinin yaxın gələcəkdə dünya ticarətinin "yeni normasına" çevrilmə təhlükəsi var. Proteksionizmin genişlənməsindən doğan qeyri-müəyyənliklər isə dünya iqtisadiyyatının bərpasını təhlükə altına almaqla yanaşı, həm də yeni iş yerlərinin yaradılması, məşğulluq və dünyada istehlak qiymətlərinin səviyyələrinin artması kimi problemlərə səbəb ola bilər. Əlbəttə, müqayisə baxımından qeyd etmək olar ki, dünyada ticarət proteksionizminə aid məsələlərin

hələ P.Lami dönəmində ÜTT hesabatlarında yer alması məlumdur. Sözügedən dövrdə qlobal ticarət müharibələrinə səbəb olmasa da, beynəlxalq ticarət sferasında ayrı-ayrı inkişaf etmiş ölkələr tərəfindən aparılan məhdudlaşdırıcı tədbirlər davamlı şəkildə genişlənmişdir.

Beynəlxalq ticarətdə proteksionizmin güclənməsi meyillərini nəzərdən keçirərkən aşağıdakı əsas məqamlar da diqqəti xüsusilə cəlb edir:

- proteksionizmin mövcud şəraitdə xüsusi çətinliyi onun qeyri-tipikliyindədir. Proteksionizmin həyata keçirilməsi getdikcə dolayı formalarda, məsələn, subsidiyalarda, alıcıları yerli məhsullara yönləndirən stimullarda, paketlərdə, dövlət alışlarında və s. ifadə olunur. Bu həm onun miqyasının, həm də ona qarşı mübarizə tədbirlərinin qiymətləndirilməsini bir qədər çətinləşdirir;

- hazırda proteksionizmin əsas iqtisadi alət arsenalı-valyuta məzənnələri, xarici investisiyaların dövlət tənzimlənməsi formaları, əmək bazarının mobilliyi və digər alətləri əhatə edir.

Qeyd etmək lazımdır ki, yeni proteksionizm əsasən inkişaf etmiş ölkə bazarlarında genişlənir və burada söhbət ÜTT öhdəliklərinə uyğun proporsional cavab tədbirlərindən gedir. Proteksionist siyasətin əhatə etdiyi malların siyahısının məhdud olmasına baxmayaraq, proses mürəkkəb sxemə və məcmu təsirə malik ola bilir. Məsələn, ABŞ bazarda dempinqi azaltmağa çalışaraq, Almaniyadan və Avropadan, Latın Amerikasından və Yaxın Şərqdəki 17 ölkədən gətirilən alüminium təbəqələrə bu yaxınlarda (2020-ci ilin oktyabrında) növbəti yeni rüsumları elan etdi. Hələ 2018-ci ildə Aİ, ABŞ-ın o dövrdə tətbiq etdiyi rüsumlara cavab olaraq Harley-Davidson motosikletləri, Levi Strauss geyimləri və viski daxil olmaqla bir sıra ABŞ məhsullarına 25 faiz idxal rüsumu tətbiq etmişdi. Ticarət tərəfdaşları koronavirus pandemiyası kontekstində haqsız rüsumların ləğvini gözləyirlər.

Pandemiya şəraitinin yaratdığı böhran və sənaye ölkələrinin proteksionist tədbirləri, xammal məhsullarının ixracına və hazır məhsulların idxalına əsaslanan qlobal iqtisadi əməkdaşlıq modeli Afrika regionu dövlətlərini ikiqat zərbəyə məruz qoydu: (i) dünyanın əksər hissəsindəki iqtisadi təcrid şəraiti xammal məhsullarının qiymətlərinin çox aşağı səviyyələrədək enməsinə səbəb oldu və bununla da təbii resurslara bağlı olan Afrika ölkələrinin valyuta gəlirlərində dramatik azalmalara səbəb oldu; və (ii) böyük sənaye gücünə və rəqabət qabiliyyətinə malik qabaqcıl ölkələrin zəruri tibbi ləvazimat və avadanlıqların ixracına məhdudiyyətlər tətbiq etməsi onsuz da valyuta gəliri mənbələrinin tükəndiyi bir vaxtda Afrika ölkələri üçün qaçılmaz nəticələrə - tədarükün azalmasına, qiymətlərdə sıçrayışa səbəb oldu.

Müasir mərhələdə qloballaşma institutları tərəfindən pandemiya şəraitinin azad ticarət prinsiplərinə mümkün təsirlərini nəzərə alan yeni çağırışlar edilir. Dünya Bankı uzunmüddətli dövrdə pandemiyanın, investisiyaların azalması da daxil olmaqla, ticarət siyasətinə müxtəlif kanallarla bir sıra ziyanlı təsirlərini qeyd edir: müəssisələrin bağlanması və iş yerlərinin itirilməsi səbəbindən fiziki kapitalın aşınması; mövcud qlobal ticarət və təchizat əlaqələrindən kənarlaşmalar və s. Koronavirusun yayılması və bir çox region və əyalətlərin COVID-19 səbəbi ilə sərhədlərini bağlaması nəticədə ticarət üçün məhdudiyyətlər gətirdi. Xüsusilə, tranzit ölkələrdə iqtisadi vəziyyət xeyli çətinləşdi, kiçik müəssisələr və işçilər üçün nəticələr daha ağır oldu. Postpandemiya dövrünün tələbləri istehsalda potensial geriliyə, iqtisadiyyatda məşğulluq şəraitinə, əmək məhsuldarlığının azalması kimi problemlərini həllinə diqqət yetirilməsini və azad ticarət siyasətindən kənarlaşmaların

**Koronavirusun yayılması və bir çox region və əyalətlərin COVID-19 səbəbi ilə sərhədlərini bağlaması nəticədə ticarət üçün məhdudiyyətlər gətirdi.**

önlənilməsini xüsusilə zəruri edir.

İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatı (OECD) postpandemiya dövründə azad ticarət siyasətinin qlobal əhəmiyyətini xüsusilə nəzərə alaraq qeyd edir ki, "açıq bazarlar vasitəsilə qlobal tələbə çıxış və davamlı ticarət, iqtisadi canlanmanı dəstəkləmək və davam etdirmək üçün vacib olacaqdır".

**COVID-19 Azad Ticarət Bölgəsinin sonu ola bilərmi?**

Müasir dünya iqtisadiyyatında bütün region dövlətləri, ABŞ, Avropa İttifaqı və Çin şirkətlərinin üstünlüyü ilə formalaşan qlobal təchizat və satış zəncirlərinin fəaliyyətindən və buradan əldə olunan idxalatdan çox asılı olmuşdur. Qlobal təchizat zənciri pandemiya ilə pozulduğundan və bazarların, xüsusən tibbi qoruyucu vasitələr sahəsində tam təmin oluna bilməməsindən, Afrika və eləcə də digər region dövlətləri özlərinə necə kömək edəcəklərini düşünməkdədirlər. Bu baxımdan, pandemiya hətta idxal əvəzləyici layihələrin sürət qazanmasına kömək edə bilər. Lakin bir sıra beynəlxalq tədqiqatçı mütəxəssislər bunun əksini də qəbul edirlər. "Lockdown" və sərhədlərin bağlanması səbəbindən dənizə birbaşa çıxışı olmayan və dünya ticarəti ilə əlaqələri praktiki olaraq kəsilən dövlətlər sərbəst ticarətə və "əməkdaşlıq ruhuna" hər zamankından daha çox ehtiyac duymağa başladılar.

Qeyd etmək lazımdır ki, bir sıra beynəlxalq tədqiqatçı mütəxəssislər pandemiyanın iddialı sərbəst ticarət layihələrinə təkan verməyə kömək edə bilməsini də istisna etmirlər. Misal üçün, Afrika Kontinental Sərbəst Ticarət Bölgəsi (African Continental Free Trade Area (AfCFTA)) razılaşması iştirakçı ölkələrin sayı baxımından dünyanın ən böyük sərbəst ticarət bölgəsini yarada bilər. Ticarət Paktı 55 ölkədəki 1,3 milyard insanı və 3,4 trilyon ABŞ dolları dəyərində ümumi daxili məhsulu (ÜDM) birləşdirir. Bu lahiyə 30 milyon insanı həddindən artıq yoxsulluqdan qurtarmaq potensialına malikdir, lakin potensialın tam şəkildə reallaşdırılması mühüm siyasi islahatların və ticarətin asanlaşdırılması tədbirlərinin həyata keçirilməsindən asılı olacaqdır. Dünya Bankının mütəxəssisi Caroline Freund sözügedən bu lahiyənin əhəmiyyəti ilə bağlı qeyd edir ki, "mallar və xidmətlər, iş və investisiyalar üçün vahid, qitə miqyaslı bir bazarın yaradılması Afrika iqtisadiyyatını yenidən formalaşdıracaqdır. AfCFTA-nın tətbiqi qlobal ticarət gündəmində Afrika üçün böyük bir addım olacaq". Ancaq zənnimizcə, Afrika Azad Ticarət Bölgəsi əvvəldən gözlənilən bir nəticə ola bilməz. Çünki korrupsiya və zəif infrastruktur əsas problem olaraq qalır. Sərbəst ticarət lahiyəsinin tam nəticə göstərməsi üçün Afrika dövlətləri, məsələn, nəqliyyat sahəsindəki ortaq standartları da razılaşdırmalıdırlar.

Dünya iqtisadiyyatında ölkələrin sərbəst ticarəti irəli aparmaqda maraqları aydındır. Azad ticarət gələcəkdə baş verə biləcək qeyri-müəyyən təsirlərə qarşı kifayət qədər möhkəmlik yaratmaq üçün vacibdir və pandemiya ilə mübarizə üçün həlledici amildir.

Beləliklə, mövcud pandemiya böhranı şəraitində azad ticarətin necə davam etdiriləcəyini və bunun qlobal iqtisadiyyatın bərpa olunmasına kömək edə biləcəyini düşünməyə ehtiyac var. Bu həm bu günün tələblərinə bağlı fəaliyyətlərin təmin edilməsi, həm də gələcəyə baxışı təmin edə biləcək qərarları formalaşdırmağı zəruri edir. Sağlamlığın və səhiyyə sektorunun gələcək danışıqlarda böyük rol oynayacağına dünyada əminlik isə birmənalı olaraq artır.

Mövcud pandemiya kontekstində azad ticarət sazişlərinin əhəmiyyətini və neo-proteksionist siyasət tədbirlərinin hüquqi çərçivəsinin təmin edilməsi bütün səviyyələrdə – inkişaf etmiş, inkişaf etməkdə olan dövlətlər və beynəlxalq iqtisadi təşkilatlar qarşısında yeni vəzifələri şərtləndirir.

# Beynəlxalq maliyyə bazarlarında nə baş verib?

*müəllim, Abbasov Əhliman*

COVID-19 pandemiyası qlobal iqtisadi fəaliyyətin kəskin şəkildə geriləməsinə səbəb olmuşdur. BVF-nin hesablamalarına əsasən, bu il qlobal iqtisadiyyat 4,4 faiz geriləyəcəkdir. Həm inkişaf etmiş ölkələr, həm də yüksələn bazar iqtisadiyyatları geriləmə ilə qarşılaşacaq, dünya ölkələrinin 85 faizində neqativ iqtisadi artım müşahidə olunacaqdır. Lakin mart ayından etibarən ümumi zəif iqtisadi göstəricilərə və qeyri-müəyyənliklərə baxmayaraq, səhm bazarlarında qiymətlər artmaqda olmuşdur. İqtisadi aktivliyin zəifləməsi və yüksək səviyyədə qeyri-müəyyənliklərin mövcud olmasına baxmayaraq, qlobal səhm bazarları mart ayındakı aşağı səviyyələrə çatdıqdan sonra yüksəlişdə olmuşdur. Lakin səhm bazarlarındakı bu yüksəliş ölkələr üzrə virusun yayılma miqyasından, dəstək tədbirlərinin həcmindən və sektorial kompozisiyasından asılı olaraq fərqli olmuşdur. Qeyd edək ki, səhm bazarlarındakı yüksəliş əsasən dövlətlər tərəfindən təqdim edilən dəstək tədbirlərinin hesabına baş vermişdir. Məsələn, ABŞ-da korporativ gəlirlərdə baş verən azalma səhm bazarının fəaliyyətinə mənfi təsir göstərsə də, Federal Ehtiyatların faizləri aşağı salması və digər siyasətləri bazarlarda aktivliyə müsbət səbəb olmuşdur. Korporativ gəlirlərin azalmasının səhm bazarları üzərindəki mənfi təsiri risksiz faiz səviyyəsinin və səhmlərin risk premiumunun azalması nəticəsində neytrallaşmışdır.

BVF-nin bu ilin oktyabrında təqdim etdiyi Qlobal Maliyyə Stabilliyi Hesabatında qeyd edilir ki, pandemiya dövründə səhmlərin qiymətlərinə sektorial şərtlər investor bazası və digər texniki amillər də təsir göstərmişdir.

**ABŞ-da səhm bazarının fəaliyyəti (Fevral 2020=100)**




Mənbə: GLOBAL FINANCIAL STABILITY OVERVIEW: Bridge to Recovery, 2020 Oktyabr

Məsələn, ABŞ səhm bazarının fəaliyyətinin genişlənməsində əsas amil S&P 500 indeksində mövcud olan texnoloji şirkətlərin pandemiya dövründə inkişaf etməsi olmuşdur. Pandemiyanın yeni texnologiyalara olan xərcləmələri artıracağı gözləntisi belə şirkətlərin səhmlərinin dəyərinə müsbət təsir göstərmişdir. 2020-ci ilin iyun ayından bəri 5 böyük texnoloji şirkət (Amazon, Apple, Facebook, Microsoft, Google) S&P 500 indeksinin digər bütün şirkətlərinin bütövlükdə göstəricisindən daha yaxşı göstərici qazanmışdır. Bununla yanaşı, bir sıra ölkələrdə daha çox texnoloji səhmələrə yatırım edən pərakəndə investorlar da son aylarda səhm bazarlarında öz fəaliyyətlərini genişləndirərək səhm qiymətlərinin yüksəlişinə töhfə vermişlər.

Son aylardakı zəif iqtisadi şərtlərin mövcudluğuna baxmayaraq, səhm bazarlarında qiymətlərin həddindən artıq yüksəlməsi müxtəlif fikirlər doğurmuşdur. BVF-nin araşdırmaçıları təqdim etdikləri model bir sıra ölkələrdə həddindən artıq qiymətləndirmənin tarixin ən yüksək səviyyəsində olmasını göstərmişdir. Dəstək siyasətlərinin təsiri ilə aktivlərin qiymətləndirilməsində baş verən bu yüksəliş gələcəkdə mümkün çöküşün ehtimallarını doğurmaqdadır. Sentyabr ayında texnoloji şirkətlərin səhmlərində baş verən ani eniş gözlənilən çöküşün nümunələrindən biri kimi göstərilir. Bazarda hazırkı qiymətləndirmə səviyyəsi dəstək siyasətlərinin davam edəcəyi və yaxud da genişləndiriləcəyi ilə bağlı gözləntilər mövcud olduğu müddətdə davam edə bilər. Bundan başqa, pandemiya ilə əlaqədar meydana çıxan qeyri-müəyyənliklərin səviyyəsində baş verən azalma da mövcud qiymətləndirmə tendensiyasının davam etməsinə səbəb ola bilər. Lakin iqtisadiyyatların bərpa prosesi yubanarsa və investorlarda dəstək siyasətlərinin əhatəsi və davamlılığı barədə tərəddüdlər formalaşarsa, aktivlərin qiymətində kəskin eniş və ya dövri olaraq artan volatillik müşahidə ediləcək.

BVF qeyd edir ki, COVİD-19 pandemiyası qlobal maliyyə sistemi üçün çox əhəmiyyətli bir test olacaqdır. Pandemiyadan qabaq maliyyə və qeyri-maliyyə şirkətlərində, dövlətlərin maliyyəsində baş verən problemlər pandemiyanın doğurduğu şərtlərlə daha da dərinləşmişdir. Pandemiyanın daha da ağırlaşması, yanlış siyasət seçimləri və yaxud da digər şoklar bu çətinlikləri daha da artıra bilər. Bu zaman artan iflaslar kredit risklərinin yenidən qiymətləndirilməsinə, bankların borcvermə kriteriyalarının sərtləşməsinə və maliyyə şərtlərinin yenidən kəskin sərtləşməsinə gətirib çıxara bilər. Doğrudur ölkələrin təqdim etdiyi genişmiqyaslı dəstək paketləri nəticəsində hələ ki geniş həcmli iflasların meydana çıxmasının qarşısı alınıb. Lakin nəzərə alınmalıdır ki, şirkətlər bu dövrdə maliyyə çatışmazlığını borclar vasitəsilə həll etmiş və iflas risklərini gələcəyə ötürmüşlər. Bununla yanaşı, pandemiyadan ciddi zərər görmüş sektorlardakı (məsələn, xidmət sektoru) kiçik və orta müəssisələrin kapital bazarlarına çıxışı iri şirkətlərlə müqayisədə daha da pisləşmişdir.

İflaslar nəticəsində meydana çıxacaq kredit itkiləri bankların kapital buferini tükədərək onların ev təsərrüfatları və şirkətlərə kreditlər təqdim etmək imkanını zəiflədə bilər. Baxmayaraq ki, qlobal bank sisteminin kapitallaşması hazırda qənaətbəxşdir, ancaq böhran dərinləşdiyi halda bir sıra bank sistemlərinin kapital çatışmazlığı ilə üzləşməsi istisna deyil. Qeyri-bank maliyyə sektorunda da meydana çıxan problemlər mart ayında bazar dislokasiyalarını dərinləşdirmişdir. Doğrudur, hələ ki, mərkəzi bankların dəstəyi qeyri-bank maliyyə sektoru ilə əlaqəli mənfi təsirlər müəyyən qədər məhdudlaşdırılmışdır. Lakin mərkəzi bankların şoklara cavab olaraq dəstək siyasətini genişləndirəcəyi ilə bağlı formalaşan gözləntilər bazar iştirakçılarını həddindən artıq risk götürməyə yönəldə bilər. Eyni zamanda qeyd etmək lazımdır ki, ölkələrin də özəl sektora dəstək paketləri təqdim etmək imkanları getdikcə azalmaqdadır. Bir sıra yüksələn iqtisadiyyatlarda xarici maliyyələşdirmə problemləri həmin ölkələrdə yaxın dövrlərdə borc porbleminə və maliyyə qeyri-stabilliyinə səbəb ola bilər.

**Pandemiyanın yeni texnologiyalara olan xərcləmələri artıracağı gözləntisi belə şirkətlərin səhmlərinin dəyərinə müsbət təsir göstərmişdir.**

BVF qeyd edir ki, COVİD-19 pandemiyası qlobal maliyyə sistemi üçün çox əhəmiyyətli bir test olacaqdır.

# Karantinin ölkə ixracatına təsiri

*Əməkdar elm xadimi, i.e.d. prof. A.Ş.Şəkərəliyev*

*Hal-hazırkı pandemiya dövründə ölkə iqtisadiyyatının şaxələndirilməsi, rəqabət qabiliyyətli məhsullar istehsalı və ixracın stimullaşdırılması, daxili tələbatın yerli istehsal hesabına təmin edilməsi istiqamətində kompleks işlər həyata keçirilir. Bu baxımdan, iqtisadiyyatın neftdən asıllığının azaldılması, qeyri-neft sektorunda davamlı inkişafı həyata keçirilən iqtisadi siyasətin mərkəzində durur.*

Məhz buna görə də hazırkı karantin rejimi şəraitində özəl sektorun rolu get-gedə artır. Belə ki, ölkədə iqtisadiyyatın inkişafını sahibkarlıq fəaliyyətinin inkişafından asılı olmasına önəm verilir.

Bu məqsədlə biznes və investisiya mühitinin davamlı sürətdə yaxşılaşdırılması, biznesə yeni dəstək mexanizmlərinin tətbiqi, sahibkarlığa dövlət dəstəyinin genişlənməsi, investisiya və ixracın təşviqi mexanizmlərinin tətbiqi, elektron xidmətlər şəbəkəsinin genişləndirilməsi, vergi, gömrük, sosial ödənişlər sisteminin təkmilləşdirilməsi özəl sektorun iqtisadiyyatdakı payını artırıb.




Pandemiyanın ilk günlərindən respublikamızda iqtisadiyyatın inkişaf etdirilməsi üçün qabaqlayıcı addımlar atıldı. Belə ki, 2020-ci ilin martın ortalarında Prezident İlham Əliyev əhalinin sağlamlığının qorunması və koronavirus infeksiyasına qarşı mübarizənin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında Fərman imzaladı. Bu Fərmana əsasən, Azərbaycanda

**Prezident İlham Əliyevin** uzaqgörənliklə Araz çayı üzərində Xudafərin və Qız qalası bəndləri və elektrik stansiyalarının inşası və istismarı haqqında İranla gəldiyi razılaşma bu gün öz sözünü deyir. "Xudafərin" hidroqovşağı Azərbaycana ildə 368 milyon kilovat/saat elektrik enerjisi istehsal etməyə imkan verəcək.

Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradıldı. Bu Fonda 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan ilkin olaraq 20 milyon manat ayırdı. Bundan başqa, cənab Prezident İlham Əliyev COVİD-19-un və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra sərəncamlar verdi. Dövlət iqtisadiyyatda baş verə biləcək neqativ meyilləri layiqli qarşılamaq üçün zəruri iqtisadi və maliyyə imkanlarına malik olduğunu sübut etdi. Belə ki, 2020-ci il ərzində dünyada sürətlə yayılan COVİD-19-un və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı tədbirlərin maliyyələşdirilməsi üçün 2020-ci il dövlət büdcəsindən Nazirlər Kabinetinə 1 milyard manat ayrıldı. Bu sərəncama əsasən, pandemiyanın iqtisadiyyatımıza təsirini qiymətləndirmək üçün İqtisadiyyat, Maliyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlərinin, həmçinin Mərkəzi Bankın sədrinin rəhbərlikləri ilə ayrı-ayrılıqda İşçi Qrupları fəaliyyət göstərir.

Hal-hazırda dünya ölkələrinə koronavirus (COVİD-19) pandemiyası öz təsirini göstərir. Dövlətlər arasında sərhədlər bağlanıb, gediş-gəliş minimuma endirilib, amma buna baxmayaraq, bu virus sərhəd tanımır və bütün ölkələrdə sürətlə yayılır.

Dünyada COVİD-19-a 134,5 milyondan artıq insan yoluxub. Belə ki, pandemiya dövründə virusdan 25,6 milyondan artıq insan sağalıb, 1 milyondan artıq insan isə vəfat edib. Pandemiya dünya iqtisadiyyatına olduqca böyük ziyan vurub. Dünya ölkələrinin iqtisadiyyatı böyük tənəzzüllə üz-üzə qalıb. Bir çox ölkələrin iqtisadi inkişafı geriləyib, işsizliyin sayı artıb.

Koronavirus infeksiyasının yayılması dünyanın çoxlu ölkələrində əhalinin sağlamlığı ilə bağlı risklər yaratdı, dünya iqtisadiyyatının geriləməsinə səbəb oldu. İqtisadiyyatın bütün sahələri üzrə öz təsirini göstərdi. Belə ki, ölkələr arasında əlaqələr məhdudlaşdı, turizm sektoru çökdü, dünya bazarında neft qiymətdən düşdü, istehsalın və istehlakın həcmi azaldı.

Bununla yanaşı, xaricdə işləyənlərdən gələn gəlirlər yoxdur. Büdcəyə gələn gəlirlər azalır, əhalinin və biznesi dəstəkləmək, dərman və xidmət xərcləri isə artır. Onu da göstərmək lazımdır ki, koronavirus pandemiyası insanların sağlamlığına təhlükə yaratmaqla yanaşı, tarixin ən böyük iqtisadi böhranı baş verməkdədir. Bu böhran turizm, nəqliyyat, kənd təsərrüfatı, geyim, avtomobil sənayəsi, xidmət sahəsi, enerji sektoru və digər bir çox sahəyə mənfi təsir edib. Artıq aviasiya şirkətləri, geyim istehsalçıları, enerji şirkətləri və xidmət sahələrində geriləmə var. Bu isə onların gəlirlərinin azalmasına səbəb olub. Virusun təhlükəsi nəzərə alınaraq Azərbaycanda da karantin rejimi tətbiq edilib. Görülmüş məqsədli tədbirərə baxmayaraq, virus respublika iqtisadiyyatına və insanların gündəlik həyatına da mənfi təsir göstərmişdir. Son dövrün məlumatına görə, 70 mindən çox insanın Azərbaycanda koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Səhiyyə işçilərinin səyləri nəticəsində onlardan 37827 nəfər müalicə olunaraq sağalıb, 590 nəfər isə vəfat edib, 1702 nəfər xüsusi rejimli xəstəxanalarda müalicə olunurlar (29.09.2020).

Pandemiya dünya ölkələrində bir çox problemlər meydana çıxartdı. Belə ki, səhiyyə xərclərinin artırılması, vergi və ixracdan gələn gəlirlərin azalması, kapital qoyuluşlarının kəskin azalması, borc bazarının iflic vəziyyətə düşməsinə səbəb oldu. Virusun yayılması inkişaf etmiş ölkələrə kapital axını, daha bahalı kreditlər, valyutanın dəyərsizləşməsi, əmtəələrin qiymətlərinin düşməsi, turistlərin olmaması səbəbindən ixracat qazancının itirilməsi şəklində özünü büruzə verdi.

*Pandemiya dünya ölkələrində bir çox problemlər meydana çıxartdı. Belə ki, səhiyyə xərclərinin artırılması, vergi və ixracdan gələn gəlirlərin azalması, kapital qoyuluşlarının kəskin azalması, borc bazarının iflic vəziyyətinə düşməsinə səbəb oldu.*

Qeyd etmək lazımdır ki, respublikamızda neft və qeyri-neft sektorunun inkişafı ölkənin iqtisadı potensialının gücləndirilməsi üçün mühüm amildir. Son dövrdə aparılan islahatlar, tətbiq edilən stimullaşdırıcı mexanizmlər iqtisadiyyatın davamlı inkişafına, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin və iş yerlərinin açılmasına əlavə imkanlar yaradıb. Azərbaycan iqtisadiyyatının strukturunda neft sektoru əsas rol oynayır. Bu sahəyə karantin rejimi o qədər də təsir etməmişdir.

Pandemiya şəraitində ölkədə tətbiq edilən mexanizmlərdən biri də ixracın təşviqi mexanizmidir. Belə ki, "Qeyri-neft ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 mart tarixli Fərmanına uyğun olaraq, ölkə ərazisində istehsal edilən və istehsal prosesində istifadə olunan yerli komponentlərin qeyri-neft məhsullarının dəyərindən, habelə ixrac olunan məhsulların növündən asılı olaraq qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına ixrac təşviqi ödənilir. İxrac təşviqi məhsulun ixrac gömrük bəyannaməsində göstərilmiş gömrük dəyərinin bir hissəsinin dövlət büdcəsinin vəsaiti hesabına ixracatçıya ödənilməsi mexanizmdir. İxac təşviqi geri qaytarılmaq öhdəliyi olmadan Azərbaycanın gömrük ərazisindən çıxarılmaqla faktiki ixrac edilən bir sıra qeyri-neft məhsullarına şamil olunur.

Təhlillər göstərir ki, respublikamızın məhsul ixrac etdiyi ölkələrdə tələbatların pandemiya ilə əlaqədar olaraq azalması müşahidə edilir. Belə ki, bu il dünyada koronavirus pandemiyasının yayılması xarici ölkələrlə əlaqələrin azalması müəyyən mənada ixraca öz mənfi təsirini göstərib. Belə bir vacib məsələni göstərmək lazımdır ki, pandemiyanın iqtisadiyyatın əsas sahəsi kimi kənd təsərrüfatı istehsalına müəyyən təsirləri var. Belə ki, ölkələr arasında ərzaq məhsullarının daşınması qadağan edilməyib, bu əlaqələr var. Amma mənfi təsirlər hələ də qalmaqdadır. Belə ki, bəzi ölkələrdə respublikamızın məhsul ixrac etdiyi ölkələrdə tələbatların pandemiya ilə əlaqədar olaraq azalması müşahidə edilir. Bununla bağlı olaraq bizim ixraca tələbat azalıb. Bu isə öz təsirini göstərir.

Azərbaycan Respublikasında karantin rejiminin tətbiq edilməsi nəticəsində bir sıra istehsal müəssisələri, fermer təsərrüfatı, nəqliyyat, turizm, ticarət müəssisələri öz işlərini müvəqqəti dayandırmalı oldular. Bu isə ölkə iqtisadiyyatına mənfi təsir etdi. Respublikada karantin rejimi şəraitində pandemiyanın təsirinin azaldılması və minimuma endirilməsi, sahibkarlara dövlət dəstəyini gücləndirmək məqsədi ilə bağlı bir sıra güzəştlər edilib.

Sərəncamın icrası ilə bağlı Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlıq Agentliyi tərəfindən 24017 vergi ödəyicisinə 205137 nəfər muzdlu işçinin əməkhaqqı üzrə 92,54 mln. manat, o cümlədən ikinci ay üzrə (50%) 44,68 mln. manat vəsaitin köçürülməsi təmin edilib. Fərdi (mikro) sahibkarlara maliyyə dəstəyinin göstərilməsi proqramı çərçivəsində 117031 vergi ödəyicisindən müraciət daxil olub, 109283 müraciət araşdırılraq təsdiq edilib və bank hesablarına köçürülməsi üçün Maliyyə Nazirliyinə təqdim edilib. Dövlət Xəzinədarlıq Agentliyi tərəfindən artıq 62,68 mln. manat vəsaitin 105052 fərdi (mikro) sahibkarın bank hesablarına köçürülməsi təmin edilib.

*Pandemiya şəraitində ölkədə tətbiq edilən mexanizmlərdən biri də ixracın təşviqi mexanizmidir.*

Nazirlər Kabinetinin müvafiq qərarı ilə ixrac təşviqinin ödənilməsi qaydası, baza məbləğinə tətbiq olunan əmsallar və ixrac təşviqi aid olan qeyri-neft məhsullarının siyahısı təsdiq edilib. Həmin siyahıya əsasən, quş yumurtası, təbii bal, qabığı təmizlənmiş, həmçinin emal

olunmuş fındıq, xurma, nar, zeytun yağı, unlu qənnadı məmulatları, qurudulmuş meyvələr, konservləşdirilmiş meyvə və tərəvəzlər, onlardan şirələr, alkoqollu və alkoqolsuz içkilər, təbii dəridən geyim əşyaları, ləvazimatları və digər hazır toxuculuq məmulatları ixrac təşviqi şamil olunan mallara aid edilir. İxrac təşviqinin baza məbləği ixrac olunmuş məhsulların dəyərinin 3 faizini təşkil edir və ona 1-2 arasında dəyişən əmsallar tətbiq edilməklə ödənilir. Yəni, ixrac olunmuş malın gömrük dəyərinin 3-6 faizi ixracatçıya ödənilir.

Respublikamızda ixrac təşviqi mexanizmindən 80 sahibkarlıq subyekti yararlanıb və dünyanın 20 ölkəsinə ixrac təşviqi şamil olunan Azərbaycanda istehsal edilən qeyri-neft məhsulları ixrac edilib. İxracına görə ixrac təşviqi ödənilmiş məhsullar arasında qabığı təmizlənmiş meşə fındığı, təzə xurma, nar, şərablar və digər spirtli içkilər, konserv məhsulları, şirələr, mürəbbələr, souslar, pambıq ipliyindən hazırlanan məmulatlar üstünlük təşkil edib. Belə ki, 2016-cı il martın 1-dən tətbiq edilən ixrac təşviqinin ödənilməsi mexanizmi çərçivəsində 2947 müraciət daxil olub, aparılan araşdırmalardan sonra 2883 müraciət müsbət qiymətləndirilib. Bu müddət ərzində 365 milyon dollar dəyərində ixrac olunmuş məhsullara görə sahibkarlıq subyektlərinə 23,2 milyon manatdan çox ixrac təşviqi ödənilib. İxrac təşviqi mexanizmindən yararlanan 145 sahibkar öz məhsullarını Almaniya, ABŞ, Böyük Britaniya, İsrail, İsveç, İtaliya, Kanada, Küveyt, Avstraliya, Belçika, Birləşmiş Ərəb Əmirlikləri, Koreya Respublikası, Belarus, Çexiya, Çin, Fransa, Yaponiya və digər ölkələrə ixrac ediblər. İxrac təşviqi mexanizmi iqtisadiyyatın diversifikasiyasının davam etdirilməsi, yaradılmış ixrac potensialından daha səmərəli istifadə olunması, ixracatçıların məhsullarını beynəlxalq bazarda daha rəqabətqabiliyyətli qiymətlərlə təklif etmək imkanı yaradır. Hal-hazırda ixrac təşviqinin ödənilməsi prosesinin elektronlaşdırılaraq müvafiq məlumat bazalarına inteqrasiya olunması hesabına ixracatçılar üçün daha sərfəli, həmçinin ödənilmiş vəsaitlərin səmərəli istifadəsinin təmin olunması baxımından daha səmərəli mexanizm kimi təkmilləşdirilməsi olduqca vacibdir.

Belə ki, ölkədə karantin rejiminin qüvvədə olması mövcud vəziyyətə uyğundur. Belə ki, məhdudlaşdırıcı tədbirlər vəziyyətə uyğun həyata keçirilir və bu gün karantin rejiminin qüvvədə qalması düzgün addımdır.

Dünya ölkələrinə diqqət yetirsək görərik ki, bəzi ölkələrdə karantin rejiminin yumşaldılmasından sonra yenidən sərt formaya keçmək məcburiyyətində qaldılar. Belə ki, bu ölkələrdən Böyük Britaniya, Avstraliya yenidən sərt karantin rejiminə qayıtmaq məcburiyyətində qaldı.

Təhlillər göstərir ki, mövcud vəziyyətin idarə edilməsi heç də bütün ölkələrdə uğurla nəticələnməyib.

Hal-hazırda respublikamızda vəziyyətin nəzarətdə saxlanması, əhalinin sağlamlığının qorunması istiqamətində atılan addımlar, mövcud nəzarət tədbirləri ən doğru addım hesab edilir.

Respublikamızda karantin rejiminin yumşalması, neftə olan tələbatın tədricən artması, istehsalın (nəticədə ixracın) azalması neft qiymətlərinin artımını şərtləndiricək.

Beləliklə, respublikamızda neftin qiymətinin artması əhalinin sağlamlığının qorunması və maddi rifahın yaxşılaşmasına səbəb olacaqdır.

*İxrac təşviqi mexanizmindən yararlanan 145 sahibkar öz məhsullarını Almaniya, ABŞ, Böyük Britaniya, İsrail, İsveç, İtaliya, Kanada, Küveyt, Avstraliya, Belçika, Birləşmiş Ərəb Əmirlikləri, Koreya Respublikası, Belarus, Çexiya, Çin, Fransa, Yaponiya və digər ölkələrə ixrac ediblər.*





# Pandemiya və neftin qiyməti

*i.e.n., dos. Qəribli Emin*

*2020-ci ilin əvvəlindən indiyədək dünya neft bazarı öz çətin dövrünü yaşayır. Koronavirus və onun yaratdığı qlobal iqtisadi böhran vəziyyəti daha da gərginləşdirdi. Belə ki, pandemiya nəticəsində qara qızıla olan tələbatın azalmasına hasilatın məhdudlaşdırılmasına dair OPEC+ razılaşmasının mart ayındakı uğursuzluğu da əlavə olundu. Nəticədə bütün dünya üzrə anbarlarda tələb olunmayan çoxlu miqdarda neft yığılıb qalmışdır. Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) himayəsi altında aprel ayının ortalarında imzalanan yeni razılaşma da dərhal öz nəticəsini vermədi.*

Belə ki, aprelin 20-də Londonun ICE birjasında kotirovkalar antirekordlar vururdu. Təxminən Bakı vaxtı ilə saat 11-də (London vaxtı ilə saat 8-də) XXI əsrdə ilk dəfə Amerikanın WTI (West Texas Intermediate) markalı neftinin bir barelinin qiyməti 15 dollardan aşağı düşdü. Lakin sonrakı hadisələr göstərdi ki, bu yalnız başlanğıc idi: növbəti saatlarda qiymət düşərək Bakı vaxtı ilə saat 20:11-də 10 dollar həddini keçdi. Təxminən iki saatdan sonra WTI-nin bir barelinin qiyməti artıq sıfırdan aşağı idi – bu, o deməkdir ki, satıcılar, sözün əsl mənasında, mala görə alıcılara əlavə ödəniş etməli idilər ki, bu da əvvəllər heç vaxt müşahidə olunmamışdır.

Yarım saat da keçdikdən sonra kotirovkalar bir barelə görə mənfi 6,89 dollara düşdü ki, bundan sonra birja qaydalarına uyğun olaraq London birjasında ticarət dayandırıldı. Lakin Nyu-York Ticarət Birjasında (NYMEX) əməliyyatlar davam edirdi və nəticədə qiymət bir barelə görə mənfi 40,32 dollara düşdü.

NYMEX rəhbərliyinin hərəkətləri də suallar doğurur. Hər bir birjanın qaydalarında qeyd edilmişdir ki, həddən artıq artım və ya azalma halında gərginliyi soyutmaq üçün ticarət dayandırılır. Baxmayaraq ki, hər iki meydança bir maliyyə qrupuna daxildir, Londonda sessiya vaxtından əvvəl başa çatdı, Nyu-Yorkda isə aydın olmayan səbəblərdən heç bir şeyə baxmayaraq sessiya davam edirdi.

Nə qədər paradoksal olsa da, neft şirkətləri kotirovkaların çöküşünü öz üzərlərində demək olar ki, hiss etmədilər. Çıxarılan xammalın böyük hissəsini onlar uzunmüddətli müqavilələr yolu ilə satır, qalanlarını isə indikinə bənzər vəziyyətlərə yol vermədən fyuçerslərin köməyi ilə əvvəlcədən realizə edirlər. Bütün itkiləri müqavilələrin tez bir zamanda yenidən satılmasında pul qazanmağa çalışan və gələcəkdə qiymətin artmasına ümid edən spekulyantlar öz üzərinə götürdülər. Ticarət başa çatmadan fyuçerslərdən qurtulmaq onlar üçün çox vacib idi, çünki əks halda neftin fiziki tədarüklərini qəbul etmək məcburiyyətində qalacaqdılar. Bunun qarşısını almaq üçün ticarətçilər elə birinci alıcıya daha da çox əlavə ödəniş etməyə (və qiymətləri daha da aşağı salmağa) hazır idilər, lakin anbarların demək olar ki, dolduğu bir vəziyyətdə heç kim yanacaq almağa hazır deyildi.

Gərginliyi azaldmaq məqsədi ilə OPEC+ ölkələri neft hasilatının azaldılması ilə bağlı




sazişi aprel ayının ortalarında imzaladılar. Mayın 1-dən kartel üzvləri 2018-ci ilin oktyabr ayı ilə müqayisədə onu üç ay ərzində gündəlik 9,7 milyon barel azaltdılar. Avqust ayından etibarən hasilat bir qədər artırıldı. 2018-ci ilin oktyabr ayı ilə müqayisədə o, ilin sonuna qədər artıq gündəlik 7,7 milyon barel az idi. Razılaşma iştirakçılarının planına görə, 2021-ci ilin əvvəlindən etibarən neft hasilatı daha da artmalıdır. 2022-ci ilin aprel ayının sonuna qədər 2018-ci ilə nisbətən azalma 5,8 milyon barel təşkil etməlidir.

**Qiymətlərin kəskin enişinin səbəbləri**

EIA ABŞ-ın Enerji İnformasiya Agentliyinin təqdim etdiyi hesabatda (https://www.iea.org/topics/oil-market-report) qeyd edilir ki, bu ilin birinci rübündə neftin bir barelinin orta qiyməti 49,97 dollar, ikinci rübdə 26,33 dollar, üçüncü rübdə isə 42,97 dollar təşkil edib. Bu ilin dördüncü rübünün yekunlarına görə, neftin qiymətinin 40,07 dolları dək enməyi gözlənilirdi, lakin gözləniləndən artıq oldu.

**BƏRPA OLUNAN ENERGETİKAYA QLOBAL İNVESTİSİYALAR NEFT VƏ QAZ SEKTORUNA KAPİTAL QOYULUŞLARINI ÜSTƏLƏYİB.**

Agentliyin qiymətləndirmələrinə (https://www.iea.org/topics/oil-market-report) görə, 2020-ci ilin sentyabr ayında dünya bazarında neft tədarükünün həcmi epidemiyadan əvvəlki göstəricilərdən 9% az olub. Beləliklə, "OPEC+"un kartel üzvləri və dəvət olunmuş neft istehsalçıları tərəfindən qoyulmuş vəzifəsi - qiymətlərin sərbəst enməsini dayandırmaq üçün hasilatı lazımi miqdarda azaltmaq vəzifəsi yerinə yetirildi. Məlumatlar göstərir ki, sazişdə iştirak edən ölkələr avqust ayında hasilatı 7,7 milyon barel azaldıb ki, bu da sənədlərdə (sazişdə) müəyyən ediləndən 2% çoxdur.

Üstəlik, son vaxtlar neftin qiymətlərini təhdid edən əsas təhlükələrdən biri - nəhəng supertankerlərdə yerləşdirilənlər də daxil olmaqla, nəhəng sənaye ehtiyatları sovrulmağa başladı. Onlar son bir neçə ayda ardıcıl olaraq azalırdı. Məsələn, iyul ayında onlar 34 milyon barel, avqust ayında isə 42 milyon barel azaldı.

Bununla belə qeyd etmək lazımdır ki, dünyada mövcud olan sənaye ehtiyatlarının indiki göstəricisi son beş ildə orta göstəricidən xeyli yüksək - təxminən 220 milyon barel çox olaraq qalır. Eniş həm də ona görə ləngidi ki, bəzi ölkələr aşağı qiymətlərin öz neft anbarlarını doldurmaq üçün əla bir fürsət olduğuna dair qərar verdilər. Xüsusən də bu, iqtisadiyyatındakı kəskin böhran mərhələsinə baxmayaraq, ilin birinci yarısında ehtiyatlarını 440 milyon barel, yəni qlobal maksimumdan iki dəfə çox artıran Çin üçün səciyyəvi oldu.

Bu, bir növ dünya rekordudur - 2020-ci ilə qədər bir ölkənin ehtiyatlarının maksimum artımı 2014-2015-ci illərdə baş verdi. Bu zaman ABŞ öz ehtiyatlarını yarım ildə təxminən 100 milyon barel artırdı (o cümlədən öz istehsalçılarını dəstəkləmək məqsədilə). Beləliklə, əvvəlki nailiyyət dərhal dörd dəfə artmışdır.

Mümkündür ki, çinlilər qiymətlərin çox enməsinə imkan verməyərək dünya tələbini bu yolla tarazlaşdırıblar. Əgər həmin 440 milyon barel (dünya istehlakının təxminən 2,5% -i) bazarda olsaydı, qiymətlər daha çox düşərdi. Qiymətlərin, tələb və təklif balansının

**QARA QIZILIN QİYMƏTİNƏ MƏNFİ TƏSİR EDƏN AMİLLƏRDƏN BİRİ BAYDENİN PREZİDENT SEÇKİLƏRİNDƏKİ PLATFORMASINDA ALTERNATİV ENERJİNİN İNKİŞAFINA DAİR PROQRAMIN QƏBUL OLUNMASI VƏDİ OLDU**



asılılığı heç də həmişə xətti olmadığından WTI, xüsusilə də Brent markaları daha 10 dollara qədər ucuzlaşmaq riski altında idilər.

Hər nə olursa-olsun, Çin indi böhrandan sonra özünü sürətlə bərpa edir və idxalını artırmaqda davam edir. Sentyabr ayında ÇXR-in xaricdən neft alışı əvvəlki aya nisbətən daha 2,1 % artdı.

Hasilatın azalmasına gəlincə, bu yalnız OPEC+ ölkələrində qeydə alınmır. ABŞ-da neft hasilatı dünyada bəlkə də ən sürətli templərlə azaldı. Mart ayının əvvəlində tarixdə ilk dəfə gündə 13 milyon barellik həddi aşdı, amma üç-dörd ay ərzində üçdəbir nisbətində azalaraq avqustun sonunda ikiillik minimuma çatdı (gündə 9,7 milyon çəllək).

O, payızda gündə 10-10,5 milyon barel aralığında stabilləşdi, ancaq əvvəlki kimi, zirvədən təxminən 25% geridə qalır. Qiymətlərin əvvəlki kimi, Amerika yataqlarının əksəriyyətində sıfır rentabellik üçün tələb olunan göstəricilərdən aşağı olmasını, habelə yeni qazma işlərinin göstəricilərindən çox zəif olduğunu (ilin əvvəlinə nisbətən üç dəfə az) nəzərə alaraq, yaxın aylarda Amerika hasilatının sürətlə bərpa olacağını gözləmək mümkün deyil.

Qlobal neft bazarına təsir edən əsas neqativ amil koronavirusun ikinci dalğasıdır. Pandemiyanın ikinci dalğası tələbin azalmasına səbəb olmaqla neftin qiyməti üçün təhlükə kəsb edir.

Noyabr məruzəsində OPEC 2020 və 2021-ci illər üçün qlobal neft tələbi üzrə proqnozunu gündə 0,3 milyon barel azaldıb. Təşkilat 2020-ci ildə gündə 9,8 milyon barel azalma və gələn il gündə 6,2 milyon barel artım gözləyir. Proqnoza yenidən baxılması dünyada koronavirus infeksiyası hallarının artması və bir sıra ölkələrin hakimiyyətləri tərəfindən məhdudlaşdırıcı tədbirlərin təkrar tətbiq edilməsi ilə bağlıdır.

Digər tərəfdən, maliyyə bazarlarında uğurlu vaksinlər haqqında xəbərlərlə də nikbinlik artırdı. Bu fakt artıq kotirovkaları bərpa etdi. Belə ki, noyabr ayının əvvəli neftin qiymətinə Pfizer və BioNTech şirkətlərindən COVID-19 əleyhinə vaksinin uğurlu sınaqları barədə xəbərlər təsir etdi. Üç gün ərzində - noyabrın 9-11 arası Brent-in qiyməti 40,2 dollardan 45 dollara və daha yuxarıya qalxdı. Sonrakı dövrlər Moderna şirkəti tərəfindən vaksinin müvəffəqiyyətlə sınaqdan keçirildiyi barədə xəbərlər nikbinliyi artırdı. Noyabrın 16-da dörd saat ərzində Brent markasının yanvar fyuçersinin qiyməti 1 dollardan çox artaraq 44,38 dollar, dekabrın birinci yarsında isə 50 dollara qədər yüksəldi.

**Qiymətlərin ssenarilər üzrə dəyişməsi**

Dünya neft bazarlarında təklifin tələbatı üstələməyi qiymətə təsir edən amillərdəndir və pandemiya dövründə tələbatı proqnozlaşdırmaq çətindir. Bütövlükdə IEA (Beynəlxalq Enerji Agentliyi) dünyadakı neft hasilatını gündə 91,1 milyon barel həcmində qiymətləndirir. Agentlik ilin sonuna qədər hasilatın bir qədər artacağını və 92 milyon barel təşkil edəcəyini gözləyir. Bu ilin yekunlarına görə, gözlənilən tələbdən bir qədər çox olmaqla gündə 91,7 milyon barel təşkil edir. Beləliklə, bazarda balans əldə edilə bilər və qiymətlər qalxmalıdır.

Problem ondadır ki, OPEC+ sazişini imzalamamış dövlətlərdə tədarük həcmi əhəmiyyətli dərəcədə arta bilər. ABŞ-dakı şist nefti çətin dövrlərini yaşasa da, bu sahə, məsələn, Meksika körfəzində dəniz hasilatı ilə də təmsil olunur ki, bunu da "Delta" qasırğası oktyabr ayında əhəmiyyətli dərəcədə azaltdı. Bununla belə, infrastruktura ciddi bir zərər dəyməmişdir, bu səbəbdən də yataqlar tezliklə tam gücü ilə fəaliyyət göstərəcək.

Liviya "OPEC+"də iştirakdan azad edilmişdir və məhsulunu öz istəyi ilə artıra bilər. Buna onun gücü çata bilər. IEA-ya görə, gündə ən




**COVID-19 PANDEMİYASI TƏLƏBİN AZALMASINA SƏBƏB OLMAQLA NEFTİN QİYMƏTİ ÜÇÜN TƏHLÜKƏ KƏSB EDİR.**

azı 400 min barel təşkil edə bilər. Bundan əlavə, sentyabr-oktyabr aylarında Kanada və Braziliyadakı yataqlarında təmir işləri aparılırdı, odur ki, daha iki ölkənin də yaxın gələcəkdə hasilatı əhəmiyyətli dərəcədə artırmaq potensialı var. Nəhayət, sənaye ehtiyatları azalmaqda davam edəcək: bunun üçün onların imkanları var, odur ki, dünya bazarına gündə 4 milyon barelə qədər verə bilərlər.

Bu şəraitdə əminliklə demək olar ki, "OPEC+" iştirakçıları öz öhdəliklərini qətiyyətlə yerinə yetirəcəklər. Hələ ki, vəziyyət nəzarət altındadır, lakin aşağı qiymətlər dövrü nə qədər çox davam etsə, dünya bazarının əsas oyunçuları da bir o qədər gərginlik keçirəcəklər və belə vəziyyətdə neft müharibələrinin baş qaldırması istisna deyil. Səudiyyə Ərəbistanı son illərdə neft müharibələri sahəsində böyük təcrübə toplamışdır. Mövcud qiymətlər şəraitində krallıq nəinki büdcəni tarazlaşdıra bilmədi, həm də iqtisadiyyatın şaxələndirilməsi üzrə çoxsaylı iddialı layihələrdən imtina etməli oldu. Səudiyyə Ərəbistanının qonşuları (məsələn, İraq və Birləşmiş Ərəb Əmirlikləri) də müqavilədən imtina etmək və ya ondan yan keçmək üçün kifayət qədər səbəb nümayiş etdirsə də, onun qiymət müharibələrinə qayıdışı qeyri-real ssenari kimi görünmür.

Qara qızılın qiymətinə mənfi təsir edən amillərdən biri də odur ki, Bayden prezident seçkilərindəki platformasında alternativ enerjinin inkişafına dair proqramın qəbul olunmasını vəd vermişdi. Avropa Birliyi pandemiyadan zərər çəkmiş iqtisadiyyatı bərpa etmək üçün təqribən 750 milyard avro məbləğində bir proqram qəbul etməyə hazırlaşır. Şübhə yoxdur ki, bu pullar AB-də bərpa olunan enerji və yaşıl layihələrin inkişafının sürətləndirilməsinə yönəlmiş Green Deal proqramına uyğun olaraq paylanacaqdır. Bundan əlavə, yeni hidrogen strategiyasını qəbul edən Almaniya hökuməti Avropa Birliyini ovsunlamağı bacardı: indi onun da hidrogendən ekoloji enerji daşıyıcısı kimi geniş istifadə edilməsi üçün bir proqramı var.

Bir sözlə, həm ABŞ və Avropada, həm də dünyanın digər yerlərində dekarbonizasiya, qazıntı enerji mənbələrindən imtina edilməsi prosesi sürətlənir. Artıq indi bərpa olunan energetikaya qlobal investisiyalar neft və qaz sektoruna kapital qoyuluşlarını üstələyib.

2021-ci ildə qlobal neft bazarı üçün əsas risklərdən biri Co Baydenin İran siyasəti ola bilər. Amerikanın yeni prezidenti tərəfindən İrana tətbiq edilən sanksiyaların ləğvinin mümkünlüyü və dünya bazarına ərəb neftinin kəskin şəkildə axını, eyni zamanda tələbin yetərli olmaması neftin qiymətlərini artıq ilin birinci yarısında 25 dollara qədər çökdürə bilərdi. Lakin bu sanksiyaların birdən götürülməsi eytimalı çox azdır.

Son günlər vaksinin ixtirası və səyahətə qadağaların götürülməsi uçuşların sayının artması və aviayanacağa azalmış tələbin geri qayıtması deməkdir. Əksər mütəxəssislər dünya bazarlarında neftə tələbatı 2021-ci ilin ikinci və ya üçüncü rübündən başlayaraq bərpa olunmasını neftin qiymətinin artımını proqnozlaşdırırdılar. Lakin biz 2020-ci ilin dördüncü rübündə qiymətlərdə artım müşahidə edirik və təbii ki, bu tendensiya davamlı olmaya bilər. Bizim apardığımız təhlilə görə, pandemiyanın üçüncü və ya dördüncü dalğası baş verməzsə, 2021-ci ildən başlayaraq kiçik templərlə olsa da dünya bazarında yanacağın qiymətinin stabilləşmə ehtimalı yüksəkdir.

Yekunda qeyd etmək lazımdır ki, tədqiqatlar göstərir ki, pandemiya dövrundə hər hansı iqtisadi sahələr üzrə dəqiq proqnoz vermək çox çətindir. Sadəcə, neftin qiymətinə təsir edən amilləri sadalamaqla müsbət və mənfi ssenarilər irəli sürməklə kifayətləndik.

# Pandemiya və manatın vəziyyəti

*i.f.d. Gəray Musayev*

**COVID -19 pandemiyası ilə ortaya çıxan iqtisadi fəaliyyətdəki yavaşlama və qeyri-müəyyənlik dünya iqtisadiyyatına və maliyyə bazarlarına mənfi təsir göstərməyə davam edir. Qlobal iqtisadiyyat kiçilməyə davam etdikcə, maliyyə bazarları da özü üçün təhlükəsiz hesab ediləbiləcək sığınacaqlar axtarır.**




### İqtisadi fəaliyyətdə yavaşlama

Hər şeydən əvvəl, beynəlxalq maliyyə qurumları və banklar koronavirus pandemiyadan sonra qlobal iqtisadi artım proqnozlarını dəyişdirmişlər və dünyanın aparıcı iqtisadiyyatları üçün artıq iqtisadi artım rəqəmlərindəki təxminlər mənfi rəqəmlərlə ifadə olunur.

Qlobal iqtisadi artımın yavaşlamasının ən böyük amillərindən biri dünyanın istehsal mərkəzi Çində istehsal fəaliyyətinin azalmasıdır. Çin ilə sıx iqtisadi əlaqələrdə olan digər Asiya ölkələrində iqtisadi daralmanın təsirləri dolayı yolla hiss olunmağa başladı. Açıqlanan makroiqtisadi göstəricilər göstərir ki, COVID - 19 pandemiyasının səbəb olduğu iqtisadi daralma Çindən başlayaraq bütün dünyada dalğavari formada hiss olunur. Pandemiyanın dünya üzrə iqtisadi təsirlərini ümumiləşdirsək:

- İstehsalda yavaşlama;
- İstehlak xərclərində azalma və tələbdəki daralma;
- Xidmət sektorunda ixtisarlar (azalmalar);
- İşsizliyin artması mənzərəsi ilə qarşılaşırıq.

**COVID - 19 pandemiyasının səbəb olduğu iqtisadi daralma əvvəl Çindən onra isə bütün dünyada dalğavari formada hiss olunur.**

### Maliyyə bazarlarındakı vəziyyət

Pandemiyanın Çindən sonra digər ölkələrə gözlənilmədən yayılması İrana, İtaliyaya, Avropaya və Amerikanın böyük bir hissəsinə sürətlə təsir etməsi bütün dünyada çaxnaşma və qorxuya səbəb olmuşdur. Pandemiyaya çevrilmiş epidemiyanın, xüsusən də İtaliya və İspaniyada televiziya proqramlarında və sosial mediada dağıdıcı təsirlərini əks etdirən epizodlara baxmaq investorların düşüncələrinə mənfi təsir etmişdir.

Bütün bu inkişaflar qeyri-müəyyənlik və çaxnaşma səbəbindən maliyyə bazarlarındakı dəyişkənliyi artırmaqla yanaşı pandemiyanın nə zaman sona çatacağı ilə bağlı qeyri-müəyyənlik fond bazarında satış dalğasını daha da artırır. Pandemiyanın qarşısının alınması üçün həyata keçirilən tədbirlər isə ölkə iqtisadiyyatlarına zərbə vurmağa davam edir. Tədbirlər və məhdudiyyətlər bütün sektorları əhatə etsə də, pandemiyanın turizm və nəqliyyat başda olmaqla xidmət sektoruna ən böyük zərbəni vurduğu görülür. Şirkətlərin mənfəətində gözlənən azalmalar, investorların fond bazarından sürətlə çıxmasına səbəb olur. Tələbin azalması səbəbindən neftin qiymətinin 50 faizdən çox azalması, ABŞ başda olmaqla, neft istehsal edən ölkələrin neft gəlirlərinin əhəmiyyətli dərəcədə azalmasına səbəb olur.

FED və ECB başda olmaqla bir çox ölkənin mərkəzi bankları, bazarlarda kredit və nağd problemlərin qarşısını almaq üçün faiz dərəcələrini azaltmağa qərar verməklə yanaşı, bir çox ölkə istehlakçılar və istehsalçılar (şirkətlər) üçün iqtisadi dəstək paketlərini açıqladılar. Lakin bütün bu inkişafların maliyyə bazarlarına və investorlara kifayət qədər inam vermədiyi müşahidə olunur. Qeyri-müəyyənlik davam etdikcə, investorların təhlükəsiz sığınacaqlara sığınmağa davam etmələri gözlənilir.

Koronavirus epidemiyasının yaratdığı qeyri-müəyyənliklərin maliyyə bazarlarına təsirlərini isə aşağıdakı kimi ümumiləşdirə bilərik:




***Pul bazasındakı dəyişmələri nəzərdən keçirdikdə görülür ki, pandemiyanın başlama tarixindən hazırkı dövrə qədər demək olar ki, pul bazası dəyişməmişdir***

• Qiymətli kağız bazarlarında satış dalğası davam edir;

• İnvestorlar təhlükəsiz sığınacaq kimi gördükləri qızıl, ABŞ dövlət istiqrazlarına və ABŞ dollarına üz tuturlar.

İqtisadi fəaliyyətlərdəki azalma və məcmu tələbin azalması qiymətlərdə sabitlik vəya anti inflyasionist vəziyyətlə müşaiyət olunaraq, dolayı olaraq milli valyutaların məzənnələrində dəyişməzliyə səbəb olarkən, investorların ABŞ dollarına və ya avroya tələblərini artırmaları milli valyutaların məzənnələrində azalmalara təzyiqi yarada bilər. Lakin burada bir məqamı da qeyd etmək lazımdır ki, qlobal iqtisadiyyatda yavaşlama xüsusən ixrac və idxal əməliyyatlarının azalması, ölkələrin ixracdan əldə edilən xarici valyuta gəlirlərini azaltdığı kimi idxal səbəbiylə xarici valyutanın ölkədən çıxışını da azaldır. Bu vəziyyətin əlbəttə ki, milli valyutaların məzənnələri üzərində təsirləri mövcuddur.

**Ölkəmizdəki vəziyyət**

COVİD – 19 pandemiyasının qlobal iqtisadiyyata təsirləri onun bir parçası olan Azərbaycan iqtisadiyyatını da oxşar problemlərlə qarşı qarşıya qoymuşdur. Belə ki, 2020-ci ilin yekun göstəricilərinə görə iqtisadi fəaliyyətlərdəki yavaşlamanın nəticəsi kimi ÜDM keçən ilin müvafiq dövrünə nisbətdə 4,3 faiz azalmışdır. Bu vəziyyət, əlbəttə ki, istehsalda yavaşlamanın, istehlak xərclərində azalma və tələbdəki daralmanın nəticəsi kimi baş vermişdir.

İlin yekunlarına görə ölkəmizin xarici ticarət dövriyyəsi keçən ilin müvafiq dövrünə nisbətdə faktiki qiymətlərlə 26,8 faiz azalmışdır. İxracatdakı azalma 30.6 faiz, idxalatdakı azalma isə 21,5 faiz olmuşdur. MB-nin rəsmi valyuta ehtiyatlarını nəzərdən keçirdikdə isə pandemiya dövründə azalmanın olmadığını, demək olar ki, sabit qaldığını qeyd etmək mümkündür (28.02.2020-ci il tarixində 6400,9 mln. USD, 30.12.2020-ci il tarixində isə 6369,4 mln. USD). Bu vəziyyət ölkəmizdə valyuta bazarında ABŞ dollarına olan tələbin yüksək olmadığı və ya bu tələbin MB tərəfindən asanlıqla qarşılandığını göstərir.

Pulun alıcılıq qabiliyyətinə, yəni manatın məzənnəsinə dolayı olaraq təsir edə biləcək bir amil kimi qeyd olunan pul bazasındakı dəyişmələri nəzərdən keçirdikdə isə görülür ki, pandemiyanın başlama tarixindən hazırkı dövrə qədər demək olar ki, pul bazasında ciddi dəyişmə olmamışdır (28.02.2020-ci il tarixində 12112,3 mln. AZN, 30.12.2020-ci il tarixində isə 13564,2 mln. AZN).

Pandemiya dövründə ölkəmizin iqtisadiyyatında reallaşan yuxarıda qeyd olunan makroiqtisadi göstəricilər manatın məzənnəsi üzərində ciddi təzyiqlərin olmadığını və manatın məzənnəsinin bu şərtlər daxilində ən azından qısamüddətli dövrdə dəyişməyəcəyini deməyə əsas verir.

# Karantinin vergi yığımına təsiri necə oldu?

*i.f.d., dos. Paşayev Zöhrab*

Pandemiya makroiqtisadi aktivliyin azalmasında əsas amilə çevrilmişdir. Beynəlxalq Valyuta Fondunun (BVF) proqnozuna əsasən, pandemiya nəticəsində qlobal iqtisadiyyatın 2020-ci ildə 3%, Orta Şərq və Mərkəzi Asiyanın neft ixrac edən ölkələrinin iqtisadiyyatının isə 4% azalacağı gözlənilir. BVF-nin yeni hesablamalarına görə, Azərbaycan iqtisadiyyatı 2020-ci ildə 4% kiçilsə də, 2021-ci ildə 2% artımı proqnozlaşdırılır. Azərbaycan da OPEC+ çərçivəsində neft hasilatını azaltmışdır və aşağı neft qiymətlərindən itirdiyi şəraitdə hökumətin effektiv anti-böhran tədbirləri hesabına ölkəmizdə iqtisadi tənəzzülün qarşısı daha səmərəli şəkildə alınır. BVF-nin verdiyi iqtisadi artım proqnozları arasındakı postsovet məkanında pandemiyadan əvvəl və sonra ən az fərq olan ölkələrdən biri Azərbaycandır. Bununla belə, İqtisadiyyat Nazirliyinin qiymətləndirməsi də göstərir ki, pandemiyanın mənfi təsirləri və neftin qiymətinin qeyri-sabitliyi nəticəsində iqtisadi fəallıq azalıb, iqtisadi tarazlıq pozulub, tətbiq edilən məhdudiyyətlər istehsal-emal-istehlak zəncirində qırılmalara səbəb olub. İqtisadiyyatda müşahidə edilən durğunluğa baxmayaraq, milli iqtisadiyyatda tənəzzülə səbəb olacaq vəziyyət yaranmayıb. Bunun əsas səbəbi son illərdə ölkədə aparılan ardıcıl islahatlar, biznes mühitinin yaxşılaşdırılması və iqtisadiyyatın şəffaflaşdırılması tədbirləridir. Eyni zamanda ölkəmizdə pandemiya ilə mübarizə büdcəsi təxminən 3,5 milyard manat təşkil edir və vaxtında anti-böhran tədbirləri müəyyənləşdirilib, bununla yanaşı, manatın sabitliyi üçün 3 milyard manatdan artıq vəsaitlə valyuta bazarına müdaxilə edilib. Azərbaycan hökuməti milli valyutanın sabitliyini təmin edərək əsas riskləri öz üzərinə götürməklə makroiqtisadi sabitliyin tənəzzüldən qorunmasını təmin etmiş oldu. Bununla yanaşı, təhlillər göstərir ki, böhrandan çıxışın əsas 2 istiqaməti müəyyənləşdirilir:

1) Böhranın dərinləşməsinin qarşısını almaq və sabitliyi qorumaq;
2) İqtisadi aktivliyin bərpası, iqtisadi inkişafın təmin olunması.

İqtisadiyyatın bərpası üçün ucuz maliyyə, yüngül vergi yükü və tələbi yaradan bazarlara çıxış daha önəmlidir. Bu baxımdan, vergi



*BVF-nin verdiyi iqtisadi artım proqnozları arasındakı postsovet məkanında pandemiyadan əvvəl və sonra ən az fərq olan ölkələrdən biri Azərbaycandır.*

güzəştləri və eləcə də güzəştli kreditlərə çıxış imkanlarının genişləndirilməsi həm pandemiya, həm də postpandemiya dövründə sahibkarlara bu cür güzəştlərdən istifadə etməklə xərcləri minimumlaşdırmaq, iqtisadi aktivliyi daha qısa zamanda bərpa etmək imkanı yaranmış olur.Bu kontekstdə Azərbaycanda həyata keçirilən vergi islahatlarının əsas istiqaməti pandemiya şəraitində iqtisadi sabitliyi qorumaq, pospandemiya dövründə iqtisadi inkişafın təmin olunmasına hədəflənir. Ölkədə müvəqqəti vergi rejiminin tətbiqinə əsasən, pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən vergi ödəyicilərinə geniş miqyasda vergi güzəştləri və azadolmalar verilib. Bu şəxslər 2020-ci il üzrə əmlak və torpaq vergilərindən tam azad ediliblər, bu ildə əldə edəcəkləri mənfəət və ya gəlirlərinin 75%-i miqdarında vergi güzəştləri əldə ediblər. Bundan əlavə, fiziki şəxslərdən daşınmaz əmlak icarəyə götürdükləri halda onlar üçün daşınmaz əmlaka görə ödənilən icarə haqlarından tutulan verginin dərəcəsi 14%-dən 7%-ə endirilib. 8% vergi dərəcəsi ilə sadələşdirilmiş rejimdə fəaliyyət göstərən ictimai-iaşə obyektləri üçün vergi dərəcəsi 4%-ə, 2% dərəcə ilə vergi ödəməklə fəaliyyət göstərən sadələşdirilmiş verginin ödəyiciləri üçün isə bu rəqəm 1%-ə endirilib. Müvəqqəti vergi rejimi müddətində əhalinin sağlamlığı və zəruri ehtiyaclarının təmin edilməsi məqsədi ilə idxal edilmiş məhsullar ƏDV-dən azad edilib, eyni zamanda həmin müddətdə hava nəqliyyatı daşıyıcılarının sərnişindaşıma fəaliyyətində istifadə etdikləri hava gəmiləri əmlak vergisindən tam azad edilib. Mikrosahibkarlıq subyektlərinin 2020-ci ilin 1-ci və 2-ci rübləri üzrə vergi orqanına təqdim etməli olduqları sadələşdirilmiş vergi bəyannaməsinin verilmə müddəti, hesablanmış vergiləri, eyni zamanda pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən mikrosahibkarlıq subyekti olmayan vergi ödəyicilərinin 2019-cu il üzrə hesablanmış mənfəət, gəlir və əmlak vergisi üzrə öhdəlikləri 2020-ci il sentyabrın 1-nə kimi uzadılıb. Bundan əlavə, Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən vergi ödəyicilərinin 2019-cu il üzrə hesablanmış mənfəət, əmlak və gəlir vergiləri üzrə cari ödəmələri, eyni zamanda əvvəlki ildə fəaliyyəti olmayıb cari ildə qeydiyyatdan keçmiş vergi ödəyiciləri mənfəət, gəlir və əmlak vergiləri üzrə cari ödəmələrindən tam məbləğdə azad

**Diaqram1. Vergi ödəyicilərinin sayı**



**Diaqram 2. Xarici investisiyalı hüquqi şəxslərin fəaliyyət vəziyyəti**




*Azərbaycanda vergi islahatlarının əsas istiqaməti pandemiya şəraitində iqtisadi sabitliyi qorumaq, postpandemiya dövründə iqtisadi inkişafın təmin olunmasına hədəflənir.*

edilmişdir. Həyata keçirilən islahatlar nəticəsində vergi ödəyicilərinin sayında(xarici investisiyalı hüquqi şəxslər istisana olmaqla) əsasən müsbət dinamika müşahidə edilmişdir. 2020-ci ilin sentyabr ayının 1-nə respublika üzrə uçotda olan 1 175 848 vergi ödəyicisinin 1 028 881-i və ya 87,5 faizi fiziki şəxslər, 146 967-si və ya 12,5 faizi hüquqi şəxslər və digər təşkilatlar olmuşdur. 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə vergi ödəyicilərinin ümumi sayı 144 684 vahid (14,0 faiz) artmışdır ki, bu artımın 132 680 vahidi (91,7 faizi) fiziki şəxslərin, 12 004 vahidi isə (8,3 faizi) hüquqi şəxslərin sayının artması hesabınadır. Hüquqi şəxs kimi uçotda olan vergi ödəyicilərinin sayının artması (8,9 faiz) əsasən kommersiya qurumları hesabına baş vermişdir. Müqayisə edilən dövrdə kommersiya qurumlarının sayı 11 602 vahid (9,7 faiz) artaraq 131 308 vahid təşkil etmişdir. Qeyri-kommersiya qurumlarının sayı isə 15 659 vahid təşkil etmiş və ya müqayisə edilən dövrdə 402 vahid (2,6 faiz) artmışdır.

2020-ci ilin avqust ayında 903 kommersiya qurumu qeydiyyata alınmışdır ki, bu da 2019-cu ilin avqust ayında qeydiyyata alınmış (1372) kommersiya qurumlarının sayından 469 vahid və ya 34,2 faiz azdır. Cari ilin avqust ayında qeydiyyata alınmış kommersiya qurumlarının 833-ü yerli və 70-i xarici investisiyalı kommersiya qurumudur. Onu da qeyd edək ki, pandemiyanın təsiri nəticəsində aktiv xarici investisiyalı kommersiya qurumlarının sayı əvvəlki illə müqayisədə 18,3 faiz azalmışdır.

Diaqramdan göründüyü kimi, 2020-ci ilin yanvar-avqust aylarında qeydiyyatdan keçmiş aktiv xarici investisiyalı kommersiya qurumlarının sayı 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 18,3 faiz azalmışdır. 2020-ci ilin yanvar-avqust aylarında qeydiyyatdan keçmiş və fəaliyyətini dayandırmış xarici investisiyalı kommersiya qurumlarının sayı 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 5,1 dəfə azalmışdır.

Vergitutma sahəsində həyata keçirilən islahatlar əvvəlki illərdə olduğu kimi, öz müsbət nəticələrini vergi daxilolmalarında da göstərmiş və vergi daxilolmalarında tarazlığın qorunması hazırkı dövrədək təmin edilir.

Cədvəl məlumatlarına əsasən, 2019-cu ildə 7672556,2 min manat büdcəyə vergi daxil olmuşdur ki, bu da əvvəlki illə müqayisədə 257082,8 min manat və ya 3,5 faiz çoxdur. 2020-ci ilin ilk 2 rübü üzrə daxil olan məlumatlara əsasən,

*Vergitutma sahəsində həyata keçirilən islahatlar əvvəlki illərdə olduğu kimi, öz müsbət nəticələrini vergi daxilolmalarında da göstərmiş və vergi daxilolmalarında tarazlığın qorunması hazırkı dövrədək təmin edilir.*

vergi daxilolmaları plan üzrə kəsirsiz 100 faiz yerinə yetirilmişdir.

Bununla yanaşı, qeyd etməliyik ki, dünya bazarında neftin qiymətinin aşağı düşməsi eyni zamanda iqtisadi aktivliyin bərpasını təmin etmək üçün vergi güzəştlərinin tətbiqi büdcə daxilolmalarında çətinliklərin yaranması ilə xarakterizə oluna bilər. Onu da qeyd etməliyik ki, iqtisadi aktivliyin bərpası və müsbət dinamika, büdcədə vergi daxilolmalarının xüsusi çəkisinin artması ilə əsasən düz mütənasiblik təşkil etməlidir. Pandemiyanın mənfi təsirləri və neftin qiymətinin qeyri-sabitliyi nəticəsində iqtisadi fəallığın qorunub saxlanılması üçün istehsal-emal-istehlak zəncirinin yenidən qurulmasına zərurət yaranır. Bu baxımdan, növbəti mərhələdə istər makroiqtisadi sabitliyin təmin olunmasında, eyni zamanda büdcə gəlirlərinin artırılmasında vergi siyasətinin əsas istiqaməti kimi idxalı əvəzetmə siyasətinə, o cümlədən kiçik və orta biznes strukturlarının sürətli inkişafına, innovasiyaların sürətli tətbiqinə, daxili bazarın yeni tələblərə uyğun formalaşmasına və xarici müdaxilələrdən qorunmasına üstünlüyün verilməsi zəruri hesab edilir. Onu da nəzərə almalıyıq ki, böhran şəraitində iqtisadi aktivliyin qorunmasında vergi güzəştlərinin tətbiqi labüddürsə, növbəti mərhələdə, o cümlədən postpandemiya dövründə güzəşt paketinin optimallaşdırılması mexanizmi qurulmalıdır. Bir tərəfdən vergi ödəyicilərinin maraqlarının təmin olunması iqtisadi aktivliyə təsir edən meyar kimi müəyyənləşirsə, digər tərəfdən büdcəyə vergi daxilolmalarının artırılmasının mütənasibliyi qorunmalıdır.

**Cədvəl. Vergi daxilolmaları min manat**

| Adı | Hesablama, min manat | | | | Ödəmə min manat | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | fərq | | | | fərq | |
| | 2018-ci il | 2019-cu il | məbləğlə | faizlə | 2018-ci il | 2019-cu il | məbləğlə | faizlə |
| CƏMİ | 8 221 441,8 | 8 237 193,7 | 15 752,0 | 0,2% | 7 415 473,3 | 7 672 556,2 | 257 082,8 | 3,5% |
| Neft sektoru | 2 816 681,7 | 2 397 919,8 | -418 761,9 | -14,9% | 2 441 427,7 | 2 240 273,2 | -201 154,5 | -8,2% |
| Q/neft sektoru | 5 404 760,1 | 5 839 273,9 | 434 513,9 | 8,0% | 4 974 045,6 | 5 432 283,0 | 458 237,4 | 9,2% |
| Bakı şəhəri üzrə cəmi | 4 854 473,9 | 5 143 147,4 | 288 673,4 | 5,9% | 4 365 985,9 | 4 754 201,0 | 379 215,1 | 8,7% |
| VN yanında MGBİ | 3 412 983,0 | 3 386 630,3 | -26 352,7 | -0,8% | 2 985 307,9 | 3 190 879,1 | 205 571,1 | 6,9% |
| 10 iri VÖ | 527 159,5 | 374 009,9 | -153 149,6 | -29,1% | 339 739,0 | 349 726,2 | 9 987,3 | 2,9% |
| PSA digər | 808 191,7 | 740 223,1 | -67 968,7 | -8,4% | 905 910,7 | 864 141,8 | -41 768,9 | -4,6% |
| Digərləri | 2 077 631,7 | 2 272 397,3 | 194 765,6 | 9,4% | 1 739 658,2 | 1 977 011,0 | 237 352,8 | 13,6% |
| VN yanında BLGBİ | 1 358 283,5 | 1 665 596,5 | 307 313,0 | 22,6% | 1 282 525,2 | 1 453 132,0 | 170 606,8 | 13,3% |
| VN yanında BKSİBİ | 83 207,4 | 90 920,6 | 7 713,1 | 9,3% | 98 152,8 | 101 190,0 | 3 037,1 | 3,1% |
| ƏVİ-lər cəmi | 550 286,1 | 696 126,6 | 145 840,5 | 26,5% | 710 583,5 | 795 447,8 | 84 864,3 | 11,9% |



# Ölkədə nağdsız ödənişlərin dinamikası

*i.f.d., dos. Zönrab İbrahimov*

*2005-ci illərdən başlayaraq nağdsız ödəniş infrastrukturunun formalaşdırılması üçün rəqəmsal sahibkarlağın və baqkçılığın, elektron ticarətin inkişaf etdirilməsi, yəni ödəniş texnologiyalarının və smart ödəniş vasitələrinin geniş tətbiqi, mövcud elektron ödəniş xidmətlərinin effektivliyinin və təhlükəsizliyinin yüksəldilməsi, regionlarda və ucqar ərazilərdə maliyyə inklüzivliyinin artırılması istiqamətində xeyli işlər görülmüşdür.*

2016-cı ilin sonlarında ölkə ərazisində aparılan nağdsız hesablaşmaların hüquqi və iqtisadi əsaslarının müəyyən edilməsindən ötrü «Nağdsız hesablaşmalar haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edilimşdir. Qanunun məqsədi ölkə ərazisində mülki dövriyyənin iştirakçıları arasında aparılan əməliyyatların və hesablaşmaların şəffaflığını, istehlakçıların hüquqlarının müdafiəsini təmin etmək, nağd pul hesablaşmalarının nağdsız hesablaşmalarla əvəzlənməsini stimullaşdırmaq, bank sektorunun inkişafını sürətləndirməkdir.

Azərbaycan Respublikası Prezidentinin 26 sentyabr 2018-ci il tarixli sərəncamı ilə «2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı» qəbul edilmişdir. Qəbul edilmiş Dövlət Proqramında vətəndaş, biznes subyektləri və dövlət strukturları arasında nağdsız ödəniş mühitinin genişlənməsi, nağd dövriyyənin həcminin azaldılması, rəqəmsal ödəniş xidmətlərinin institusional və hüquqi bazasının gücləndirilməsi, infrastruktur imkanlarının artırılması yolu ilə həmin xidmətlərin çeşidinin, keyfiyyətinin kütləviləşdirilməsi strateji prioritetlər olaraq nəzərdə tutulmuşdur.

**Cədvəl 1. Pul aqreqatları və pul bazası (mln. manat)**

| İllər | M2 pul aqreqatı | Pul bazası (manatla olan pul vəsaitləri) | M0 pul aqreqatı (banklardan kənarda nağd pullar) | M0 pul aqreqatının M2 pul aqreqatına nisbəti (faizlə) | M0 pul aqreqatının pul bazasına nisbəti (faizlə) |
|---|---|---|---|---|---|
| 2014 | 17435,8 | 11541,9 | 10152,5 | 58,2 | 87,9 |
| 2015 | 8678,3 | 6901,8 | 4775,9 | 55,0 | 69,1 |
| 2016 | 11546,3 | 7860,5 | 6376,9 | 55,2 | 81,1 |
| 2017 | 12466,4 | 8543,2 | 7490,3 | 60,0 | 87,6 |
| 2018 | 14643,6 | 9545,7 | 7601,4 | 51,9 | 79,6 |
| 2019 | 18238,6 | 12152,5 | 9501,1 | 52,0 | 78,1 |
| 2020 (I yarım il) | 17169,1 | 11251,8 | 9246,6 | 53,8 | 82,1 |

2019-2020-ci illrdə rəqəmsal ödənişlərdən istifadənin əhatə dairəsinin genişləndirilməsi məqsədi ilə 24/7/365 rejimli «Ani ödənişlər sistemi»nin yaradılması və istismara verilməsi, İSO 20022 standartlarının tətbiqi, rəqəmsal identifikasiya sisteminin Blokçeyn platformasında qurulması layihələri üzrə işlər davam etdirilmiş və yeni keyfiyyət mərhələsinə çatdırılmışdır. Dövlət Proqramı çərçivəsində Təhsil Nazirliyi ilə birlikdə ölkədə ilk dəfə gənc nəslin maliyyə davranışlarını radikal dəyişdirməyə imkan verəcək və özündə həm tələbə bileti, həm də ödəniş funksiyalarını birləşdirən «Azərbaycan Tələbə Kartı»nın verilməsinə başlanılmışdır. Qeyd etmək lazımdır ki, bu tədbirin reallaşdırılmasına pilot layihə kimi Azərbaycan Dövlət İqtisad Universitetindən başlanılmış və hazırda layihənin davamı olaraq professor-müəllim heyəti üçün də belə kartların hazırlanması istiqamətində işlər görülür.

Rəqəmsal və nağdsız ödənişlərin genişləndirilməsinin əsas şərtlərindən biri inkişaf etmiş bank sistemidir. Maliyyə vasitəçiliyinin inkişaf etdiyi ölkələrdə nağdsız ödənişlərin həcmi ənənəvi olaraq daha yüksək olur. Məhz buna görə də Dövlət Proqramının reallaşdırılması nəticəsində nağdsız iqtisadiyyatın payının 70-75 faizdən 40 faizə qədər azaldılması nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikasında son altı il ərzində pul aqreqatları və pul bazası kimi pul tədavülündə makro göstəricilər sayılan göstəricilərin vəziyyətini aşağıdakı cədvəldən görə bilərik.

Cədvəldən gördüyümüz kimi, həm M2 pul aqreqatına, həm də pul bazasına banklardan kənarda nağd pulların nisbəti altı il ərzində demək olar ki, dəyişməmiş, yəni «nağdsız iqtisadiyyat»ın formalaşdırılması istiqamətində reallaşdırılan tədbirlər dinamikanın keyfiyyətcə strukturlaşmasına kömək etməmişdir. Bu səbəbdən 2020-ci ilin sonuna Dövlət Proqramında nəzərdə tutulmuş nağdsız iqtisadiyyatın payının 40 faizə qədər azaldılmasının realizasiya yaranmış obyektiv makroiqtisadi situasiyadan asılı olaraq mümkün olmayacaqdır.

Son 6-7 il ərzində Milli Ödəniş Sistemi (MÖS) vasitəsilə aparılan əməliyyat-ların həcmi də artmışdır. Təkcə 2019-cu il ərzində aparılan ödəniş əməliyyatlarının ümumi həcmi 259 mlrd.manat, sayı isə 57 mln. ədəd olmuşdur. MÖS-də kommersiya banklarının apardığı əməliyyatların həcmi 2018-ci il ilə müqayisədə 8 faiz artarıq 143 mlrd. manat, sayı isə 62 faiz

artarıq 56 mln. ədədə çatmışdır. Rəqəmlərdən göründüyü kimi, MÖS-də banklar tərəfindən aparılan əməliyyatların həcmi məcmu ödəniş əməliyyatlarının 55,2 faizini, əməliyyatların sayı isə ümumi əməliyyatların 98,2 faizini təşkil etmişdir. İcra olunmuş ödəniş əməliyyatlarının qalan hissəsi "Azərpoçt" MMC-nin 2500-dən çox filial və şöbələrinin, 1300-ə yaxın ödəniş terminallarının vasitəsi ilə həyata keçirilmişdir.

**Cədvəl 2. Bank müştərilərinin və müştərilərin bank hesablarının sayı (milyon ədəd)**

| İllər | Bank müştərilərinin sayı | o cümlədən fiziki şəxslərin sayı | Müştərilərin bank hesablarının sayı | o cümlədən fiziki şəxslərin sayı |
|---|---|---|---|---|
| 2014 | 5,1 | 5,0 | 13,9 | 10,2 |
| 2019 | 8,0 | 7,9 | 19,2 | 15,8 |
| 2020 (I yarımil) | 8,4 | 8,3 | 19,8 | 16,7 |

Ödəniş əməliyyatlarının genişlənməsinə və nağdsız iqtisadiyyatın dinamikasına təsir edən başlıca amil, heç şübhəsiz ki, müştərilərin sayı və onların hesablarının sayıdır. Bank müştərilərinin sayı, müştərilərin bank hesablarının sayı, o cümlədən bu statistikada fiziki şəxslərin sayını aşağıdakı cədvəldən görə bilərik.

**Cədvəl 3. Banklar tərəfindən emissiya olunmuş ödəniş kartlarının ümumi sayı, debet və kredit kartları vasitəsi ilə aparılan əməliyyatların sayı və həcmi, bankomatlar və POS-terminalların sayı**

| İllər | Ödəniş kartlarının ümumi sayı (mln. ədəd) | Debet və kredit kartları ilə aparılan əməliyyatların sayı (mln. əməliyyat) | Debet və kredit kartları ilə aparılan əməliyyatların həcmi (mln. manat) | Bankomatların sayı (ədəd) | POS-terminalların sayı (ədəd) |
|---|---|---|---|---|---|
| 2014 | 5,9 | 79,2 | 11870 | 2608 | 73013 |
| 2019 | 7,2 | 162,2 | 23241 | 2647 | 67468 |
| 2020 (I yarımil) | 8,6 | 102,5 | 13349 | 2569 | 55631 |

Son illərdə bir sıra bankların lisenziyalarının ləğv edilməsinə baxmayaraq, statistikadan göründüyü kimi, istər bank müştərilərinin, istərsə də müştərilərin bank hesablarının sayı artmışdır. Bank hesablarının sayında fiziki şəxslərin payı kifayət qədər yüksək olmuşdur ki, bu da nağdsız iqtisadiyyatın inkişafında dinamikanın pozitiv zonada qalmasına çevik təsir edir. Onu da qeyd etmək yerinə düşər ki, 2020-ci ilin mart ayından başlayaraq, COVİD-19-un qlobal pandemiya elan edilməsi iqtisadi aktivliyə mənfi təsir göstərsə də bank hesablarının sayı azalmamışdır, əksinə, sahibkarlıq subyektləri fəaliyyətlərinin bərpasını və genişləndirilməsini səbirsizliklə gözləyirlər.

Nağdsız ödənişlərin dinamikasına təsir edən amillərdən biri də ödəniş kartlarının sayı, kartlarla aparılan əməliyyatların sayı və həcmi, həmçinin infrastrukturun vəziyyətidir. 3-cü cədvəldə bu məlumatları görə bilərik.

Məlumatlardan göründüyü kimi, ödəniş kartlarının sayında, kartlarla aparılan əməliyyatların sayında və əməliyyatların həcmində əhəmiyyətli müsbət tendensiya vardır. Qeyd etmək lazımdır ki, 2020-ci ildə ödəniş kartlarının ümumi sayının artımına işsiz vətəndaşlara kompensasiya üçün sosial kartların verilməsi də təsir etmişdir. Bankomatların və POS-terminalların sayının azalmasına gəldikdə isə bu, ilin əvvəlindən dörd bankın lisenziyasının ləğv edilməsi, qlobal pandemiyanın bir sıra sahibkarlıq subyektlərinə təsiri nəticəsində fəaliyyətini dayandırmaları və ya məhdudlaşdırmaları ilə izah olunmalıdır. Lakin bununla belə 2020-ci ilin birinci yarısının yekunları üzrə nəticələri ümidverici hesab etmək olar.

Ölkəmizdə kartların emissiyası və infrastrukturun yaradılmasında kommersiya bankları ilə yanaşı poçt rabitəsinin milli operatoru olaraq «Azərpoçt» MMC-də iştirak edir. Ancaq qeyd etməliyik ki, ümumi emissiya olunmuş kartların, kartlarla aparılan əməliyyatların sayında milli operatorun xüsusi çəkisi 3-4 faizə, ümumi quraşdırılmış bankomat və POS-terminalların sayında isə xüsusi çəkisi 1 faizə bərabərdir.

Nağdsız iqtisadiyyat quruculuğunun hazırkı mərhələsində yaranmış yeni çağırışlara cavab verə bilmək üçün bu istiqamətdə tədbirlər davam etdirilməlidir. Fikrimizcə, Azərbaycan Respublikasında nağdsız ödənişlərin dinamikası postpandemiya iqtisadiyyatı və ərazilərimizin işğaldan tam azad olunmasından sonrakı dövrünə çevik uyğunlaşdırılmalı, yeni pul tədavülü və ödəniş ekosisteminin yaradılmasına başlanılmalıdır.



# Pandemiya şəraitdə qida təhlükəsizliyinə yanaşmada nə dəyişməlidir?

*b.ü.f.d., dos. Mehriban Məhərrəmova*

İlk növbədə **qida təhlükəsizliyi dedikdə** nə başa düşülür? Qida məhsullarının təhlükəsizliyi dedikdə həmin məhsulların qəbulu zamanı həm kəskin mənfi təsirlər nöqteyi-nəzərindən (qida zəhərlənmələri və kəskin bağırsaq infeksiyaları), həm də gələcəkdə baş verə biləcək təhlükələr (kanserogen və mutagen təsirlər) nöqteyi-nəzərindən insan orqanizmi üçün təhlükənin olmamasını başa düşmək lazımdır.

Hazırda dünyada qida təhlükəsizliyinin idarə edilməsi üçün ən çox istifadə olunan sistem HACCP (Hazard Analysis and Critical Control Point – Təhlükəli Faktorların Analizi və Kritik Nəzarət Nöqtələri) sistemidir və bu, qida təhlükəsizliyinin idarə edilməsi üçün mühüm əhəmiyyət kəsb edən, təhlükəli faktorların identifikasiyası, qiymətləndirilməsi və onlara nəzarət mexanizmidir. Təhlükəli faktor – insan sağlamlığı üçün təhlükə mənbəyi olan ərzaq məhsullarında yer alan bioloji, kimyəvi və fiziki agent və ya ərzaq məhsulunun vəziyyətidir. Kritik Nəzarət Nöqtəsi isə təhlükəli faktorun qarşısını almaq, aradan götürmək və ya onu məqbul həddə salmaq üçün nəzarətin zəruri olduğu istehsal zəncirinin mərhələsidir. HACCP müasir dövrdə qida təhlükəsizliyinin idarə edilməsi üçün istifadə edilən ən səmərəli sistem hesab edilir. Bir neçə beynəlxalq təşkilat bu sistemi beynəlxalq statuslu standart kimi qəbul etmiş və qida təhlükəsizliyinin idarə edilməsi üzrə texniki-normativ qaydalar hazırlanmışdır.

Qida məhsullarının təhlükəsizliyinin təmin edilməsi və ərzaq siyasətinin həyata keçirilməsi məsələləri ilə təkcə bəzi ölkələrin rəhbərliyi deyil, eyni zamanda BMT-nin Ərzaq və Kənd Təsərrüfatı təşkilatı (FAO), ÜST (Ümumittifaq Səhiyyə Təşkilatı) və bu kimi digər beynəlxalq təşkilatları da ciddi məşğul olur. İnsanların sağlamlığını və genefondunu müəyyən edən əsas faktor kimi qida təhlükəsizliyi probleminin aktuallığı ildən-ilə artır. Azərbaycan Respublikası ərazisində bu məsələlərə nəzarəti Azərbaycan Respublikasının Prezidentinin 2017-ci il 13 noyabr tarixli Fərmanı ilə Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi həyata keçirir. Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi qida məhsullarının təhlükəsizliyinə, baytarlıq və fitosanitar nəzarətinə dair normativ tənzimləməni, qida təhlükəsizliyi sahəsində fəaliyyət göstərən subyektlərin qeydiyyatını, qida təhlükəsizliyi, fitosanitar və baytarlıq sertifikatlarının verilməsini, qida məhsullarının ilkin istehsalı, tədarükü, istehsalı, emalı, qablaşdırılması, saxlanması, daşınması, dövriyyəsi (o cümlədən idxal-ixrac əməliyyatları) daxil olmaqla qida zəncirinin bütün mərhələlərində qida məhsullarının təhlükəsizliyinə, həmçinin qida məhsullarının, dövlət baytarlıq və fitosanitar nəzarətində olan yüklərin istehlakçılarının hüquqlarının müdafiəsinə dövlət nəzarətini həyata keçirir.

Son bir ildə Çin Xalq Respublikasında başlayan və qısa bir zamanda dünyanı öz cənginə alan "COVİD-19" virusu insanların həyat və fəaliyyəti ilə bağlı bütün sahələrə öz mənfi təsirini göstərmişdir. Belə ki, insanlar öz gündəlik həyat tərzlərini dəyişib sosial məsafə, tibbi maska və əlcəklərdən istifadə etməyə məcbur qaldılar.Bundan əlavə insanların qida rasionu və qida ilə, bağlı qiqiyena qaydalarına daha da ciddi nəzarət artdı.

Pandemiya və bundan sonrakı dövürdə qida təhlükəsizliyində yanaşmaya gəldikdə isə fəaliyyət göstərən ictimai iaşə müəssisələrində virusa yoluxma hallarının və ya infeksiyanın yayılmasının qarşısının alınması məqsədilə həmin müəssisələrdə bir sıra zəruri qaydalara əməl edilməlidir. İctimai iaşə müəssisələri və mehmanxanaların ictimai iaşə sahələrində xidmətlərin təşkili Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarı və normativ hüquqi sənədlərin tələblərinə uyğun həyata keçirilməlidir. İctimai iaşə müəssisələrində, eləcə də mehmanxanaların ictimai iaşə sahələrində çalışan işçi heyət hər zaman şəxsi gigiyena qaydalarına ciddi riayət etməlidir. Həmçinin onların dəyişəkli təmiz iş geyimi olmalıdır. Gün ərzində bir çox insanla təmasda olduqlarından qoruyucu vasitələrlə və dezinfeksiyaedici məhlulla təmin olunmalıdırlar.

İctimai iaşə müəssisələrinin mətbəxində qida ilə təmasda olan səthlərin, alət və avadanlıqların təmizliyi təmin olunmalıdır. Mətbəxdə bütün qida məhsulları təmiz və qidanın xüsusiyyətinə uyğun şəkildə bağlı şkaflarda üstü qapalı şəkildə saxlanması tövsiyə olunur. Qida məhsullarına işçi heyətdən mümkün qədər az sayda insanın əllə toxunmasına icazə verilməlidir. Çarpaz yoluxma ehtimalını aradan qaldırmaq məqsədilə emal olunmamış qida məhsulları və hazır qidalar mətbəxdə ayrı-ayrılıqda saxlanmalıdır.

Eyni zamanda heyvan mənşəli məhsullardan yoluxma ehtimalının aradan qaldırılması üçün mətbəxə gətirilən heyvan mənşəli məhsullar dövlət baytarlıq nəzarətindən keçməklə müvafiq icazə sənədləri ilə müşayiət olunmalıdır.

Mətbəxdə yeməklər hazırlanarkən termiki emala riayət

olunması, o cümlədən xam məhsulların istifadədən əvvəl təmizlənməsi, yemək dəstlərinin, mətbəx avadanlıqlarının, çirkli səthlərin mütəmadi olaraq yuyulub təmizlənməsi təmin olunmalıdır.

Məlumdur ki, virus ən çox insanların çox toplaşdığı, gündəlik həyatlarında daha çox üz tutduqları məkanlarda yayılır. Belə məkanlardan biri də marketlərdir. Marketlərdə yeyinti məhsullarının satışı ilə bağlı bir sıra mühüm dəyişikliklər edilmişdir. Açıq formada satılan qida məhsullarının (çörək və un məmulatları, meyvə və tərəvəz, eləcə də ət məhsulları) kütləvi formada paketlənməsi həyata keçirilməyə başlandı. Bu artıq qida məhsullarının satışında yeni dövr idi. Belə ki, bu günə qədər açıq formada satılan məhsulların satışı daha təhlükəsiz şəraitdə həyata keçirilməyə başlandı. Nəzərə alsaq ki, virusun hava damcı yolu ilə yoluxma riski böyük olduğundan bu tədbirlərin həyata keçirilməsi vacib addımlardan biridir. Eyni zamanda ev şəraitində marketlərdən alınan məhsulları istifadə etməzdən əvvəl gigiyena tədbirlərinin görülməsi vacib amildir.

Yeyinti məhsullarının minimum keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində normalaşdırma bu məhsulların keyfiyyəti və təhlükəsizliyinə dair tələbləri, onların istehsal, daşınma, saxlanma, qablaşdırma, etiketləşdirmə və satış şərtlərini müəyyən edən, ekoloji, sanitariya, baytarlıq və fitosanitar, norma, qayda və tələblər vasitəsi ilə həyata keçirilir. Azərbaycan Respublikasına idxal olunan qida məhsulları müvafiq qaydada tanınmış və ya müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilmiş qida təhlükəsizliyi (sağlamlıq) sertifikatına malik olmalıdır. İdxal olunan yeyinti məhsulları sertifikatlaşdırılarkən təhlükəsizlik göstəricilərinin müəyyən edilməsi məqsədi ilə Agentlik tərəfindən ekspertizadan keçirilir. Ekspertizanın keçirilməsi üçün agentliyin mütəxəssisləri tərəfindən sertifikatlaşdırılan yeyinti məhsullarından nümunələr götürülür və "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq akkreditasiyadan keçmiş laboratoriyalarda onların sınağı (tədqiqi) aparılır.

Azərbaycan Respublikasında qida məhsulları sahəsində fəaliyyət göstərən subyektlərin qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə, gigiyenik, baytarlıq və fitosanitar tələblərə uyğunluğunun təmin edilməsi məqsədi ilə fəaliyyəti yoxlanılır, yeyinti məhsulları ekspertizadan keçirilir və həmin subyektlər qida təhlükəsizliyi qeydiyyatına alınır. Qida təhlükəsizliyi qeydiyyatına alınmış subyektlər dövlət reyestrinə daxil edilir və həmin subyektlərə reyestrdən çıxarış verilir. Qida məhsulları sahəsində fəaliyyət göstərən subyektlərin qida təhlükəsizliyi qeydiyyatı Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi tərəfindən həyata keçirilir. Yeyinti məhsullarının istehsalı, qablaşdırılması, ticarəti, tədarükü, saxlanması, idxalı, ixracı və daşınması zamanı onun minimum keyfiyyətinə və təhlükəsizliyinə dövlət nəzarəti funksiyalarını Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi həyata keçirir. Yeni növ qida məhsulları istehsalata hazırlanarkən onların tərkibi, minimum keyfiyyət və təhlükəsizlik göstəriciləri, insan orqanizmi üçün təhlükəsizliyi və yararlılıq müddəti, qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğunluğu müəyyən olunur, bu göstəricilər məhsulun normativ sənədlərinə daxil edilir.

Yeyinti məhsullarının qablaşdırılması və etiketləşdirilməsi onların minimum keyfiyyətinin və təhlükəsizliyinin və qidalılıq dəyərinin yararlılıq müddətində təhlükəsiz saxlanmasını və istifadəsini təmin etməlidir. Müvafiq icra hakimiyyəti orqanlarının icazəsi olmadan yeyinti məhsuluna "müalicəvi", "pəhriz" və onlara bərabər tutulan adların verilməsinə və reklam xarakterli digər məlumatların etiketdə yerləşdirilməsinə yol verilmir. Yeyinti məhsuluna "müalicəvi", "pəhriz" və onlara bərabər tutulan adların verilməsi və reklam xarakterli digər məlumatların etiketdə yerləşdirilməsi zamanı qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlarda nəzərdə tutulan tələblər yerinə yetirilməlidir. Yeyinti məhsullarının istehsalçıları istehsal etdikləri məhsulları qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğun olaraq qablaşdırmalı və etiketləşdirməlidirlər. Etiketdə məhsulun adı, növü və tərkibi, miqdarı (çəkisi), qida dəyərliliyi, istifadə sahəsi və qaydaları, istehsal tarixi və yararlılıq müddəti, saxlanma şərtləri, istehsalçının adı, ünvanı və qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlarda tələb olunan digər məlumatlar əks olunmalıdır. Azərbaycan Respublikasının ərazisində istehsal edilən, habelə ixrac edilən malların üzərindəki etiketlər və digər yazılar müvafiq xarici dillərlə yanaşı, dövlət dilində də olmalıdır. Azərbaycan Respublikasına idxal edilən yeyinti məhsullarının üzərindəki etiketlər və adlar, onlardan istifadə qaydaları barədə izahat vərəqələri başqa dillərlə yanaşı, Azərbaycan dilinə tərcüməsi ilə müşayiət olunmalıdır.

**Hazırda dünyada qida təhlükəsizliyinin idarə edilməsi üçün ən çox istifadə olunan sistem HACCP – Təhlükəli Faktorların Analizi və Kritik Nəzarət Nöqtələri**




# KORONAVİRUS COVİD-19 PANDEMİYASINDAN SONRA BEYNƏLXALQ TURİZM NECƏ İNKİŞAF EDƏCƏK?

*i.f.d., dos. Rzayeva İnarə*

BEYNƏLXALQ TURİZM MÜASİR QLOBAL İQTİSADİYYATIN PRİORİTET SAHƏLƏRİNDƏN BİRİDİR. GƏLİR BAXIMINDAN BU SEKTOR NEFT SƏNAYESİ VƏ AVTOMOBİL SƏNAYESİNDƏN SONRA ÜÇÜNCÜ YERDƏDİR. ÜMUMDÜNYA TURİZM TƏŞKİLATININ (UNWTO) MƏLUMATINA ƏSASƏN, TURİZMİN DÜNYA ÜDM-DƏKİ PAYI 10,4% TƏŞKİL EDİR, TURİZM SƏNAYESİ 320 MİLYON İŞ TƏMİN ETMƏK GÜCÜNDƏDİR.

Covid-19 koronavirusu səbəbindən dünyada davam edən xaos şəraitində turizm sənayesində görünməmiş bir vəziyyət meydana gəldi. Mütəxəssislərin fikrincə, 1950-ci ildən bəri turizmin inkişaf tarixində bugünkü kimi çöküş olmamışdır. Mart-iyun aylarında beynəlxalq turizm hərəkəti tamamilə dayanmışdır və yay aylarında bəzi ölkələrdə bir qədər canlandı. Lakin qətiliklə deyə bilərik ki, bütün turizm yönümlü ölkələr çox ağır zərbə aldı.

**Şəkil 1.** 2019-cu ildən 2020-ci ilədək dünya miqyasında koronavirus (COVID-19) pandemiyası səbəbindən beynəlxalq turizm gəlişlərində dəyişiklik (mlrd.)




**Mənbə:** https://www.statista.com

**Şəkil 2.** Dünya miqyasında koronavirus (COVID-19) pandemiyası səbəbindən beynəlxalq turizm daxilolmalarında proqnozlaşdırılan dəyişiklik (milyard ABŞ dolları ilə)




**Mənbə:** https://www.statista.com

Bildiyiniz kimi, turizm sənayesi bir-birinə bağlı qlobal sənaye sistemi olaraq, tur operatorlar şirkətləri və səyahət agentlərini, otel və restoran biznesini, əyləncə sektorunu və nəqliyyat şirkətlərini özündə birləşdirir.

Bütün bu strukturlar ciddi maliyyə itkilərinə məruz qaldı. Bundan əlavə, turizm sahəsində ixtisaslaşmış ölkələrdə işsizlik nisbəti artmışdır. Ümumdünya Turizm Təşkilatının (UNWTO) hesablamalarına görə, mövcud vəziyyət 850 milyondan 1,1 milyarda qədər turizm gəlişinin itirilməsinə səbəb ola bilər. Milli iqtisadiyyatların ixracat gəlirlərindəki azalma trilyon dolları keçəcək və turizm sənayesində 100 milyondan çox iş yeri itiriləcək.

2020-ci il üçün cədvəldən göründüyü kimi, Ümumdünya Turizm Təşkilatı beynəlxalq turistlərin sayının 1,460 mlrd. olacağını və mart ayında pandemiyanın baş verməsi nəticəsində bu göstəricinin proqnozdan 30% az olduğunu proqnozlaşdırdı. 2020-ci ilin ilk beş ayında beynəlxalq turizm gələnlərinin sayı keçən ilin eyni dövrünə nisbətən 56 % azalıb. May ayında beynəlxalq gəlişlər 98% azaldı və bu, koronavirus COVID-19 pandemiyasının yayılmasının qarşısını almaq üçün dünyanın bütün bölgələrinə səyahət məhdudiyyətlərini əks etdirdi.

Mart ayına olan göstəricilərə əsasən, Ümumdünya Turizm Təşkilatının məlumatına əsasən, 2020-ci ilin yanvar-iyun ayları arasında olan beynəlxalq səyahət tələbatının kəskin azalması 440 milyon beynəlxalq gəlişin və beynəlxalq turizmdən 500 milyard dollarlıq ixrac gəlirlərin itkisinə səbəb oldu. Bu isə

2009-cu ildə qlobal iqtisadi və maliyyə böhranı nəticəsində baş verən beynəlxalq turizm gəlirlərindəki itkidən təqribən beş qat artıqdır. UNWTO mütəxəssislərinin əksəriyyəti beynəlxalq turizmin 2021-ci ilin ikinci yarısında bərpa oluna biləcəyinə düşünür.

**Koronavirus COVID-19 pandemiyası Azərbaycanın da turizm sektorunu mənfi təsir etdi.**

UNWTO məlumatlarına görə, 2020-ci ilin sonunadək dünyada turistlərin sayı

**Şəkil 3.** Azərbaycana xaricdən gələn turistlərin illər üzrə dinamikası 2015-2020 (min nəfər)




**Mənbə:** Azərbaycan Dövlət Statistika Komitəsi və UNWTO məlumatı əsasında hesablanmış proqnoz

Şəkil 4. Beynəlxalq turizm gəlişi, 2000-2019 və 2020-ci il (3-cü ssenari) (milyon)




**Mənbə:** Ümumdünya Turizm Təşkilatı (ÜTT)

təxminən 60-80% azala bilər. Bunu nəzərə alaraq, 2020-ci ilin sonunadək Azərbaycana gələn xarici turistlərin sayının 1 268 200 nəfərədək azalacağını ehtimal etmək olar. Dünya Səyahət və Turizm Şurasının (DSTŞ) məlumatına əsasən, bu sektorun ölkəmizdə yaratdığı iş yerlərinin sayı təqribən 378.000-dir (ümumi məşğulluğun 7,7%). DSTŞ-nin proqnozlarına görə, pandemiya səbəbindən iş yerlərinin təxminən 31%-nin itiriləcəyini nəzərə alsaq, Azərbaycanda turizm sektorunda iş yerlərinin sayı ilin sonuna qədər təxminən 260.820 iş yerinə endirilə bilər.

Pandemiyanın başlanğıcında Ümumdünya Turizm Təşkilatı 2020-ci ildə turizmin bərpası üçün ən çox ehtimal olunan üç ssenari hazırladı, lakin bütün bu proqnozlar təbii olaraq çox təxminidir, çünki pandemiyanın başa çatma müddəti barədə dəqiq məlumat yoxdur. Birinci ssenariyə əsasən, sərhədlər iyul ayında açılsaydı (bunu yalnız ayrı-ayrı ölkələr etdi), 2020-ci ildə beynəlxalq turizm axınları 58% azalmalı idi. Lakin Ümumdünya Turizm Təşkilatının proqnozları sərhədlərin tam açılmasını nəzərə alaraq hesablanmışdı ki, bu da baş vermədi. İkinci ssenariyə əsasən, virusun yayılmasını məhdudlaşdıran tədbirlərin tamamilə aradan qaldırılması və sərhədlərin açılması sentyabr ayında nəzərdə tutulurdu və bu halda səyahətlər 70 % azalacaqdı. Lakin artıq avqustun sonunda Avropa ölkələri COVID-19 pandemiyasının ikinci dalğasının başladığını elan etdilər. Nəhayət, üçüncü, bir qədər pessimistik ssenariyə əsasən, turizm ilin sonuna

qədər bərpa olunmağa başlayacaq və səyahətlərin sayı 78 % düşəcək. Bu da o deməkdir ki, 2020-ci ilin sonunda dünya üzrə beynəlxalq turizm gəlişləri 1,46 milyard nəfərdən 320 milyon nəfərədək, turizmdən olan gəlirlər isə 1,5 trilyon dollardan 310 milyard dollara enəcək.

Mütəxəssislərin fikrincə, pandemiya dövründə turizm növlərinin prioritetləri dəyişəcək, bəzi növlər aktuallığını itirə bilər, bəzilərinə isə daha çox tələbat ola bilər. Məsələn, online texnologiyaların aktiv istifadəsi əsasında işgüzar və təhsil turizmə olan tələbat azala bilər, istirahət və müalicəvi turizm öz mahiyyətini itirməyəcək, ekoloji turizmin aktuallığı artacaq.

Məlum olduğu kimi, hava nəqliyyatı turizm sənayesi qədər pandemiya COVİD-19-dan zərər çəkib və mütəxəssislərin fikrincə, turizm sənayesinin mühüm tərkib hissəsi olan beynəlxalq sərnişin axınının bərpası prosesi uzun müddət çəkəcək. Sərnişin daşımaların həcmi 2019-cu ilin səviyyəsinə yalnız 2023-cü ildə çata bilər. Buna görə də, fikrimizcə, bu iki sahə eyni zamanda bərpa olunmalıdır. Bundan əlavə, sərnişinlərin hava nəqliyyatı bərpa olunsa da, fikrimizcə, bu nəqliyyat növü üçün qiymətlər xeyli artacaq və bu da turizm sektoruna çox mənfi təsir göstərəcəkdir. Turizm sənayesi gəlirin böyük hissəsini kütləvi olması nəticəsində alır, yəni turizm yalnız orta sinif turistlərinin cəlbi ilə aktiv inkişaf edə bilər və qiymətlər yüksəlməsi nəticəsində turist səfərlərinə tələbat azala bilər.

Proqnozlara əsasən, ölkələrdə daxili turizm beynəlxalq turizmə nisbətən daha sürətli bərpa olunacaq. İyun və iyul aylarında turizmin bərpasına uyğun olaraq, respondentlərin yarısı daxili turizmin 2020-ci ilin ikinci yarısında bərpa olacağını, digər yarısı isə 2021-ci ildə bərpa olacağını gözləyirlər. Üstəlik, bir müddət turizm sahəsində ixtisaslaşmış ölkələrdə daxili turizm beynəlxalq turizmə nisbətən daha vacib bir rol oynayacaq. Pandemiyadan sonrakı dövrdə Azərbaycanın daxili turizm potensialını artırmaq üçün çox əlverişli imkanları var. 2019-cu il üçün DSTŞ-nin məlumatına əsasən, Azərbaycanda daxili turizmin payı ümumi səyahət və turizm xərclərinin 43%-ni Qırğızıstan Respublikasında - 35%, Gürcüstanda - 22%, Özbəkistanda - 30% təşkil edirdi.

Beləliklə, vəziyyət, həqiqətən, misli görünməmişdir və sənayenin nə zaman bərpa olacağını dəqiq demək mümkün deyil. Ancaq bir şey aydın oldu, bərpa olunduqdan sonra da turizm fərqli olacaq.





# DİSTANT İŞİN ƏMƏK NORMALARI

*i.e.d., prof., Əlirzayev Əli*

PANDEMİYA ŞƏRAİTİ ƏMƏK PROSESİNDƏ VƏ ƏHALİNİN RİFAH SƏVİYYƏSİNDƏ KEYFİYYƏT VƏ KƏMİYYƏT DƏYİŞMƏLƏRİ FORMALAŞDIRDI. ƏMƏK PROSESİNDƏ İŞTİRAKIN AZALMASI, BAZAR TƏLƏBATINA UYĞUN MƏHSUL VƏ XİDMƏTİN AZALMASINA DÖVLƏT, XÜSUSİ VƏ FƏRDİ GƏLİRLƏRİN AZALMASINA SƏBƏB OLUR. TƏBİİ Kİ, PANDEMİYANIN VURDUĞU FİZİKİ VƏ MADDİ ZƏRƏRİ KOMPENSASİYA ETMƏK ÜÇÜN İNZİBATİ, TƏŞKİLATİ VƏ İQTİSADİ TƏDBİRLƏRİN SEÇİLMƏSİ VƏ TƏTBİQİ HƏR BİR ÖLKƏDƏ ÖZÜNƏMƏXSUS MEXANİZMLƏR İLƏ REALLAŞIR.

Azərbaycanda sosial tədbirlər olaraq, gizli iqtisadiyyata qarşı mübarizə, özünəməşğulluğa şərait və stimul yaratmaq, vergi güzəştləri, subsidiya sistemi dövlət hesabına xərclərin ödənilməsi yolları xarakterik hal kimi fərqlənir.

Əmək prosesini təşkil etmək üçün infrastruktura və sosial obyektlərin daha da səmərəli təşkili və idarə edilməsi zəruriyyəti meydana çıxır. Distant işin zəruriliyi əhalinin fiziki imkansızlığı və pandemiya, insan amilinin məhdudlaşması ilə bağlıdır. Amma distant təhsil, xidmət, idarəetmədə də müəyyən meyarlar, etik normalar, keyfiyyət göstəriciləri və nəzarət sistemi mövcuddur. İlkin növbədə məsrəfləri azaltmaq, əlavə xərclər çəkmək və ev təsərrüfatı ilə məşğul olmaq kimi sosial səmərələr əldə olunur.

Hər kəs elektron idarəetmə prosesi olaraq müəyyən normalaşmış əmək və metodiki göstəricilərə yiyələnmək üçün standart biliklər alır. Artıq təhsil prosesində və hər hansı biliklərə yiyələnmək üçün dünya səviyyəsində tədqiq olunmuş obyekt və proseslərin təhlilinə sahib ola bilir.

Vahid elm, təhsil, peşə standartları potensial yanaşmada güclərin maksimal istifadəsini təşkil etməklə alınan nəticələri proqnozlaşdırır. Əmək prosesinin nəticələri və onun müxtəlif şəraitlərdə differensiallaşmasını nəzərə almaqla əməkhaqqı sistemi və xərc strukturu formalaşır. Distant işin əmək normaları əməyin xarakterinə və yaşayış üçün zəruri olan məhsullara ehtiyaca görə əmək məsrəflərinə uyğun olmalıdır.

Distant işin təşkili obyektindən asılı olaraq əməyin xarakterinə, keyfiyyətinə nəzarət sistemi qurulur. Uzaq məsafədən işin əks-əlaqəli keyfiyyəti, əməli düz amillər və diskussiya tələbləri olduqda onun nəticələri yuxarı olur.

Distant əməyi xüsusi hazırlıq tələb edən əməkdir. Təbii ki, bu işin səmərəli təşkili üçün xüsusi təlimlər vermək vəzifəsi müəssisə, dövlət, xüsusi şirkətlər və hüquqi şəxslərin istifadəsi ilə mümkündür. Distant idarəetmə, mürəkkəb, əməli, çevik və real vəziyyətə uyğun olaraq təkmilləşir. Bu məqsədlə informasiya bazası ümumi və konkret vəzifələr üçün bütöv və adekvat təhlil olunmalı proqnoz xarakterli təkliflər ilə tamamlanmalıdır.

Distant təhsil, distant konfranslar, müxtəlif proqramların tərtibi və ona olan bazara uyğun səmərəli təşkili aspektlərini kəsb

**DİSTANT TƏHSİL, XİDMƏT, İDARƏETMƏDƏ DƏ MÜƏYYƏN MEYARLAR, ETİK NORMALAR, KEYFİYYƏT GÖSTƏRİCİLƏRİ VƏ NƏZARƏT SİSTEMİ MÖVCUDDUR.**



edir. Ona görə də bu əməyin nəticələri icraçı və sifarişçi tərəfindən qiymətləndirilməlidir. Distant bazarında rəqabət, variantlıq, xərclər və nəticələr, müştərilər və icraçılar tərəfindən qiymətləndirilir. Təbii ki, əmək bazarı da xüsusi xərclər tələb edir. Bu xərclərin bölüşdürülməsi maliyyə aşkarlığı şəraitində innovasiyalı əməyin inkişafına təsir edir.

Dövlət büdcəsində innovasiyalı əmək fəaliyyətinə investisiyaların artması və idarəetmə mexanizmləri olan vergi, subsidiya, investisiya rəqabət mühiti ilə distant əməyin tənzimlənməsi genişlənir. Distant əmək fəaliyyəti rəqabət mühitində əməyin nəticələrinin və onun yeni variantlarını işçilərdən almağa əsas verir.

Distant işində əməyin normaları, onun vaxt məsrəfi və görülən işin, məhsulun miqdarı, keyfiyyəti ilə qiymətləndirilir. Belə ki, hər hansı iş intellektual əmək məsrəfi, vaxt amili ilə deyil, onun səmərəsi ilə ölçülməlidir (İntellektual əmək məsrəfi, uzun illər təcrübəsi, yeni kompüter bilikləri, potensial biliklər əmək dövriyyəsinə gətirilməli və onun istifadəsi mərhələlərini əhatə edir). Təbii ki, əməyin xarakteri daha intensivləşir, ümumiləşir və informasiya bazarında əhatəli, həmçinin fərqli olmalıdır. Bu da əməyin ödənilməsi üçün zəruri olan son məhsulun artırılmasını tələb edir. Distant işin əmək normaları, əməkhaqqı, stimullar, vaxta görə differensasiya ilə qiymətləndirilir. Minimum əmək haqqının artması distant əməyin minimum əməkhaqqından hələ çox fərqi olması ölkədə siyasət olaraq formalaşır. Distant tutumlu sahələrdə orta aylıq əməkhaqqına yaxınlaşma meyilləri təmin olunmalıdır. Pandemiya şəraitində əməkhaqqı, sosial müdafiə tədbirləri iqtisadi mübarizə olmaqla dövlət siyasətinin əsas hədəfi və meyarıdır.

# Vaksin geoiqtisadiyyatı

*dos. Altay İsmayılov*

*Artıq 1 ildən çoxdur ki, bəşəriyyəti təhdid edən COVİD-19 virusu qlobal iqtisadiyyatı mənfi mənada öz təsiri altına almışdır. Pandemiyanın səbəb olduğu qismən və tamamən qapanmalar həm mikro, həm də makro baxımdan fərdləri, şirkətləri və bütünlükdə ölkə iqtisadiyyatlarını iflic etmişdir.*

Beynəlxalq Valyuta Fondu (IMF) 2020-ci il etibarilə qlobal iqtisadiyyatın 4,4% səviyyəsində gerilədiyini elan etdi. Pandemiyanın ayrı-ayrı sektorlar və iqtisadi göstəricilər üzərindəki təsiri də müxtəlif oldu. Belə ki, pandemiya özünün mənfi təsirini göstərdiyi sektorların başında turizm və nəqliyyat gəlirkən, iqtisadi göstəricilər içində isə məşğulluq ön sırada yer aldı. OECD-nin açıqlamalarına görə, COVİD-19-un məşğulluğa ilkin təsiri dünya iqtisadiyyatının ən son üzləşdiyi 2008-ci il maliyyə krizinin ilk ayları ilə müqayisədə 10 dəfə çox oldu. Açıqlamaya görə, bu durumdan təsirlənən kateqoriya daha çox aşağı gəlirli işçilərdir.

IMF-ə görə, ortaya çıxan vəziyyəti idarə etmək üçün hökümətlər dövlət xərclərini artırdılar. Belə ki, pandemiyanın birinci mərhələsində iqtisadi itkiləri azaltmaq və işsiz qalan əhalini qorumaq üçün müxtəlif ölkələr tərəfindən ayrılan fondların miqdarı 12 trilyon dollara çatdı. Pandemiyanın sonrakı mərhələsində də dövlət xərclərinin artmağa davam etdiyini və hələ də prosesin sonlanmadığını nəzərə aldıqda bu miqdarın daha böyük rəqəmlərə çıxacağını təxmin etmək olar. Bu da, təbii olaraq, ölkələrin borc yükünü artırmağa səbəb olmaqdadır.

Hal-hazırda dünyanın COVİD-19 böhranının hansı mərhələsində olduğunu söyləmək mümkün deyil. Bir tərəfdən dünya mediasında virusun mutasiyaya uğramış formalarının yayılması haqqındakı qeyri-müəyyənlik yaradan xəbərlər, digər tərəfdən yeni növ virusların dünyanı təhdid etdiyi haqqında dünyaca tanınmış şəxslərin açıqlamaları iqtisadi gözləntilərə mənfi təsir edərkən, insanların psixoloji sağlamlıqlarını da pozmağa davam edir. Üstəlik, bir sıra ölkələrdə yoluxmanın yenidən sürətlə artım trendinə girməsi vəziyyəti daha da gərginləşdirməyə davam edir. Bu istiqamətdə çarəsiz qalan dünyanın tək ümidi mövcud virusa qarşı vaksinin (peyvəndin) tapılması və bəşəriyyətin bu bəladan tezliklə qurtulmasıdır.

Bu istiqamətdə dünyada təsdiqlənən və 2020-ci ilin dekabr ayından etibarən bir sıra ölkələr tərəfindən istifadə edilməsinə qərar verilən ilk COVİD-19 vaksini Amerika dərman şirkəti Pfizer ilə Almaniyanın biotexnologiya firması BioNTech-in istehsal etdiyi BioNTech/Pfizer vaksini oldu. Vaksin ilk olaraq Amerika və İngiltərədə, dekabrın sonu etibarilə digər Avropa ölkələrində istifadə edilməyə başlandı. Bundan qısa müddət sonra yenə Amerikan biotexnologiya şirkəti Modernanın istehsal etdiyi vaksin tətbiq edilməyə başlandı. Əlavə olaraq, Oksford Universiteti ilə İngilis-İsveç dərman firmaları olan AstraZeneca-nın birgə əməkdaşlığı ilə ortaya çıxarılan



## İlk Covid 19 vaksini Amerikanın Pfizer ilə Almanın BioNTech/ Pfizer vaksini oldu.

Oxford/AstraZeneca vaksini də Yanvar 2021-dən etibarən insanlara vurulmağa başlanacaq.

Yuxarıda qeyd olunan ölkələrdən başqa Çin və Rusiya da tapdıqları Covid 19 vaksinini tanıtdı və bir sıra ölkələr tərəfindən klinik yoxlamalar və kütləvi tətbiq üçün tədarük edilməyə başlanıldı. Çin vaksini CoronaVac Çinin dərman şirkəti Sinovac Biotech və Braziliyanın bioloji tədqiqat institutu Butantanın birgə əməkdaşlığı ilə tapıldı. Rusiya da ölkə daxilində ortaya qoyduğu Sputnik vaksinini tanıdaraq fevral 2021-dən etibarən vaksinin təsdiqi üçün Avropa Birliyi qurumlarına müraciət edəcəyini açıqladı. Bu sıraya Hindistan şirkəti Bharat BioNTech-in tapdığı və ölkədə təcili durumlar üçün təsdiqini alan, rəsmi adı Covaxin-i və digər başqa vaksinləri də əlavə etmək olar.

Qeyd olunan vaksinlər bir tərəfdən mövcud olan qlobal təhdidə bir ümid olsa da, digər tərəfdən vaksinlərin təsirlilik dərəcəsi müzakirə mövzusu olmaqda davam edir. Belə ki, yuxarıda adları keçən vaksinlərin təsirlilik dərəcələri fərqlilik göstərməkdədir. Ümumiyyətlə əldə edilən hesabat nəticələrinə görə, indiyə qədər Pfizer vaksini 95%, Modernanın isə 94,5%-lik təsirlilik göstərdiyi, Oksford vaksininin təsirliliyinin 70%-dən yuxarı, Çin vaksini CoronaVac-ın isə təsirliliyinin 60%-dən yuxarı olmadığı iddiaları mövcuddur. Bu iddiaların doğruluğu isə tam şəkildə təsdiqini tapmamışdır. Qeyri-müəyyənliyə səbəb olan hallardan biri də budur ki, Çin vaksininin Braziliyadakı təsirliliyi 50%-in üzərində seyr edərkən, Türkiyədə bu rəqəm 91%-lik bir nəticə göstərmişdir. Bu da müəyyən hallarda vaksinlərin təsirliliyini ölkələrə görə də fərqlilik göstərməsi müzakirələrini gündəmə gətirməkdədir. Bundan əlavə qeyd etmək lazımdır ki, virusun getdikcə mutasiyaya uğraması da vaksinlərin təsirlilik dərəcəsinin aşağı düşməsi kimi ayrı bir təhlükəni də ortaya çıxarmışdır.

Yuxarıda görüldüyü kimi, dünyanı təhdid edən COVİD-19 krizi özlüyündə qlobal miqyasda bir vaksin bazarının formalaşmasına səbəb olmuşdur. Bu bazarın spesifik xüsusiyyətlərindən biri də həm potensial istehsalçılar, həm də potensial alıcılar arasındakı rəqabətdir. Aydın məsələdir ki, dünyadakı milyardlarla insanın qısa müddətdə vaksinlə təmin edilməsi, istehsal imkanları  baxımından bunun çatdırılması asan məsələ deyildir. Məsələn, 2020-ci ilin dekabr ayının ortası etibarilə Oksford/AstraZeneca vaksini 2 milyard 786 milyon doza ilə ən çox sifariş alan vaksin olmuşdur. Novavax-ın sifarişi də 1 milyard 337 milyondur. Biontech/Pfizer vaksini isə ilk  COVİD-19 vaksini olmağına baxmayaraq, yenə qeyd olunan tarixə qədər 921 milyon sifariş almışdır.



Aydındır ki, hər keçən gün bu və digər təsdiqlənmiş vaksinlərin sifarişi artaraq davam edəcəkdir. Amma getdikcə artmaqda davam edən bu qədər vaksinin vaxtında istehsal edilib sifarişçi ölkələrə təmin edilməsi asan olmayacaqdır. Elə alınan ilk işarətlər də vaksin tərminin gecikməsi istiqamətindədir. Bu nümunələrdən biri Avropa Birliyi  ölkələridir. Ən son məlumatlara görə, AB ölkələrinin 2021-ci ilin mart ayının sonuna qədər AstraZeneca-dan gözlədiyi vaksin dozasının sayı 100 milyon olduğu halda şirkət o tarixə qədər bu sayının ancaq 1/4-nü təmin edə biləcəyini bildirmişdir. Təsdiqlənmiş Biontech/Pfizer vaksini də istehsal prosesindəki düzəlişlər səbəbilə tədarükü müvəqqəti olaraq gecikdirəcəyini bəyan etmişdir. Bu gecikmələr səbəbilə İspaniya hökuməti vaksinin ilk dozasının vurulması ilə əlaqədar verilən tarixi ikihəftəlik gecikdirdiyini elan etmişdir. Ümumilikdə bu prosesin gecikməli olaraq davam edəcəyi şübhəsizdir.

Digər məsələ ölkələr arasında inkişaf səviyyəsinə görə hər ölkənin lazımi səviyyədə vaksin təmin edib edə bilməyəcəyi ilə əlaqədardır. Belə ki, ilkin işarətlər göstərir ki, yoxsul ölkələr vaxtında və yetərli qədər vaksinin alınmasında geridədirlər. Bunun əsas səbəbi zəngin ölkələrin öncədən və ehtiyacdan da çox sayda vaksin alışı üçün sifarişlərini verməsidir. Məsələn, yayılan məlumata görə, Kanada hər bir vətəndaşın 5 dəfədən çox  vaksinlənməsini təmin edəcək qədər çox sifariş vermişdir. Bu və bunun kimi digər nümunələrə görə inkişafdan geri qalmış, xüsusilə aşağı gəlir qrupuna mənsub ölkə vətəndaşları vaksin üçün 2022-ci ili gözləmək məcburiyyətində qala bilərlər. Hətta 91 ölkədən 2 milyarda yaxın insanın vaksin üçün 2024-cü ili gözləməli olduğu da iddialar arasındadır. Bəzi ölkələr də, başda Latın Amerikası ölkələri – Argenitina, Venesuela, Boliviya olmaqla - prosesdən geri qalmamaq üçün hələ ki, klinik yoxlamaları tamamlanmadığı halda Rusiyanın Sputnik vaksinindən sifariş verməyə başladı. Bu təhlükəli gedişata Dünya Səhiyyə Təşkilatının (WHO) sədri Tedros Adhanom Ghebreyesus “Dünya əxlaqi çöküntü fəlakətinin astanasındadır” şəklində reaksiya göstərmişdir.

Aydındır ki, dünyada COVİD-19-la əlaqədar artıq formalaşan vaksin bazarında istehsalçı ölkələrin iqtisadi maraqları vardır. Buna görə də hər bir istehsalçı ölkə həm bu bazardan daha böyük nisbətdə pay almaq, eyni zamanda strateji mövqeyini də möhkəmlətməyə çalışır. Yəni, bir növ ölkələr iqtisadi amillərdən yola çıxaraq dünyadakı geopolitik təsirlərini artırmaq istəyir. Yəni, əslində dünyada geoiqtisadiyyatın yeni bir istiqaməti olan vaksin geoiqtisadiyyatı formalaşır. Bu prosesin tərəfləri bir tərəfdən Amerika və Avropanın timsalında Qərb ölkələri olarkən, digər tərəfdən isə xüsusən son dövrlərdə dünyadakı geoiqtisadi sahədə Amerikanın bir nömrəli rəqibinə çevrilmiş Çin dayanır. Bundan başqa bu rəqabətə Rusiya və Hindistan kimi ölkələr də can atmağa çalışır. Geoiqtisadi baxımdan proses bir mənada vaksin muharibəsinə doğru gedir.

Vaksin muharibəsində Amerikanın mövqeyi birmənalıdır: əldəki bütün imkanlarla Çində istehsal olunan vaksinləri “Çin vaksini” adlandırmaqla şüuraltında keyfiyyətsiz və təsirsiz vaksin fikrinin formalaşdırması. Öz növbəsində Çin də bu savaşda boş durmur. Bloomberg-ə görə, Çin COVİD-19 vaksinləri ilə inkişaf etməkdə olan ölkələrdə siyasi və iqtisadi bir güc əldə etməyə çalışır. Amma vaksinin təsirlilik dərəcəsi aşağı çıxmağa davam edərsə Çin də bu məqsədinə nail ola bilməyəcəkdir. Xülasə, bir tərəfdən dünya əhalisi COVİD-19 virusu ilə sosial, iqtisadi, psixoloji və digər travmalar yaşayarkən, digər yandan bu həssas və təhlükəli vəziyyət belə, dünya güclərinin, başda Amerika və Çin olmaqla, vaksin üzərindən geoiqtisadi maraqlarını təmin etmək maraqlarını azalda bilməmişdir.

Nəticə olaraq, müxtəlif ölkələrin dünya ticarətində bir-birinə rəqib olmaları, buna bağlı olaraq tarixi keçmişdən bu yana siyasi ağırlıqlarını artırmaq uğrundakı fəaliyyətləri, strateji siyasətləri, geoiqtisadi üstünlük əldə etməyə çalışmaqları başa düşüləndir. Ancaq hal-hazırkı situasiya daha fərqli və təhlükəlidir. Çünki burada söhbət artıq bəşəriyyətin taleyindən, insanlığın gələcəyindən gedir. Bu sahədə müxtəlif  konspirologiya nəzəriyyələrinin müzakirəsi bu təhlükənin təzahürlərindəndir. Odur ki, qlobal güclər, iqtisadi, ticari, siyasi, strateji və geoiqtisadi maraqlarını bir yana qoyaraq, bu məsələdə birgə hərəkət etməli, daha məsuliyyətli olmalı və bəşəriyyətin gələcəyini təhlükə altında qoymamalıdırlar.



**Çin vaksininin Braziliyadakı təsirliliyi 50%-in üzərində seyr edərkən, Türkiyədə bu rəqəm 91%-lik bir nəticə göstərmişdir.**

# UNEC EKSPERT

## redaksiya HEYƏTİ

BAŞ REDAKTOR
prof. Ədalət Muradov
MƏSUL KATİB
dos. Anar Rzayev
TƏRTİBATÇI
Zaur Əziz
KORREKTOR
Sadiq Qarayev
REDAKSİYANIN ÜNVANI
AZ 1000, Bakı, Azərbaycan,
İstiqlaliyyət küçəsi 6.
Tel.: 012 437 10 86
www.unec.edu.az
expert@unec.edu.az
MƏTBƏƏ: ŞƏRQ-QƏRB
TİRAJ: 1000
JURNAL İLDƏ İKİ DƏFƏ NƏŞR OLUNUR.
ƏDLİYYƏ NAZİRLİYİ QEYDİYYAT NÖMRƏSİ #4026

#02 (09) 2020
#01 (10) 2021

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

UNEC

# UNEC KARYERA MƏRKƏZİ

## XİDMƏTLƏRİMİZ

*UNEC Karyera Mərkəzi olaraq əsas vəzifəmiz tələbələrimizi peşəkar iş həyatına hazırlamaq, şəxsi inkişaflarına dəstək olmaq, işəgötürənlərlə sıx əməkdaşlıqlar qurmaq və məzunlarımızla sağlam əlaqələri daim qorumaqdır.*

01 İş həyatına hazırlıq

02 Bacarıqların təkmilləşdirilməsi

03 İş dünyası ilə əlaqələrin gücləndirilməsi

+994 12 497-71-35

www.unec.edu.az